DƏYANƏT MUSAYEV

# TARİXİN TƏDRİSİNDƏ İNTERAKTİV METODLARDAN İSTİFADƏNİN İMKANLARI

## MONOQRAFİYA

*ADPU-nun Elmi Şurasının 2 mart 2022-ci il tarixli iclasının*
*3 saylı protokolundan cıxarışının qərarı ilə*
*çapa tövsiyə olunub*

**Bakı - 2022**

*Dəyanət Musa oğlu Musayev*
*Pedaqogika üzrə fəlsəfə doktoru*

***Təhsilimdə və elmi fəaliyyətimdə mənə həmişə dəstək olan validеynlərim Musa müəllimə və Sevil xanım Musayevlərə ithaf olunur.***

***Elmi redakdor***
***Mübariz Əmirov***
*Pedaqogika üzrə elmlər doktoru, professor, Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ümumi tarix və tarixin tədrisi texnologiyası" kafedrası*

***Rəyçilər***
***Anar İsgəndərov***
*Tarix üzrə elmlər doktoru, professor, Bakı Dövlət Universitetinin "Mənbəşunaslıq, tarixşunaslıq və metodika" kafedrasının müdiri*

***Oqtay Sultanov***
*Tarix üzrə elmlər doktoru, professor, Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ümumi tarix və tarixin tədrisi texnologiyası" kafedrası*

***İntiqam Cəbrayılov***
*Pedaqogika üzrə elmlər doktoru, Azərbaycan Respublikasının Təhsil İnstitutunun "Təhsilin nəzəriyyəsi və tarixi" şöbəsinin müdiri*

*Monoqrafiyada ümumtəhsil məktəblərində tarix fənninin tədrisi ilə bağlı yerli və xarici təcrübə ümumiləşdirilərək təqdim edilir. Azərbaycanda tarixin interaktiv təlim metodlarının aktual problemlərinə, məqsədlərinə, prinsiplərinə və məzmununa xüsusi diqqət yetirilir. Monoqrafiyada tarixin interaktiv təlim metodlarından istifadənin didaktik imkanları həm nəzəri, həm də praktiki cəhətdən araşdırılır. Yeni tədris proqramı - kurikulumun tələblərinə uyğun olaraq tarixin müasir təlim metodlarının mahiyyəti açıqlanır. Monoqrafiyada tarix fənninin interaktiv təlim metodları ilə tədrisinin öyrədici, inkişafetdiri və tərbiyəedici imkanları təhlil olunur, onun zəruriliyi və xüsusiyyətləri əsaslandırılır. Monoqrafiyanın sonunda açıq dərs nümunələri verilir.*

*© 19472236921 ———————— – Qrifli nəşr*

# ÖN SÖZ

Monoqrafiya müəllifin "Ümumtəhsil məktəblərində Azərbaycan tarixinin tədrisində interaktiv təlim metodlarından istifadənin imkanları" adlı pedaqogika üzrə fəlsəfə doktoru elmi adı almaq üçün müdafiə etdiyi dissertasiyasının materialları əsasında nəşrə hazırlanmışdır.

Monoqrafiyada tarixin tədrisində interaktiv təlim metodlarından istifadənin didaktik imkanları araşdırılır. Müəllifin bu problemin ilk tədqiqatçılarından biri kimi qiymətləndirmək yerinə düşər. Tədqiqatda XXI əsrin əvvəllərindən bu günlərimizədək ümumtəhsil məktəblərimizdə istifadə olunan tarix proqramları və dərslikləri problem baxımından təhlil edilmişdir. Eləcə də problemin işlənmə səviyyəsi araşdırılmışdır. Problemlə bağlı qabaqcıl məktəb təcrübəsi öyrənilərək ümumiləşdirilmişdir. Monoqrafiyada tarixin tədrisində interkativ metodlardan istifadənin pedaqoji, psixoloji və və fəlsəfi əsasları təsdiq edilərək müəyyənləşdirilmişdir.

Monoqrafiyada tədqiqatın məqsədi, vəzifələri, işçi fərziyələri və müdafiəyə təqdim olunan müddəalar problemin səmərəli həllinə əsaslı kömək etmişdir.

Tədqiqatda problemin həllinə yönəldilmiş interaktiv dərslərin və dərsdənkənar tədbirlərin nümunələri verilmişdir. Əsər tədqiqatın məqsədinə, vəzifələrinə, işçi fərziyələrinə və müdafiəyə təqdim olunan nəticələrlətamamlanmışdır. Əsər pedaqoji işçilər, ali pedaqoji institutların müəllimləri və tələbələri, magistrantları, doktorant və elmi işçilər, eləcə də ilk peşə və orta ixtisas məktəblərinin tarix müəllimləri üçün nəzərdə tutulmuşdur.

Monoqrafiya tarix müəllimliyi ixtisası üzrə təhsil alan, ta-

rixin tədrisi metodikası fənni üzrə Buraxılış Attestasiya İmtahanına hazırlaşan tələbələr, magistrantlar və müəllimlərin işə qəbulu müsabiqəsinə hazırlaşan gələcək müəllimlər üçün dəyərli vəsaitdir.

Monoqrafiyanı təkmilləşdirməyə dəstək məqsədilə şərh və tövsiyələrinizi musayev_d@yahoo.com və Dayanat.Musayev@adpu.edu.az elektron poçt ünvanlarına göndərə bilərsiniz.

# I. QİYMƏTLİ TƏDQİQAT ƏSƏRİ

Pedaqoji elm olaraq - Tarixin tədrisi metodikası - tarix, pedaqogika və psixologiya kimi fundamental elmlərin kəsişməsi ilə yaranan elm sahəsidir. Məhz bu səbəbdən, digər elmlərlə müqayisədə metodika daha çox elmi biliklərin olmasını tələb edir. Azərbaycan 70 ilə yaxın müddət ərzində SSR-in tərkibində olduğu üçün, bütün elmlər kimi tarixin tədrisi metodikası sovet elmlərinin himayəsi altında inkişaf etmişdir. Lakin 1991-ci ildə Azərbaycan yenidən müstəqilliyini bərpa etdikdən sonra digər elm sahələri kimi tarixin tədrisi metodikası elmi də milli zəmin üzərində inkişaf etməyə başladı. Həm də bu inkişaf qərb təlim texnologiyalarına əsaslanaraq aparılmağa başladı. Metodika dərsdə şagirdlərin fəallaşmasını, onlara subyektiv yanaşmanı ön plana çəkərək, daha demokratik, daha humanist, daha proqressiv xarakteri ilə diqqəti cəlb edirdi. Respublikamızda bu sahədə geniş tədbirlər planı hazırlandı, yeni təlim metodlarının tədqiqi ilə bağlı elmi tədqiqatlara start verildi. Yeni, daha mütərəqqi hesab olunan fəal/interaktiv təlim metodlarına əsaslanan "Təhsil haqqında" Azərbaycan Respublikasının 2009-cu il 19 iyun tarixli Qanunu qəbul edildi. Azərbaycan Respublikasında təhsilin bütün pillələrini və səviyyələrini əhatə edən təhsil proqramları (kurikulum) həyata keçirilməsi qanunda təsbit olunmuşdur.

Dəyanət Musayevin 27 fevral 2009-cu ildə "Ümumtəhsil məktəblərində Azərbaycan tarixinin tədrisində interaktiv təlim metodlarından istifadənin imkanları" adlı pedaqogika üzrə fəlsəfə doktoru elmi adı almaq üçün müdafiə etdiyi dissertasiyası gördüyümüz kimi hələ "Təhsil haqqında" qanunun qəbul olunmasından əvvəl yazılıb, uğurla müdafiə olunmuşdur. Məhz bu səbəbdən müəllifi

fəal/interaktiv təlim metodlarının ilk tədqiqatçılarından olduğunu və bu sahənin pionerlərindən biri hesab etməyə imkan verir. Monoqrafiya D.Musayevin göstərilən dissertasiyasından əldə olunan nəticələr və aparılan son tədqiqatlarının nəticəsində aparılmış ümumiləşdirmələri öz əksini tapmışdır. Monoqrafiyada tarixin interaktiv təlim metodlarının nəzəri və praktiki məsələləri geniş araşdırılaraq, ümumiləşdirmələr aparılır. Fəal/interaktiv təlim metodlarının didaktikada işlənilməsi səviyyəsi öyrənildikdən sonra, onun fəlsəfi, pedaqoji və psixoloji əsasları müəyyənləşdirilir və problem baxımından təhlil olunur. İnteraktiv təlim metodlarının prinsipləri, mərhələləri, fənn kurikulumları, dərslikləri və mövcud məktəb təcrübəsi ümumiləşdirilmiş şəkildə təhlil olunur. Tarixin interaktiv metodlarla tədrisi sahəsində toplanmış təcrübənin geniş şəkildə öyrənilməsi və ümumiləşdirilmə aparılması baxımından da monoqrafiyanın əhəmiyyətini qeyd etmək lazımdır.

Monoqrafiyada tarixin interaktiv təlim metodları ilə həyata keçirilməsi zamanı fəal dərsin öyrədici, inkişafetdirici və tərbiyəedici imkanları geniş tədqiq olunub, ümumiləşdirilib. Tarix dərsinin fəal/interaktiv təlim metodları ilə keçirilməsinin onun səmərəliliyinin artırılmasına təsiri müqayisəli şəkildə - ənənəvi dərslərlə müqayisə olunaraq təhlil olunur. Monoqrafiyada tarix fənninin tədrisinin təlim məqsədlərinin reallaşmasında interaktivliyin rolu öyrənilərək və ümumiləşdirmələr aparılmışır.

Monoqrafiya tədqiqatın məqsədi, vəzifələri, müdafiəyə çıxarılan müddəalar və işçi fərziyyələrinə uyğun nəticələrlə tamamlanmışdır.

Monoqrafiyanın sonunda açıq dərs nümünələrinin verilməsi xüsusilə diqqəti cəlb edir və gələcək müəllimlərin, tarix müəllimliyi ixtisası üzrə təhsil alan tələbə, magistrant və dissertantlar üçün əhəmiyyətli hesab oluna bilər.

Güman edirəm ki, oxuculara təqdim olunan bu qiymətli tədqiqat əsəri tarixin tədrisi metodikası elmi ilə məşğul olan mütəxəssislərə əsaslı kömək edəcək. Son olaraq deyə bilərik ki, "Tarixin tədrisində interaktiv metodlardan istifadənin imkanları" adlı monoqrafiya tarixin tədrisi metodikası elminə tövhədir.

***Elmi redakdor***
***Mübariz Mirəziz oğlu Əmirov***
*Pedaqogika üzrə elmlər doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*"Ümumi tarix və tarixin tədrisi texnologiyası"*
*kafedrasının professoru*

## II. DİDAKTİKADA İNTERAKTİV TƏLİM METODLARININ QOYULUŞU

Təlimin fəallaşdırılması problemi alim və pedaqoqlar hələ qədim zamanlardan cəlb etməyə başlamışdır. Y.Komenski, J-J.Russo, İ.Pestalotsi, Q.Frebel, A.Disterveq, D.Dyui, K.Uşinski və b. təlim prosesində fəallaşdırılma fikrinin ilk tərəfdarları hesab edilir. Sadaladığımız alimlərdə əksini tapmış bu fikirlər antik mütəfəkkirlərin əsərlərindən qaynaqlanır. Pedaqogikanın tarixini şagirdin mövqeyinə iki müxtəlif baxış kimi dəyərləndirmək olar. Birinci fikrin tərəfdarları şagirdin passivliyini nəzərdə tutur və onu pedaqoji prosesin obyekti kimi dəyərləndirirlər. Onların hesab edirlər ki, fəallığı dərsdə müəllim göstərməlidir. İkinci fikrin tərəfdarları şagirdi təlim prosesinin bərabərhüquqlu subyekti hesab edərək, təlimdə üstünlüyü şagird fəallığına verirdi.

Qeyd etdiyimiz kimi, didaktika elmində tarix boyu təlim prosesində şagirdlərin fəallaşması aktual olaraq qalır. Mütəmmadi olaraq təlimin fəallaşdırılması gündəmə çıxır və təlimin metodikasına müəyyən dəyişiklər edilir.

Azərbaycan 70-ildən artıq bir dövr ərzində SSR-nin tərkibində olduğu üçün, digər elmlər kimi pedaqogika da sovet himayəsi altında inkişaf edirdi. Lakin, sovet pedaqogikasında nihilizm (XIX əsrin 60-cı illərində Rusiyada: zadəgan ənənə və adətlərinə, təhkimçilik ideologiyasına qarşı mənfi münasibət bəsləyən ziyalılar) yanaşma geniş yayılmışdı. Bunun konkret təzahürü kimi "burjua nəzəriyyə"lərinin mütləq tənqidi oldu. Bu isə sovet pedaqogikasının dünya pedaqogikasından təcrid olunmasına gətirib çıxardı. Bizim alimlər təcrübə və sınaqlarla özlərinə "yol açmalı oldular". Ötən yüzilliyin metodoloji tədqiqatlarını aşağıdakı kimi xarakterizə etmək olar.

30-cu illərdə metodist və alimlər arasında məktəb tarix kursu üzərində əlaqə zəif idi. Buna baxmayaraq, dərsliklər pedaqoji fikir və materialın ötürülməsinə görə dövrün metodikasının səviyyəsini əks etdirirdi. Çatışmazlıq kimi həmin kitablarda adların, faktların, xronologiyaların həddən artıq çox olmasını və tarixi sənədlərin olmamasını göstərmək olar. Dərsliklərdə sual və tapşırıqlar da yox idi. Müəllimin şərhi birinci yerdə dururdu, müstəqil işə isə az əhəmiyyət verilirdi. Şagirdə dərs prosesinin subyekti deyil, obyekti kimi baxılırdı.

50-ci illərin sonundan başlayaraq tarixi-metodoloji fikir psixoloji-pedaqoji elmlərlə əlaqələrinin möhkəmlənməsi istiqaməti üzrə inkişaf edirdi. Tarix təliminin metodologiyasına ideoloji göstərişlər verilirdi. Şagirdlərə milli qəhrəmanları təqlid etməyi, öz dövlətini digərlərindən üstün tutmağı və "şəxsiyyətə pərəsdiş" ruhunda tərbiyə ediliridi. Böyük Vətən Müharibəsindən sonra dərsliklərə müstəqil iş üçün sənədlər əlavə olunmağa başlandı. Cüzi tirajla sınaq dərs vəsaiti kimi qədim və orta əsrlər üzrə tarix dəftərləri (Tenenbaum dəftərləri) nəşr olunmağa başlandı. Lakin şagird və müəllim arasında əks əlaqə yox idi, dərsdə şagirdin nə etdiyi, tarixi necə dərk etdiyinə diqqət yetirilmirdi.

60-ci illərdən tarix təliminə baxış bir qədər dəyişdi. Yeni biliklər verən, onları möhkəmləndirən, sənəd, sxem, cədvəl, şəkil, müxtəlif arayış materialları olan yeni tarix dərslikləri yaradıldı. Paraqraf və fəsillərin sonunda, mətnin özündə, bu dövrdə didaktlar, psixoloq və metodistlər tərəfindən işlənib-hazırlanmış inkişaf etdirici təlim ideyalarının reallaşmasına yönəldilmiş sual və tapşırıqlar verilirdi.

70-80-ci illərdən təlimin məqsədi şagirdlərin fəallığını və müstəqilliyini inkişaf etdirməkdən ibarət oldu. Təlimin tərbiyəvi rolunun artırılmasına, dərs prosesinin intensivləşdirilməsinə,

dərketmə fəaliyyətinin fəallaşdırılması probleminə, bacarıqların formalaşmasına geniş rol verilir və inkişafetdirici təlim haqqında məsələ qaldırıldı. Təlim metodikasının inkişafı müəllimə yardım etmənin üsul və yollarının işlənib-hazırlanmasından və şagirdlərə bilik vermənin səmərəli yollarının tapılmasından ibarət idi.

Hazırda şagird şəxsiyyəti ön plana çəkilir. Təlimdə şagird şəxsiyyətinin formalaşdırılması, onun təlimin subyektinə çevrilməsi şagirdlərdə yaradıcı təfəkkür, idrak fəallığı, müstəqil mülahizələr irəli sürmək, informasiya bolluğunda lazımi informasiyanı seçmək və s. bacarıqları ön plana keçirdi.

Bu gün ümümtəhsil məktəblərində şagirdlərin fəallaşdırılması məsələsi yenidən gündəmə çıxmaqla problemli-axtarış, tədqiqatçı, evristik metodlar üzrə aparılan fundamental tədqiqatlar interaktiv metodların öyrənilməsində bir baza rolu oynayır. Bu metodlar şagirdlər qarşısında ardıcıl və məqsədyönlü idrak məsələlərin qoyulmasını zəruri edir, bu isə müəllimin "nəzarəti, rəhbərliyi" altında şagirdlərin müstəqil bilik əldə etməsi deməkdir.

Hazırki dövrdə ümumtəhsil məktəblərində islahatların reallaşdırılması şəraitində şagirdlərin təfəkkürünün və şəxsiyyətinin inkişafına böyük diqqət yetirilir. Bu tələblərin reallaşdırılması Azərbaycan tarixinin interaktiv metodlarla tədrisi zamanı çox faydalı ola bilər. Şagirdlərin tədqiqatçılıq bacarıqları xüsusi olaraq problemli-axtarış metodlarından istifadə zamanı inkişaf etdirilirdi. Müəllimin "rəhbərliyi" ilə məsələləri həll etdikcə şagirdlər yeni bilikləri fəal şəkildə mənimsəyirlər. Əksər hallarda idraki problemlər düşündürücü, istiqamətverici sualın qoyulması ilə irəli sürülür.

Təlimdə problem situasiyadan istifadə təlim zamanı məsələlər ilk növbədə şagirdləri yeni mövzuya yaxınlaşdırmaq, mənimsəmə prosesini aktivləşdirmək üçün istifadə olunur.

Problemli yanaşma zamanı bu məsələlər nəzəri mövqeyi bildirmədən qabaq olur. Beləliklə, bu məsələlər idraki xarakter daşıyır (63, s.11).

Tarix dərslərində nəzəri və təcrübi materialların mövcudluğu öz-özlüyündə təlimi problemli etmir. Mövzunun problemli olması müəllimin bu məsələlərə hansı səviyyədə problemli xarakter verməsindən asılıdır. Məsələ aşağıdakı tələblərə cavab verdikdə idraki problem ola bilər:

1. öyrənilən problem üzərində düşünməyə vadar edir və şagirdlər üçün idraki çətinlik təşkil edir;
2. şagirdlərdə idraki maraq oyadır;
3. şagirdlərdə appersepsiya (ilkin təsəvvürlərə və ya təcrübəyə əsaslanan qavrayış) prinsipinə əsaslanır.

Birinci tələb digərləri ilə müqayisədə əsas, mərkəzi yer tutur. Yəni müəllim dərsdə bilərəkdən çətin dərketmə vəziyyəti yaradır və beləliklə, şagirdləri yeni biliklərin əldə olunması üçün müstəqil olaraq bir neçə idraki əməliyyatlardan: analiz, sintez, müqayisə, analogiya, ümumiləşdirmə və s. istifadə etməklə təlimdə müstəqil mənimsəməni yüksəldir.

Problemli vəziyyətlər mövcud çətinliklərə baxmayaraq, şagirdlərin qeyri-iradəli diqqətinə əsaslanaraq onlarda sərbəst (ixtiyari) diqqətin təkmilləşdirilməsinə imkan verir.

Bu proses problemli təlim sistemində hələ başlanğıc məqamını təşkil edir. Daha sonra müəllimin istiqamətləndirici təsiri ilə şagirdlər aşağıdakı mərhələlərdən keçməlidir:

1. idraki proseslərin – fərziyyələrin, həlli üçün mümkün variantlar irəli sürməlidir;
2. nəzəri və praktiki cəhətdən fərziyyələri yoxlamalıdır;
3. daha real fərziyyəni seçməlidir;
4. idraki nəticəni (qənaəti) qısa və dürüst xülasə etməlidir.

1. İdrak məsələləri şagirdlərdə maraq oyatmalıdır. Bu ona verilən əsas tələblərdəndir. Bu əsasən zəif oxuyanların təlim prosesinə cəlb edilməsi üçün çox aktualdır. Dərsə marağın olması şəxsiyyətin psixoloji fəaliyyətinə müsbət təsir göstərir, onu daha yüksək, yeni pilləyə çatdırır. Təfəkkür prosesləri - yaddaş, diqqət, təxəyyül aktivləşən zaman bilik və bacarıqların əldə olunması üçün geniş imkanlar açılır (68, s.44).

Məlumdur ki, bir neçə idraki əməliyyatlar mövcuddur, bu - analiz, sintez, müqayisə, analogiya, ümumiləşdirmə, sistemləşdirmə, təsnifat və s. Buna görə də müəllim problemli vəziyyəti yaradaraq, şagirdləri onun həllinə yönəldir, onları mexaniki yadda saxlamaq deyil, müqayisə etmək, ümumiləşdirmə aparmaq, faktları analiz etmək üçün məsələlərini onların qarşısına qoyur. Bu zaman yaranan problemli situasiyaların xarakterik xüsusiyyətləri olur. Bunlardan bəziləri öz həlli üçün ilk növbədə hadisələrin və faktların analizini, sintezini və əsasən hadisələrin müqayisəsinə istinad edəcək, digər faktların bilməsini tələb edir.

2. Problem irəli sürərkən müəllim onun həlli üçün şagirdləri təfəkkür əməliyyatlarından istifadə etməyə sövq edir. Ümumilikdə dərs prosesində yeni biliklərin mənimsənilməsinin ziddiyətli və fasiləsiz aktiv, problemli qavraması həyata keçirilir (73, s.58).

Axtarış metodları tədris prosesində müvəffəqiyyəti təmin etmək üçün o qədər də səmərəli deyil, o yalnız digər interaktiv metodlarla ahəngdə yüksək nəticələr əldə etməyə imkan verir. Buna görə də, təlimdə problem situasiya metodlarından istifadə dedikdə, problemli və evristik müsahibələr, problemli-axtarış və ya tədqiqatçılıq üzrə işlərin keçirilməsi nəzərdə tutulur. Bunların hər birinə aydınlıq gətirək.

3. Evristik müsahibə və problemli-axtarış üsulları problemli təlim metodlarındandır. Evristik yanaşma zamanı şagirdlər öz

mülahizələri, araşdırmaları nəticəsində bilik əldə edirlər. Evristik metodlar şagirdlərin düşüncəsini müstəqilliyə və qeyri-iradiliyə sövq edir. Evristik yanaşma zamanı müəllim şagirdlər qarşısında bir neçə ardıcıl və biri biri ilə əlaqəli olan suallar qoyur, onları cavablandırarkən şagirdlər müstəqil fikir yürüdür, müəyyən müqayisələr edir, nəticələr çıxarır və beləliklə yeni biliklər əldə edirlər. Əgər evristik müsahibə yeni mövzunun bir elementinə toxunulursa, problemli-axtarış metodları zamanı şagirdlər bir sıra problemli vəziyyəti həll edir (78, s.16).

Təlimdə müstəqilliyin rolu haqqında tanınmış pedaqoq K.D. Uşinski yazırdı: "Şagird, biliklərin qazanılmasında təşəbbüskarlıq göstərdiyi zaman, biliklərə sahib ola bilər".

4. Əksər hallarda problemil-axtarış metodları təlimin yaradıcı idrak (dərk etmə) fəaliyyəti kimi istifadə olunur və daha düşüncəli, müstəqil biliyin əldə olunmasına kömək edir. Bu metodlar əsasən anlayışların, nəzəriyyələrin formalaşmasına yönəldiyi zaman daha səmərəli istifadə olunur; dərs materalının məzmunu yeni deyil, yalnız əvvəl öyrənilənlərin məntiqi davamıdır və bunun əsasında şagirdlər yeni biliyin əldə olunması üçün müstəqil addımlar ata bilər; məzmun şagirdlərin müstəqil axtarışları üçün anlaşıqlı olduqda, yəni problemli vəziyyətlər şagirdlərin qavrama imkanları daxilində olduqda. Axtarış metodlarının didaktik imkanları ondan ibarətdir ki, problemli təlim zamanı mənimsəmə prosesi yalnız intellektual proses deyil, həm də xüsusi bir proses olur. Məhz buna görə o, təlim və tərbiyə prosesini, bilkilərin əldə olunması və şagirdlərin dünya görüşlərinin formalaşması proseslərini bir yerə cəmləyir (65, s.14-17).

Qeyd etmək lazımdır ki, təlimdə problem siyuasiyadan istifadə yalnız yaxşı oxuyanlar üçün deyil, məhz bütün sinif üçün nəzərdə tutulub, bu isə interaktiv təlimin əsas xüsusiyyətlərin-

dən biridir. Məsələ burasındadır ki, problemli yanaşma qarşıda duran problemlə əlaqədar bütün şagirdləri maraqlandırmalıdır, qeyri-iradi olaraq buna təəcüblənməli, onun haqqında fikirləşməli, müqayisə edib, mühakimə yürütməli, ən real fərziyyəni seçməli və s. Problemli təlim şagirdlərin düşüncələri ilə idarə etməyə imkan verir, onlardan operativ məlumatı alıb, ona reaksiya verməyə imkan verir.

Qeyd etmək lazımdır ki, problemli təlimin bir sıra zəif tərəfləri də mövcuddur. Bu yeni materialın öyrənilməsinin çox vaxt aparması; təcrübi bacarıq və vərdişlərin formalaşdırılması; yeni materialın mənimsənilməsində izah lazım olduqda, bir çox şagirdlər üçün müstəqil axtarışını zəruri və səmərəsiz olmasıdır.

Beləliklə, görürük ki, təlimdə tədqiqat metodları problemi qədim tarixə malikdir. Axtarış xarakterli metodların müxtəlif xarakteristikalarını və didaktik imkanlarını nəzərdən keçirərkən, axtarış, şifahi, əyani və təcrübi metodlarının əlaqələri müəyyən olunur. Bunun nəticəsində belə qənaətə gəlmək olar ki, interaktiv təlim zamanı axtarış metodlarından geniş istifadə olunur. Belə ki, interaktiv təlim metodları bir çox metodlara xas olan passivliyə və müəyyən dərəcədə intellektualizmə (əqli, idrakı, təfəkkürü ilk plana çəkən və idrakda praktik fəaliyyətin və həyati maraqların rolunu inkar edən idealist nəzəriyyələrin ümimi adı) üstün gəlməyə imkan verir. İnteraktiv təlim metodları – təhsil alanın şəxsiyyətini problemli vəziyyətin əsası kimi nəzərdə tutur.

Müasir məktəbdə şagird daha çox müstəqil olur, onun şəxsi bacarıqları, imkanları, tələbləri və maraqları nəzərə alınır. Tədricən təlim formaları, dərslik və dərs vəsaitləri, tarixin məzmununu və ardıcıllığının seçimini ön plana çəkir. Tarix təlimində fənnin dərk edilməsi üçün daha çox pedaqoji və tarixi psixologiyadan istifadə olunur.

XXI əsr ümumtəhsil məktəblərində təlimin fəallaşdırılmasını, interaktiv metodlarla tədrisin qaydalarının işlənib hazırlanmasını tələb edir. Qeyd etmək lazımdır ki, interaktiv metodların Azərbaycanda öyrənilməsinin tarixi bir qədər yeni olduğundan bu problem pedaqoq və psixoloqlarımız tərəfindən az tədqiq olunmuşdur. Problemlə bağlı R.Xəlilov, M.Əmirov, İ.Cəbrayılov, A.Abbasov, F.Rüstəmov, Ə.Paşayev, D.Musayev, R.Məlikov, Z.Veysova, L.Bayramova, X.Qədimova, S.Vəliyev, R.Hüseynov, F.Bünyatova, B.Abdulla, H.Əmircanova, H.Cəfərov, R.Qarayeva, A.Cəlilov, L.Mirzoyeva, E.Cəfərova və b. tədqiqatlar aparmış, fikir və mülahizələrini bildirmişlər.

Tədqiqat prosesində interaktiv metodla bağlı xarici (əcnəbi) alimlərin təcrübəsindən geniş istifadə olunmuşdur. Şagirdlərin idrak fəallığına həsr olunmuş L.Zaqrekov və V.Nikolinin; təcrübədə yoxlanılmış, əqli bacarıqların fəallaşdırılmasından bəhs edən psixoloqlar A.Breqdon və D.Qeydemonun; ənənəvi və müasir dərs formaları M.Kovınevanın; təlimin aktiv metodların tədbiqi təcrübəsi S.Muxin və A.Solovyovun; təhsil kompetensiları ilə bağlı A.Xutorskoy, İ.Zimnayanın; aktiv sosial-psixoloji təlimin elmi-metodik əsasları A.Bıkovun; əməkdaşlıqda təlim E.Polatın, R.Xon, N.Xromova, V.Kukuşkina, R.Verbeder, K.Verbederin və b. tədqiqatlari xüsusi əhəmiyyətli olmuşdur.

C.Conson, R.Conson və E.Conson-Xolubekin monoqrafiyası təlimdə əməkdaşlıq (Cooperative learning) metodundan istifadə edənlər üçün faydalı metodik vəsaitdir. Vəsaitdə müxtəlif fənlər üzrə dərs proqramında nəzərdə tutlmuş konkret dərs nümunələri verilir. Müəlliflər qeyd edir ki, interaktiv metodlarla keçirilən dərsin düzgün qoyuluşu zamanı müasir təlimin bir çox məqsədlərinə nail olmaq olar. Metodik vəsait sözü gedən texnologiyalardan istifadə edərək dərsin təşkilində istifadə olunacaq təcrübi tövsiy-

yələrlə müşaiyyət olunur. Sözsüz ki, bu təcrübə dərslərində interaktiv təlim metodlarından istifadə edən müəllimlər üçün böyük əhəmiyyət kəsb edəcək.

5. Müəlliflər qeyd edir ki, interaktiv təlim zamanı dərs prosesi elə təşkil olunmalıdır ki, dərk etmə prosesinə bütün şagirdlər cəlb olunsun. Onlar gördükləri və fikirləşdikləri haqqında refleksiya (öz təəssüratını təhliletmə, düşünüş) etmək imkanı əldə etsin. Dərk etmə və yeni materialın mənimsənilməsi prosesində şagirdlərin əməkdaşlıq fəaliyyəti nəticəsində hərə individual tövhəsini verir: xeyirxahliq və himayəçiliklə müşaiyyət olunan bilik, fikir mübadiləsi həyata keçir, bu isə dərketmə fəaliyyətini inkişaf etdirməyə kömək edir (52, s.125).

N.Soosar və N.Zamkovanın "Tənqidi təfəkkürün inkişafı üçün oxu və yazı" (Reading and Writing for Critical Thinking - RWCT) beynəlxalq layihə çərçivəsində işləyib-hazırladıqları monoqrafiyada müxtəlif təlim metodları təklif edirlər. Bu layihənin əsas məqsədi şagirdlərin intellektual bacarıqlarını, analitik təfəkkürünü inkişaf etdirən, onlarda öz təhsilinə görə məsuliyyət formalaşdıran, yoldaşları ilə əməkdaşlığa öyrədən və öz işində yeni metodlardan istifadə edən müəllimlərin hazırlanması idi (83, s.29).

Respublikamızda interaktiv təlim metodlarının imkanları ilə bağlı xeyli işlər görülmüşdür. Ayrı-ayrı tədqiqatçılar müxtəlif fənlərin tədrisi baxımından interaktiv təlim metodlarının imkan və yollarını öyrənib, araşdırrıb, ümumiləşdirmələr aparmışlar. Belə tədqiqatçılardan Mübariz Əmirovun adını xüsusi qeyd etmək lazımdır. Müəllif "Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası" adlı dərs vəsaitində qeyd edir ki, müasir dərsdə şagirdlər bilikləri aktiv tədqiqatı nəticəsində əldə edir və bunun nəticəsində onların bilikləri daha uzun müddət yadda qalır, dərsin səmərəliliyi artır. Müəllif təlim məqsədlərinin əsasən üç istiqamət-

də həyata keçirildiyini deyir və onları aşağıdakı kimi verir:

1. müəllimləri fəaliyyətinin xarakterinə görə: öyrədici, inkişafetdirici və tərbiyəedici;

2. Blumun idrak səviyyəsinin taksonomiyasına görə: bilik, anlama, tətbiq, analiz, sintez, qiymətləndirmə;

3. idark proseslərinin səviyyəsinə görə: məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişaf etdirilməsinə görə.

M.Əmirov qeyd edir ki, bu gün məktəb təcrübəsində daha çox birinci istiqamət üzrə təlim məqsədləri həyata keçirilir, lakin burada da əksər hallarda öyrədici funksiya uğurla həyata keçirilsə də, digər iki - inkişafetdirici və tərbiyəedici funksiyalar ikinci planda qalır.

Müəllif tarixin interaktiv təlim metodlarının çox zəngin üsullardan ibarət olmasının həm müsbət, həm də mənfi tərəflərini qeyd edir. Belə ki, müsbət olaraq interaktiv təlim metodları tarix dərsin mövzusundan asılı olaraq müəllimə dərsin məqsədlərini reallaşdırmaq üçün geniş imkanlar açır, digər tərəfdən isə üsulların zəngin olması bəzi müəllimlərə seçim etmək məsələsini çətinləşdirdiyini qeyd edir. Ümumi olaraq müəllif interaktiv təlim metodlarının səmərəliliyini məzmuna uyğun düzgün seçilmiş üsual və texnikadan, motivasiyanın düzgün təşkil olunmasından asılı olduğunu qeyd edir (17, s.168).

İnteraktiv təlim metodlarının tədqiqi ilə bağlı Zülfiyyə Veysovanın "Faəl/interaktiv təlim" adlı metodik vəsaitini qeyd etmək olar. Müəllif haqlı olaraq qeyd edir ki, reproduktiv xarakter daşıyan ənənəvi təlim müasir tələblərə cavab vermir. Bu gün cəmiyyət məktəb qarşısında yeni tələblər qoyur, şagirdlərə subyektiv yanaşmanı tələb edir. Müasir təlim şəxsiyyətyönümlüdür, inkişafetiricidir, qabaqlayıcı xarakterə malikdir və əməkdalığa əsaslanır. İnteraktiv təlim zamanı müəllim bilik ötürən deyil, şa-

girdlərin müstəqil bilikləri əldə etməsində bələdçi, yardımçı, fasilator kimi çıxış edir.

Müəllif qeyd edir ki, fəal/interaktiv təlim zamanı şagirdlər bütün bilik, bacarıq və vərdişlərini, təfəkkürün müxtəlif formalarını (məntiqi, tənqidi, yaradıcı) səfərbər etməklə tədqiqat aparır, müstəqil nəticələr çıxarır, ümumiləşdirmələr aparırlar. Z.Veysova qeyd edir ki, bu gün informasiya mühitində yaşadığımız dövrdə əsas məsələ şagirdləri çoxsaylı informasiya mənbələrindən əldə etdikləri məlumatları seçməyi, dəyərləndirməyi, tənqidi və məntiqi münasibət bildirməyi öyrətməkdən ibarətdir (38, s.46).

"Tarixin interaktiv təlimi" adlı metodik vəsaitində Rauf Məlikov və Tofiq Nəcəfli müasir tarix dərslərində şagirdlərin müxtəlif bilik mənbələri ilə işinin yeni formatını təqdim edirlər. Müəlliflər göstərir ki, tarix dərslərində şagirdlərin əldə etdikləri biliklərini mütəmmadi olaraq yoxlayıb, refleksiya və ümumiləşdirmə aparmaqla tarix müəllimləri onların maraq və istəklərini nəzərə alaraq gələcək dərslərini uğurla planlaşdıra bilərlər. Metodik vəsaitdə interaktiv üsullarla şagirdlərin dərslikdəki xəritələr, illustrasiyalar, dərslik mətnləri, müxtəlif mənbələr və s. iş formaları, o cümlədən interaktiv təlim metodları ilə dərslərin keçirilməsi üçün nümunələr verilir (30, s.27).

Fərqanə Əliyeva və Ümhani Məmmədovanın "Müasir təlim texnologiyaları" adlı dərs vəasitində müəlliflər qeyd edirlər ki, pedaqoji texnologiyalar təlim, tərbiyə, inkifetdirici və diaqnostika texnologiyalarının cəmidir. Müəlliflər hər dərs üçün fərdi fəal təlim metod və texnikalarının seçilməsini və məhz düzgün seçilmiş yanaşmadan dərsin səmərəliliyinin asılı olduğunu vurğulayır. Müəlliflər qeyd edir ki, dərsin səmərəli keçirilməsi onun mərhələlərinin, üsul və formalarının düzgün seçilib təşkil olunmasından asılıdır. Müasir dərs hər bir şagirdin dərsdə iştirakını

təmin etməli, onların yaradıcılıq bacarıqlarını nəzərə almalı və şəxsiyyətyönümlü olmalıdır. Fəal dərsdə təlim və tərbiyənin vəhdəti müasir dərsin əsas şərti olduğu vurğulanır (12, s. 119).

Fəal təlim metodlarla tədrisin səmərəliliyi ilə bağlı tədqiqatların sırasında xüsusilə Z.Veysova, L.Bayramova, K.Quliyeva, A. Cəlilovun, A.Nəzərovun, A.Paşayevin, Cəfərova E.  və b. adlarını da qeyd etmək lazımdır.

## III. İNTERAKTİV TƏLİMİN MAHİYYƏTİ

Ümumi şəkildə desək tarix təliminin məqsədini şagirdlərdə problemi müstəqil şəkildə həll etmə bacarığı kimi dəyərləndirmək olar. Son illər məktəbdə tarix tədrisinin effektlivliyinin əhəmiyyətli dərəcədə artmasına imkan yaradan üsulların axtarışı və geniş sürətdə istifadəsi diqqəti cəlb edir.

Bu gün tədrisin məqsədi yalnız bilik, bacarıq və vərdişlərə yiyələnməkdən deyil, həm də şagirdi tədris prosesinin subyekti kimi hazırlamaqdan ibarətdir. Lakin, bəzi məsələlər illərlə dəyişilməz qalır, bu, idrak fəaliyyəti nəticəsində şəxsiyyətin tərbiyə olunmasının və inkişafının göstəricisidir. Şagirdlərin dərk etmə fəallığının formalaşdırılmasında yeni dərs formalarının xüsusi rolu vardır. Müasir təhsilin inkişaf prosesi fəal inkişafetdirici təlimin müxtəlif dərs model və metodlarından istifadəni tələb edir. Müasir dərs formaları tarix kursunun baza anlayışının formalaşmasına, əldə olunmuş biliklərdən həyatda faydalanmağa kömək edir, şagirdlərin zehni inkişafını, erudisiyasını və dünya görüşünü inkişaf etdirir. Müasir məktəb yeni düşüncə tərzi, təşəbbüskar, yaradıcı, qərar qəbulunda cəsarətli, səriştəli insanlar formalaşdırmalıdır. Buna görə məktəbdə tarixin tədrisi metodikasında dəyişikliklər edilməsinə ehtiyac duyulur. Hər bir müəllim öz təcrübəsində qeyri-ənənəvi metodlardan istifadə etmişdir. Bu ya dərsin hər hansı bir fraqmenti kimi, istərsə də bütövlükdə metodlardan birinin həyata keçirilməsi kimi ola bilər. Şagirdlərin müstəqil yaradıcı-axtarış fəalliyətlərinin yüksəlməsi və eyni zamanda fənn saatlarının miqdarı hesabına təhsil-tərbiyə məsələsinin effektiv şəkildə həll etməyə yönəlmiş müəllimlərin pedaqoji təfəkkürünün yeni üslubunun təşəkkül tapması ilə əlaqədardır.

Müşahidələr göstərir ki, hər hansı bir tarix müəllimi öz fəaliyyətində ən azı ara sıra ənənəvi olmayan tədris formalarından istifadə edir. Bunlar həm dərsin quruluşunda olan fraqmentlər kimi, həm də metodlardan birinin tətbiqinə tamamilə həsr olunmuş bir dərs kimi təqdim olunur. Bu, müəllimin təhsil və tərbiyə tapşırıqlarının effektiv həllinə, məktəblilərin davamlı yaradıcılıq axtarış fəaliyyətinin gücləndirilməsinə yönəlmiş yeni bir pedaqoji düşüncə tərzinin ortaya çıxması ilə əlaqədardır.

Müasir tarix müəlliminin dərs formalarının arsenalı, şagird şəxsiyyətinin tədrisdə artan rolunun təsiri altında sadəcə yenilənmir, eyni zamanda materialın yeni təqdimat formalarına çevrilir. Müasir tarix müəllimi mövzunun məzmununa yenidən baxılmasından ilhamlanan vəzifələrlə üzləşir: keçmişin problemlərinin qiymətləndirilməsinə alternativ yanaşmalar, hadisələrin proqnozlaşdırılması, tarixi şəxsiyətlərin və hadisələrin gedişinin birmənalı olmayan etik qiymətləndirmələri və s. Bu məsələlərin müzakirəsi şagirdlərin yaradıcı fəaliyyətə cəlb olunmadan, onlar dialoq və müzakirə təcrübəsi qazanmadan mümkün deyildir. Ünsiyyət bacarıqları, bir vəziyyəti simulyasiya etmək bacarığı həyatımızda getdikcə daha vacib hala gəlir.

Aydındır ki, hər bir fərd digər insanlarla qarşılıqlı əlaqə və qarşılıqlı təsir prosesində şəxsiyyətə çevrilir. Biz hər hansı bir şəxsin yaxşı və ya pis, uzaqgörən və ya səhlənkar bir insan olduğunu ətrafındakı şəxslərlə qarşılıqlı münasibətinə qarşılıqlı əlaqədə görənə qədər söyləyə bilmərik. Yalnız ünsiyyət prosesi, qarşılıqlı hərəkətlər bir insanın uğurlu sosiallaşmasının bir göstəricisinə çevrilə bilər.

Hazırkı mərhələdə təhsilin modernləşdirilməsi kontekstində şagirdlərdə əsas kompetensiyaların formalaşdırılması vəzifəsi müasir məktəb üçün aparıcı vəzifələrdən biridir. Onların arasında ən əhəmiyyətlisi bunlardır:

- qərar qəbul edərkən məsuliyyət daşımaq bacarığı;
- tolerantlıq - başqa millətlərin mədəniyyətlərinə, dinlərinə, dillərinə hörmət və onlarla birgə yaşayış qaydalarına əməl etmək bacarığı;
- müxtəlif növ informasiyalarla işləmək bacarığı;
- təhsillərini daim inkişaf etdirmək bacarığı və s.

Beləliklə, şagirdlərin ümumi mədəniyyətini inkişaf etdirmək ehtiyacını həyatın özü, xüsusən də müasir cəmiyyətin uşaqların ümumi təhsil hazırlığına verdiyi sosial sifariş tələb edir. Bu sifariş hər bir şagirdin təbii mataqlarını, meyllərini və fərdiliyini inkişaf etdirərək sosial cəhətdən fəal, təşəbbüskar yaradıcı şəxsiyyət formalaşdırmaqdır. Buna görə də şagirdlərə fərdi və individual yanaşma əsasında məktəblilərin üfüqlərini və onların ümumi mədəniyyətini genişləndirmək üçün tarix dərslərində istifadə olunan ən optimal tədris formalarını, metod və üsullarını müəyyənləşdirmək zərurəti yaranır.

Təlimi necə qurmaq lazımdır ki, mənimsəmə prosesi həm pedaqoq həm də şagirdlər üçün maraqlı və faydalı olsun? Əksər pedaqoq və metodistlər hesab edir ki, bu vəziyyətdən çıxış yolu – fəal/interaktiv təlimdir. Fəal/interaktiv təlim - idrak fəaliyyətinin təşkilinin xüsusi formasıdır. Fəal/interaktiv təlim – dərsin məqsədini və fənnin əsas məzmununu qoruyaraq, dəyişmədən saxlayaraq, dərsin aparılma formasını, üsul və metodunu dəyişən təlimdir. Fəal təlim zamanı şagirdlər əməkdaşlıq edir, onlar öz sərbəstliyini hiss edərək, həm inkişaf edir, həm də şagirdlərin şəxsiyyəti formalaşır. Pedaqoq və psixoloqların müşahidələrinə görə, ənənəvi metodlardan fərqli olaraq interaktiv təlim passivliyi aradan qaldırır, şagirdin öz yaradıcı fəaliyyətinin subyekti kimi çıxış etməsini təmin edir. Müasir təlim-tərbiyə prosesinin inkişafı müxtəlif dərs üsullarının və inkişafetdirici təlimin fəal metodlarının tətbiqini tələb edir.

Cəmiyyətin sosial sifarışı, onun tələbatı yeni suallar doğurdu. Cəmiyyət dəyişir, öyrənilən mövzulara münasibət dəyişir. Bu baxımdan tarix ən çox dəyişikliyə məruz qalır. Mövzu-informasiya mühiti ölçüyəgəlməz dərəcədə dəyişir, genişlənir. Dərsliklərin məzmunu dərsliklərin əhatəsindən kənara çıxır: televiziya, radio, kompüter, İNTERNET şəbəkələri son vaxtlar məlumat axınını və çeşidi xeyli artırmışdır. Lakin bütün bu mənbələr məlumatın passiv qavrayışını, mənimsəməsini təmin edir. Cəmiyyətdə, mətbuatda, televiziyada, dərsliklərdə eyni hadisələrə fərqli baxışlar ortaya çıxır. Bu baxımdan sual yaranır: uşaq bu qədər məlumatı xatırlaya və mənimsəyə bilirmi? Bu gün çoxları təlimin effektivliyini artıracaq yollar axtarır.

Hər zaman müəllim bütün şagirdlərin dərsə maraq göstərməsini, hamının tədris prosesinə cəlb olmasını, heç kimin təlim-tərbiyəyə laqeyd qalmamasını necə təmin etmək problemindən narahatdır.

Tarix fənninin köməyi ilə şagirdin şəxsiyyətini, onun yaradıcı düşüncəsini, keçmişini, bu gününü təhlil etmək, öz nəticələrini çıxarmaq və öz baxış bucağını necə inkişaf etdirmək məsələsi hər zaman diqqət mərkəzində olmuşdur.

Müasir cəmiyyət məktəbin qarşısına aşağıdakıları bacarıqlara yiyələnən məzunların hazırlaması vəzifəsini qoyur:

1. dəyişən həyat şəraitində yerini tapmaq, müstəqil olaraq lazımi bilikləri əldə etmək, ortaya çıxan müxtəlif problemləri həll etmək üçün təcrübədə tətbiq etmək, ömrü boyu öz yerlərini tapa bilmək;

2. müstəqil olaraq tənqidi düşünmək, ortaya çıxan problemləri görmək və müasir texnologiyalardan istifadə edərək onların rasional həlli yollarını axtarmaq; əldə etdikləri biliklərin harada və necə tətbiq oluna biləcəyini aydın şəkildə bilmək, yeni fikirlər yarada bilmək, yaradıcı düşünmək;

3. məlumatla səriştəli işləmək (müəyyən bir problemi həll etmək üçün lazımi faktları toplamaq, onları təhlil etmək, zəruri ümumiləşdirmələr aparmaq, oxşar və ya alternativ həllərlə müqayisə etmək, əsaslandırılmış nəticələr çıxarmaq, yeni problemləri müəyyənləşdirmək və həll etmək üçün qazandığınız təcrübəni tətbiq etmək);

4. ünsiyyətcil olmaq, müxtəlif sosial qruplarla təmasda olmaq, müxtəlif sahələrdə, fərqli vəziyyətlərdə birlikdə işləyə bilmək, hər hansı bir münaqişə vəziyyətinin qarşısını almaq və ya məharətlə vəziyyətdən çıxmaq;

5. öz əxlaqının, zəkasının, mədəni səviyyəsinin inkişafı üzərində müstəqil işləmək.

Təhsildə ənənəvi yanaşma ilə bu tələblərə cavab verən bir insanı yetişdirmək çox çətindir.

Bütün bu tapşırıqlar müəllimin interaktiv tədris metodları və üsullarından istifadə etdiyi zaman şagirdlərin aktiv fəaliyyəti şəraitində həyata keçirilə bilər.

Öyrənmə prosesinin həm müəllim, həm də şagirdlər üçün maraqlı və mənalı olması üçün təlim prosesini necə qurmaq lazımdır? Bir çox insanlar bunun interaktiv təlim ilə mümkün olduğunu düşünür. İnteraktiv təlim - fəaliyyətin xüsusi təşkili formadır. İnteraktiv təlim ünsiyyətə qərq olmuş təlimdir, o mövzunun əsas məzmununu və son hədəfini saxlayır, ancaq dərsin tədrisinin forma və metodlarını dəyişdirir. O çox konkret və proqnozlaşdırılan hədəfləri nəzərdə tutur. Bu hədəflərdən biri, şagirdin öz müvəffəqiyyətini, intellektual dəyərini hiss etdiyi rahat bir mənimsəmə mühiti yaratmaqdan ibarətdir ki, bu da prosesin özünü daha məhsuldar edir. Bir sözlə interaktiv təlim qarşılıqlı əlaqəni özündə ehtiva edir.

Pedaqogikada tədris metodlarının çoxsaylı təsnifləri mövcuddur. Ənənəvi olaraq üç metod fərqlənir:

1) Passiv: müəllim tərəfindən ötürülən materialı mənimsəyən şagirdlərin təlim prosesinin "obyekti" rolunu oynayır. Bu metodun əsas metodları mühazirə, oxu, sorğu-sualdır (şəkil 1).




*Şəkil 1. Passiv metod*

2) Aktiv: şagirdlərin öyrənmə "subyekti" olduğu, yaradıcı tapşırıqları yerinə yetirdiyi, müəllimlə dialoqa girdiyi. Əsas metodlar yaradıcı tapşırıqlar, şagirdin müəllimə və müəllimin şagirdə olan suallardır (şəkil 2).




*Şəkil 2. Aktiv metod*

3) «interaktiv» sözü «inter» və «act» sözlərindən götürülmüşdür, burada «inter» qarşılıqlıdır, «act» hərəkət etməkdir. "İnteraktivlik" qarşılıqlı əlaqə və ya dialoq rejimində olma bacarığıdır. Nəticə etibarilə, interaktiv öyrənmə, ilk növbədə, interaktiv təlimdir. Dialoq ənənəvi tədris metodları ilə də mümkündür, ancaq yalnız «müəllim - şagird» və ya «müəllim - şagirdlər qrupu (auditoriya)» xətti ilə. İnteraktiv tədrisdə də dialoq «şagird - şagird» (cütlükdə iş), «şagird - şagird qrupu» (qrup şəklində iş), «şagird - auditoriya» və ya «şagird qrupu - tamaşaçı» («şagird - şagird») xətti üzərində qurulur (qruplarda işin təqdimatı), "şagird - kompüter" və s. (69, s.257-258) (şəkil 3).




*Şəkil 3. İnteraktiv metod*

İnteraktiv təlimin texnologiyası və konsepsiyası qarşılıqlı təsir fenomeninə əsaslanır (İngilis dilindən interaction - qarşılıqlı təsir, bir-birinə təsir deməkdir). Öyrənmə prosesində bütün subyektlərin qarşılıqlı əlaqəsi və şəxsiyyətlərarası idrak ünsiyyəti həyata keçir (96, s. 66).

Bu metodlar ən çox şəxsiyyətyönümlü yanaşma ilə uyğundur, çünki birgə təhsil (kollektiv, birgə öyrənmə) əhatə edir və

həm şagird, həm də müəllim təhsil prosesinin subyektləridir. Müəllim çox vaxt yalnız təlim prosesinin təşkilatçısı, qrup lideri, vasitəçi və şagird təşəbbüsü üçün şərait yaradıcısı kimi çıxış edir.

Bundan əlavə, interaktiv təlim şagirdlərin öz təcrübələri və yoldaşlarının təcrübəsi ilə birbaşa qarşılıqlı əlaqəsinə əsaslanır, çünki interaktiv təlimin əksəriyyəti yalnız təhsil məktəbi deyil, şagirdin öz təcrübəsinə istinad edir. Bu cür təcrübə əsasında yeni bilik, bacarıq formalaşır.

Koqnitiv fəaliyyət idrak prosesinə intellektual və emosional reaksiya, şagirdin öyrənmək istəyi, fərdi və ümumi tapşırıqları yerinə yetirmək, müəllimin və digər şagirdlərin fəaliyyətinə maraq deməkdir.

Koqnitiv müstəqillik adətən müstəqil düşünmək istəyi və qabiliyyəti, yeni bir vəziyyətdə vəziyyətdən çıxmaq bacarığı, problemin həllinə öz yanaşma tərzinizi tapmaq, əldə edilmiş təhsil məlumatlarını deyil, həm də əldə etmə yollarını başa düşməkdir.

Yarımfəsili yekunlaşdırarkən belə nəticəyə gəlirik ki, interaktiv təlimin mahiyyətini onun aşağıda sadalanan üstünlüklərə malik olduğunu göstərir:

1. interaktiv təlim təfəkkürün inkişafını motivləşdirir;

2. dialoji təlim şagirdlərin fəallığını təmin edir, təlimə marağı artırır;

3. interaktiv təlim demokratik tədris üslubunu təmin edir;

4. Tədrisin forma və metodlarının çevikliyinə və müxtəlif bilik mənbələrindən istifadəyə şərait yaradır;

5. interaktiv təlim şagirdlərin fəallığına şərait yaratmaqla, bilikləri müstəqil əldə edib mənimsəmələrinə motiv yaradır;

6. bu təlim metodu təhsilalanların emosional-şəxsi keyfiyyətlərindən, fəal istifadə edilməsinə münbit şərait yaradır;

7. interaktiv təlimin xüsusiyyəti təhsilalanlarda öz qabiliyyətini reallaşdırmaqda, əldə etdiklərini reallaşdırmaqda, əldə etdikləri bilik və bacarıqları yaradıcılıqla tətbiq etməkdə onlara yardımçı olur.

## IV. TARİXİN İNTERAKTİV TƏDRİSİ TEXNOLOGİYASI

İnteraktiv təlimdə təhsil prosesi elə bir şəkildə təşkil olunur ki, demək olar ki, bütün şagirdlər təlim prosesinə cəlb olunurlar. Təlim prosesi bütün şagirdlərin daimi, aktiv qarşılıqlı münasibətləri şəraitində həyata keçirilir. Şagird və müəllim təlim prosesinin bərabər hüquqlu subyektidirlər. İnteraktiv metodların tətbiqi həyati hadisələrin modelləşdirilməsini, rollu oyunlarının tətbiqini və problemlərin birgə həllini nəzərdə tutur. Burada hər hansı bir iştirakçının və ya iştirakçı rəyinin üstünlüyü istisna edilir. Şagirdlər gördükləri iş haqqında fikirlərini təhlil etmək imkanı qazanırlar. Şagirdlərin dərs materialını mənimsəyərkən yaranan qarşılıqlı fəaliyyətləri fikir, bilik, fəaliyyət növlərinin mübadiləsini nəzərdə tutur ki, bu da idrak prosesinin xeyirxahlıq və əməkdaşlıq mühitində həyata keçməsi deməkdir.

İnteraktiv təlimin konsepsiyası və texnologiyası qarşılıqlı təsir fenomeninə əsaslanır (ing. dilindən interaction - qarşılıqlı əlaqə, bir-birinə təsir). Öyrənmə prosesində bütün subyektlərin şəxsiyyətlərarası idrak ünsiyyəti və qarşılıqlı əlaqəsi həyata keçir. Əməkdaşlıq şəraitində həm şagirdlər inkişaf edir, həm də onların şəxsiyyəti formalaşır. Bu konsepsiyanın tərəfdarlarının fikirlərinə görə bu cür vəziyyətlərdə tez-tez tətbiq olunan adekvat modellərə təlim oyunlarını aid etmək olar. Təlim prosesində tətbiq olunan oyunlar təlimin nəticələrinin təkrar olunması (bilik, bacarıq və vərdişlər), onların tətbiq edilməsi, şagirdlərin müxtəlif səviyyəli təlim oyunlarına cəlb edilməsi ilə bağlı tarix müəllimlərinə imkan yaradır. Bununla bərabər, oyunlar ünsiyyət vərdişlərinin formalaşdırılması, lazımi emosional-şəxsi əlaqələrin qurulması imkanlarını özündə birləşdirir. Buna görə təlim oyunlarının tət-

biqi məktəblilərin şəxsi keyfiyyətlərinin inkişafına şərait yaradır (69, s.446).

Təlimin interaktiv metodları eyni zamanda üç əsas məsələni həll edir:

1. idraki (dərk etmə);
2. kommunikativ-inkişaf etdirici;
3. ictimai-istiqamətləndirilmiş.

Həmçinin aşağıdakıların həyata keçməsinə imkan yaradır:

- subyektin reallaşmasına – təlim fəaliyyətinin təşkilində subyektiv yanaşma;
- şagirdlərin fəal idrak və təfəkkür fəaliyyətlərini formalaşmasına;
- fənnin öyrənilməsinə olan motivasiyanın artırılmasına;
- dərsdə əlverişli mühitin yaradılmasına;
- dərs materialının monoloq şəklində təqdim olunmasının və əlçatan mənbələrdən əldə edilə bilən məlumatın təkrarının istisna edilməsinə;
- xüsusi termin və məlumatların özbaşına yadda qalmasına;
- şagirdlərin ünsiyyət vərdişlərinin müxtəlif formalarının inkişafına.

İnteraktiv təlim metodlarının tətbiq edilməsi nəticəsində şagirdlər aşağıdakılara fərdi və kollektiv şəkildə yiyələnirlər:

1. informasiya əldə edərək onu qiymətləndirməyə;
2. informasiyanın müzakirəsində iştirak etməyə;
3. tarixi problem haqqında qərar qəbul etməyə;
4. əməkdaşlıq nəticəsində formalaşmış mövqe və nəticəni qiymətləndirməyə imkan yaradan universal standartlardan faydalanmağa;
5. şagirdlər diskussiya aparmaq və öz fikirlərini qrupun digər üzvlərinə çatdırmağı öyrənir;

6. ümumi məqsədlərə nail olmaq üçün qrupun digər üzvləri ilə əməkdaşlıq edirlər (95, s.112).

Azərbaycan tarixinin tədrisi zamanı istifadə olunan interaktiv metodların əsas məsələləri aşağıdakılardan ibarətdir:

1. Bilik:

- Azərbaycan tarixi haqqında onun inkişafını tənqidi təhlil edib və bununla öyrənilən hadisələrə öz münasibətini bildirərək şagirdlərə məlumat vermək;
- nisbətən qısa müddət ərzində şagirdlər üçün geniş məlumat əldə etmək imkanı yaratmaq (dərsdə).

2. Bacarıq və vərdişlər:

- intellektual vərdişlər – şagirdlərin məntiqi və tənqidi qavrama vərdişlərinin inkişaf etdirilməsi;
- Azərbaycan tarixinin problemli məsələləri üzrə şagirdlərin öz şəxsi mövqelərini formalaşdırmaq bacarıqları;
- vəziyyəti qiymətləndirmək bacarığı;
- mübahisəli məsələlərdə qərar qəbul etmək və bu qərarı müdafiə etmək bacarığı;
- ünsiyyət vərdişləri – qrup daxilində öz mövqeyini aydın və səlis şəkildə nümayiş etdirmək və formalaşdırmaq bacarığı.

3. Mənəvi dəyərlər – şagirdlərə aşağıdakı mənəvi dəyərlər aşılanır:

- münaqişələrin sülh yolu ilə həlli;
- əməkdaşlıq;
- dözümlülük;
- səbir;
- ədalət;
- səmimiyyət;
- doğruluq;
- qaydalara riayət olunması;

- məsuliyyət;
- vətənpərvərlik, əxlaqi və estetik hisslərin tərbiyəsi;
- sözünün üstündə durmaq;
- doğma tarixə hörmət;
- özünün və başqalarının əməyinə hörmət.

İnteraktiv təlim – idrak fəaliyyətinin təşkilinin xüsusi formasıdır. İnteraktiv tədris zamanı müəllim şagirdin yaradıcı bacarıqlarını inkişaf etdirir, onu "kəşf etməyə", "ixtiraçılığa" alışdırır. Müəllim və şagird dərs prosesinin bərabərhüquqlu subyekti olur. Çin filosofu Konfusinin sözlərilə desək: "Müəllim və şagird birgə inkişaf edir" (38, s. 2-3).

İnteraktiv fəaliyyət dərslərdə qarşılıqlı əlaqəyə, qarşılıqlı anlayışa, hər bir iştirakçı üçün əhəmiyyətli olan ümumi qərarların verilməsinə aparıb çıxaran dialoq formasında ünsiyyətin təşkilinə və inkişafına şərait yaradır. Dialoq yolu ilə fəal/interaktiv təlim zamanı şagirdlərə məntiqi və tənqidi düşünmək, müvafiq məlumatın təhlili və ümumiləşdirilməsi əsasında mürəkkəb problemi həll etmək, alternativ fikirlər irəli sürmək, ərtaflı, əsaslandırılmış və düşünülmüş qərar qəbul etmək, müzakirələrdə iştirak etmək və insanlarla ünsiyyət qurmağı öyrədir. Bunun üçün fəal dərslərdə fərdi, cütlərlə və qrup şəklində işləri təşkil olunur, rollu oyunlar, tədqiqat layihələri tətbiq olunur, tarixi sənədlərlə və məlumatın müxtəlif mənbələri ilə iş aparılır, inkişafetdirici və yaradıcı işlərdən istifadə olunur.

İnteraktiv metodlara əlavə edilmiş xüsusiyyətlər nöqteyi-nəzərindən Azərbaycan tarixinin tədrisinə əqli hücum, rollu və bacarıq oyunları, müzakirələr, Venn diaqramı, debatlar, cütlərlə və ya qruplarla iş, "mozaika", "estafet" oyunları, təlimlər, dəyirmi masalar, "zəif bənd", auksion, "mövqeni tut", akvarium, "qərarlar ağacı", tamamlanmamış cümlə, "konkret vəziyyətlər", karusel,

təkliflər ağacı və s. aid etmək olar. Ümumiyyətlə, interaktiv təlimin 400-dən artıq üsulu məlumdur ki, bunların da sayı hər gün yebilənərək arta bilir, çünki, hər bir novator-müəllim dərsini istədiyi kimi planlaşdırmasında sərbəstdir. Beləliklə, dərsin üsul və forması dəyişsə də, dəyişməyən onun əsas məqsədidir ki, bu da öyrədici, inkişafetdirici və tərbiyəedici məqsədləridir.

İnteraktiv təlim zamanı şagirdlərin idrak fəallığının canlanmasına imkan yaradan nədir? Əlbəttə ki, interaktivlik nəzəriyyəsinin bünövrəsini təşkil edən elmi-metodiki əsaslar. Bu:

- təlimin əməkdaşlıq və təcrübə yolu ilə təşkil edilməsi;
- təlimdə idraki fəallığın nəzərə alınması;
- problemli axtarış üsulları və tədqiqat metodları;
- təlimin oyun metodları.

Tarixin interaktiv təlimi zamanı uğurlu fəaliyyət üçün zəruri olan iki əsas funksiya nəzərə alınmalıdır:

1. qoyulmuş məsələnin həlli (tədris, əxlaq və.s);
2. birgə iş zamanı qrupun üzvlərininin dəstəklənməsi.

Dərsin bu və ya digər formasını seçərkən müəllim bəzi peşə və şəxsi prinsiplərini rəhbər tutur. Məsələn, tarixin tədrisi üçün təklif etdiyimiz interaktiv metodlar, idrak tapşırığını yerinə yetirməklə yanaşı, bütün sinfi dərsə cəlb edə bilər (interaktiv olduqda, bütün iştirakçılar və kənar müşahidəçilər yoxdur).

Tarix dərsinin qrup işi üsulu ilə tədrisi aşağıdakı mərhələlərlə həyata keçirilir:

1. zehnin fəaliyyəti fəallaşdıran hərəkətlər;
2. qruplarda birləşmək;
3. qrup üzvlərinin qrupda təlim fəaliyyətinin təşkil olunması;
4. yekunlaşdırma və qrup işinin ümumiləşdirməsi;
5. qrup işinin prezentasiyası - təqdim olunması;
6. qiymətləndirmə və ya refleksiya.

Qrup işinin formalaşması zehnin açılışması üçün özünəməxsus hərəkətlərlə - intellektual, kommunikativ, emosional və s. dəstəkləyici hərəkətlərlə başlaya bilər.

Daha sonra qrup işi - işçi qrupların formalaşması ilə davam edir. Əsasən, qrupların formalaşdırılmasının üç yolu vardır:

- birinci yol, dərsin konkret tapşırıqlarını nəzərə alaraq müəllimin özünün qruplar təşkil etməsi və qrupun tərkibini müəyyənləşdirməsi;

- ikinci yol məktəbliləri «istəklərinə görə» qruplara birləşməyə dəvət edir. Bu yanaşmanın üstünlükləri məktəblilərin şəxsiyyətlərarası münasibətlərini nəzərə alınmasındadır. Lakin bunun mənfi cəhətləri də var: güclü bərabər olmayan qruplar meydana gəlir, buna görə də birgə fəaliyyətin nəticələri çox fərqli ola bilər. Digər vacib məqam: fərqli şagirdlərin ünsiyyət qurmaq, hər hansı bir səbəbdən imtina etdikləri təqdirdə kompromislər axtarmaq, fərqli insanlarla münasibət qurmağı öyrənmək imkanı olmur;

- üçüncü yol təsadüfi seçim yolu ilə kiçik qrupların formalaşmasıdır. Burada metod kimi xüsusi texnikalardan istifadə olunur. Məsələn, kəsilmiş bir vərəqlərdə «Neçə ayaq var?», «Əlinizdə nə var?» və s.

İnteraktiv təlimin növbəti mərhələsində şagirdlərin tədris fəaliyyəti qruplarda təşkil edilir. Bu iş bir neçə mərhələdən ibarətdir:

- qrupa verilmiş tapşırığın öyrənilməsi;

- daha yaxşı qərarın axtarılması mərhələsi;

- fikirlərin cəmlənməsi və qrupun cavabının ümumiləşdirilməsi;

- əvvəlcədən müəyyən edilmiş çərçivədə qrup təqdimatının nümayiş etdirilməsi və s.

Kiçik qrupların iştirakçıları dairəvi formada oturaraq problemi müzakirə edir. Müzakirə zamanı dairənin mərkəzində masa

məcburi deyil. Lakin, əgər tapşırıq stolüstü oyun, qrafik işlərin icra edilməsi və ya yazı tələb edirsə dairənin ortasında masaya ehtiyac yarana bilər. İşin səmərəliliyinin artmasına qrupun iştirakçılarının bir-birinə yaxın olması təsir edə bilər.

Qrupda funksiyalar iştirakçıların özünü təşkil etməsi əsasında aydın bölünmüş ola bilər: müəllim rolları təklif edir, iştirakçılar isə özləri kimin hansı rolu icra edəcəyini müəyyən edirlər. Xüsusilə qeyd olunmalıdır ki, lider rolu yoxdur və rollar elə bölünmüşdür ki, qrupda heç bir iştirakçı üstün deyil. Tapşırıqların icrasının gedişatında rolların dəyişməsi üstünlüyün qeyri-mümkünlüyü təmin olunur, bu həmçinin hər iştirakçıya funksiyaların geniş diapazonunu öyrənməyə imkan verir (cədvəl 1 bax).

Cədvəl 1. Qrup fəaliyyətinin təşkilini özündə ehtiva edən cədvəl

| **Fəaliyyətin komponentləri** | **Uğura aparan qrup funksiyaları** | |
|---|---|---|
| | **Məsələlərin həlli** | **Dəstəyin göstərilməsi** |
| **Qrup üzvlərinin rolları** | Təşəbbüskar, inkişaf etdirici, koordinator, nəzarətçi, qiymətləndirici, tərcüməçi, katib, natiq, zaman qoruyan və s. | İlhamverici, harmonizator, rabitə təşkilatçısı, xeyirxah dinləyici. |
| **Fəaliyyətin məzmunu** | Təkliflərin, məlumatların, fikirlərin qəbulu və onların emalı | Təşəbbüslərin dəstəyi, fikirlərə vadar etmə, yad fikirlərin qəbulu. |
| **Nəticə** | Qrup qarşısında qoyulmuş məqsədə nail olmaq üçün bütün qrup üzvlərin səfərbərliyi | Qrup işinin asanlaşıdırılması üçün qrup üzvlərinin qarşılıqlı dostluğunun möhkəmləndirilməsi |

İnteraktiv təlimdə problemin həlli yolunu axtararkən, şagirdlərin fərqli baxışlarının toqquşması baş verir. Buna görə müəllim

vəziyyətdən asılı olaraq:

- əvvəlcə məqbul və qəbuledilməz qarşılıqlı əlaqə formalarını müəyyən etməlidir;
- münaqişə vəziyyət yarandığı halda şagirdləri dərhal qrupdakı davranış normaları ilə tanış etmək;
- birinci yolu ikinci yolla birləşdirin.
- İnteraktiv təlim prosesində aşağıdakı davranış normaları vurğulanmalıdır:
- ortaq işdə "aktyor" və "tamaşaçı" yoxdur, hamısı iştirakçıdır;
- qrupun hər bir üzvü sözünün kəsilmədən dinlənməyə layiqdir;
- başa düşülməyiniz üçün danışmalısınız; lazımsız məlumatlardan yayınaraq birbaşa mövzu üzrə çıxış etmək;
- səslənən məlumatlar tamamilə aydın deyilsə, "başa düşmək üçün" suallar verin (məsələn, "Düzgün başa düşdüm?" və s.); yalnız bundan sonra nəticələr çıxarılır;
- hər kəs hər kəsdən kömək istəmək hüququna malikdir; hər kəs kömək istəyənə kömək etməlidir;
- fərdlər deyil, fikirlər tənqid olunur;
- birgə fəaliyyətlərdə məqsəd hər hansı bir fikirin üstünlüyünü göstərmək deyil, problemlə bağlı müxtəlif fikirləri öyrənərək ən yaxşı həll yolu tapmaqdır.

Müəllim bir an belə olsun şagirdlərlə əlaqəni kəsmədən qrupların işinə qarışmır, o yalnız işə kənardan müşahidə edir. Məhz susqun, təvəzökar, sakit müşahidə – müəllimin iştirakını və auditoriyanın vəziyyətinin anlamasını təmin edən başlıca funksiyasıdır. Müəllimin tapşırıqların və təlimin metodikasının mükəmməlləşdirməsi və  şagirdlərin xüsusiyyətlərinin daha yaxşı anlaması aparılan müşahidələrin nəticəsi olur.

Qrup işinin yekunlaşdırma prosesi - qoyulmuş məsələni

hansı səviyyədə yerinə yetirməsini göstərir. Bir neçə nəzərə ala bilməyəcəyi məsələlər mövcuddur ki, onlara müəllim hazır olmalıdır. Məsələn, qrupun qərarının təqdim edilməsi zamanı müəyyən olur ki, «qrupun spikeri « («carçısı», «ritor», « natiq» və s.) qrupun fikrinin əvəzinə, öz fikrini deyir və ya, təqdimat zamanı məlum olur ki, qrupun heç də hər üzvü qərarı izah edə bilmir. Beləliklə, qrup birləşməsinin funksiyası kifayət qədər reallaşdırılmamış olur. Beləliklə, müzakirə prosesində bir-birinə qulaq asmağı, yad fikirləri qəbul etməyi, güzəştə getməyi öyrənmək lazımdır və yaxud əksinə, elə arqumentlər tapmaq lazımdır ki, mövqeyin və ya fikrin düzgünlüyü tam sübut olunsun (46, s. 165).

Qrupdaxili müzakirədən ünsiyyət qruplararası müzakirəyə keçir. Qrup qərarlarının təqdimatı bütün təlim prosesinin təşkil olunmasından asılıdır və müxtəlif formalarda həyata keçirilə bilər (bax, cədvəl 2).

**Cədvəl 2.** Qruplararası ünsiyyətin təşkilini özündə ehtiva edən cədvəl

| Qruplararası ünsiyyətin formaları | Qrup qərarlarının təqdimat variantları |
|---|---|
| **Birgə – fərdi** | Hər qrup öz fəaliyyətinin nəticəsini təqdim edir; qərarlar müzakirə edilir, onlardan ən yaxşısı seçilir («yarmarka») |
| **Birgə – ardıcıl** | Hər qrupun fəaliyyətinin məhsulu ümumi problemin həllinə müəyyən pillə olur («estafet», «nərdivan») |
| **Birgə – qarşılıqlı təsirli** | Təkliflərdən qrup qərarlarının müəyyən aspektləri seçilir və sonra onlardan bütün kollektiv üçün ümumi nəticə çıxarılır («mozaika şəkili») |

İnteraktiv təlimin növbəti mərhələsi – keçirilmiş dərsin refleksiyasıdır. Dərsin bu mərhələsinin effektivliyi bir çox amillərdən asılıdır.

Təlimin qarşılıqlı əlaqəsi yalnız tədris məsələsinin həll olunması deyil, həm də qrup üzvlərinə dəstək göstərməkdən ibarətdir. Əgər birinci funksiya tədris vəziyyətinə görə həyata keçirilirsə, ikinci funksiyanın reallaşması məhz refleksiya mərhələsində qiymətləndirilir. Bəzən refleksiyanın aparılmasının çətinliyi şagirdlərin öz münasibətini ifadə etmək istəməməsində deyil, əksin, öz hisslərini ifadə edə bilməməsindədir. Bunun üçün müəllim əvvəlcədən şagirdlərə olanları anlamağa və adekvat olaraq öz münasibətini bildirməyə kömək edən suallar hazırlamalıdır. Məsələn: "Qrupda işləmək asandırmı?", "Öz fikrini bildirməyə imkan verilməyəndə insan nə hiss edir?", "Kim özünü qrup işi zamanı narahat hiss edirdi və nə üçün?", "Dərsin hansı mərhələsi sizə görə daha səmərəli sayıla bilər?", "Nə üçün siz bu fikirdəsiniz?", "Dərsin hansı mərhələsi daha az maraq kəsb edirdi?", "Nə üçün siz bu fikirdəsiniz?"

1. Müəllim şagirdlərin baş verənləri anlamağı və konstruktiv qiymətləndirməyi öyrənməsində maraqlıdır. Buna görə də şagirdlərin müxtəlif fikirlərini, hətta onlar səhv olduqda belə qəbul etməyə hazır olmalıdır. Şagirdlərin işə neqativ münasibətləri qaçılmazdır. Onların xüsusilə birinci dərslərdə olması adi haldır, çünki, şagirdlər belə intensiv-ünsiyyətli, emosional və intelektual məzmunlu iş forması ilə tanış deyillər və buna hazır ola bilməzlər. Amma neqativ qiymətləndirilmənin səbəblərini izah etmək üçün müəllim şagirdin emosional vəziyyətini təhlil etməlidir. Sən bu qrup işinə qəbul edilmişdin? Sinif yoldaşların və ya müəllim tərəfindən sənə təziq göstərilirdi? Təlim tapşırığının məzmunu sənin gücünə və imkanlarına uyğun idi? və s.

2. Refleksiya mərhələsinin effektiv olması şagirdlərin öz fəaliyyətini təhlil etməyə hazır olmasından da asılıdır. Refleksiyanın hər dərsdə aparılması və orada bütün şagirdlərin istisnasız iştirak etməsi olduqca vacibdir. Birinci dərsdən «üçü olmaz» qaydasını qəbul etmək lazımdır: 1) artıq deyilənlər haqda danışmaq olmaz; 2) öz fikrini qrupa (hər hansı bəhanə altında) bildirmək olmaz; 3) özünün pis əhval-ruhiyyəsi ilə fikrini əlaqələndirmək olmaz (53, s. 93).

Birgə işin səhvlərinin təhlili zamanı əsas diqqət ilk növbədə məzmunlu səhvi deyil (məsələn, yanlış təşkil edilmiş sxem), qarşılıqlı əlaqənin gedişini təhlil etmək lazımdır. Qiymətləndirmə zamanı yalnız qrupun ümumi işi qiymətləndirilir, heç bir formada qrupun iştirakçılarını  müxtəlif qiymətləndirmək olmaz!

İnteraktiv təlimi zamanı, ənənəvi təlimdə olduğu kimi, biliklərin yoxlanılması şagirdlərin yaddaşlarının, nitqinin inkişafı üçün son dərəcə əhəmiyyətlidir – çünki məhz bu zaman onlar çox danışırlar. Bu zaman şagirdlərin düşüncəsinin xüsusiyyətləri müəyyən olunur, onların dünyagörüşünün xüsusiyyətləri və aktiv şəkildə formalaşması həyata keçir.

Tarixin fəal/interaktiv təlimi zamanı aşağıdakılar biliklərin yoxlanılması həyata keçirilə bilər:

1. göstərilən əlamətlərlə və mövzunun seçimi ilə əlaqəli, şagirdlərin hadisələrə, faktlara və şəxslərə şəxsi münasibətini (mütləq elmi əsaslandırılmış) göstərən essenin (qısa inşa formasında yazı) yazılması;

2. seminar tipli dərslərdə müsahibə, debat və diskussiyaların təşkili;

3. bildiyinin reproduksiya olunması (canlandırılması) deyil, biliklərə əsaslanan təfəkkür işini tələb edən arqumentli və məntiqli cavablar;

4. planların, sxemlərin, cədvəllərin sərbəst tərtib edilməsi.

Sinifdə cədvəl ilk dəfə tərtib edildikdə, yalnız yadda saxlama deyil, həm də şagirdin təfəkkür bacarıqlarının səviyyəsi yoxlanılır: ona məlum əlamətləri müqayisə ediləcək göstəriciləri müəyyən etmək və xülasə etmək lazımdır;

5. şagirdlərin öz yoldaşlarının cavablarını təhlil etməsi;

6. tarixi sənədlərin, dövri mətbuat xəbərlərinin, arxeoloji məlumatların, müxtəlif həyat tərzinə uyğunlaşdırılmış vəziyyətlər təhlili prosesində biliklərin tətbiqi.

Tarixin interaktiv təlimi müəyyən formada fənn müəlliminin işinə verilən tələbləri də dəyişməsini tələb edir. Təhsil sisteminin inkişafının nəzərə alaraq müasir müəllim aşağıdakı bacarıqlara malik olmalıdır:

- şagirdlərin qrup işində gəldiyi nəticəsini yoxlama prosesini elə təşkil etməlidir ki, bu proses şagirdlər tərəfindən şəxsi təşəbbüsləri kimi qəbul edilsin;
- şagirdlərin qrup şəklində fəaliyyətinə yönəlmiş məqsədyönlü tədris vəziyyətləri təşkil etmək;
- dərsdə tədris ab-havasını yaratmaq və şagirdlərə daim öz dəstəyini vermək;
- öz elmi nüfuzunu saxlamaqla, şagirdlərin müstəqilliyini və sərbəstliyini göstərməyə kömək etmək.

Beləliklə, tarixin interaktiv təliminin təşkili metodikasının əsasları aşağıdakıları əhatə edir:

- öyrənilən mövzunun qısa problemli fikrinin müəyyən olunması;
- müəllimin şagirdlərlə birlikdə idrak prosesində səylərinə motivasiyalı hazırlığın təşkili;
- qoyulmuş probleminə şagirdləri sövq edən xüsusi vəziyyətlərin yaradılması;
- müəllim və şagirdlər üçün əməkdaşlıq qaydalarının qəbu-

lu və təkmilləşdirməsi;

- «dəstəkləyici» mühitin yaradılması: yönəldici sualları vermək bacarığı və s.;

- birgə fəaliyyətin və ümumiyyətlə dərsin nəticəsinin qiymətləndirilmə sisteminin optimallaşdırması;

- şəxslərarası və qrupdaxili ünsiyyətin və öz-özünü (öz hərəkət və təəssüratını) təhlil olunması.

Beləliklə, tarixin interaktiv təlimi - pedaqoji prosesin forması olaraq, qarşılıqlı təsirlərin strukturunu və mahiyyətini inkişaf etdirən amildir.

Fəal/interaktiv təlim – pedaqogikamızın maraqlı, yaradıcı istiqamətidir. İnteraktiv metodun üsullarını dərsin bütün mərhələlərində tətbiq etmək olar. Onlar əsasən universaldır və tarixin fənnini tədrisində geniş tətbiq olunur, yalnız məzmunu bir qədər dəyişir.

Yuxarıda deyilənləri nəzərə alaraq, tarix fənninin interaktiv təlimi zamanı aşağıdakı nəticəyə gəlmək olar:

- dərsdə eyni zamanda üç əsas məsələ həll edilir:
- dərk etmə (idraki),
- ünsiyyətli-inkişaf etdirici,
- ictimai cəhətdən-istiqamətverici;
- fəal dərs zamanı şagirdlər müxtəlif mənbələrdən sərbəst şəkildə informasiya əldə edirlər;
- bütün şagirdlər idrak prosesinə cəlb edilmiş olurlar;
- şagirdlər düşündükləri və etdikləri haqda refleksiya etmək imkanına malikdirlər;
- hər kəs öz fərdi töhfəsini verir, bilik, ideya, fəaliyyət üsulları mübadiləsi gedir;
- şagird şəxsiyyətinin formalaşması həyata keçirilir.

Nəticə olaraq deyə bilərik ki, tarixdən nəzəri metodların təd-

risində interaktiv metodlardan istifadənin üstünlükləri aşağıdakılardır:

1. sinifdəki güclü, orta və aşağı səviyyəli şagirdlərin idrak prosesinə qoşulması təmin edilir;

2. hər bir şagird üçün fikir söyləmək və digərini dinlkəmək üçün şərait yaradır;

3. interaktiv təlim tarixin məzmun xəttlərininin mənimsədilməsinə geniş imkanlar açır. Müəllimin verdiyi istiqamət əsasında mənimsənilən bilik Blum taksonomiyası əsasında təhlil edilir və dəyərləndirilir.

## V. FƏAL TƏLİM TEXNOLOGİYALARININ RİNSİPLƏRİ VƏ İNTERAKTİV TƏLİMİN MƏRHƏLƏLƏRİ

Şagirdi sosial, rəqabətəqabil, hərtərəfli inkişaf etdirməyə xidmət edən təlim-tərbiyə prinsipləri "Azərbaycan Respublikasında Təhsil İslahatı Proqramı"nda öz əksini tapmışdır. Bunlar aşağıdakılardan ibarətdir:

1. **Demokratikləşdirmə** - təhsil prosesinin demokratikləşdirilməsində maraqlı olan bütün tərəfləri - valideynləri, müəllimləri, şagirdləri təhsil prosesinə fəal iştirak etməyə cəlb olunması deməkdir.

2. **Humanistləşdirmə** – təhsilin humanistləşdirilməsi şagirdlərə münasibətin dəyişilməsini nəzərdə tutur, o cümlədən humanist yönümlü yaradıcı inkişaf qabiliyyətli şəxsiyyətin formalaşdırılması; əqli və fiziki imkanlarından, mənimsəmə qabiliyyətindən asılı olmayaraq şagirdlərə hörmətlə yanaşma; onların qabiliyyətlərinin aşkar edilməsi və onların inkişaf etdirilməsi üçün şəraitlərin yaradılması.

3. **Diferensiallaşdırma** – təlimin diferensiallaşdırılması şagirdlərin fədi imkanlarının nəzərə alınması ilə qurulur.

4. **Fərdiləşdirmə** – təhsilin fərdiləşdirilməsi hər bir şagirdin fərdi maraq və tələbatlarının nəzərə alınmasıdır.

5. **İnteqrasiya** – təhsilin inteqrasiyası fənlərin öyrənilməsi zamanı fənlərarası əlaqələrin aşkar edilməsi əsasında təfəkkürün inkişaf etdirilməsinin zəruriliyini nəzərdə tutur.

6. **Humanitarlaşdırma** – təhsilin humanitarlaşdırılması təhsilin məzmununun formalaşmasını nəzərdə tutur və şəxsiyyətin yaradıcı inkişaf prosesinin şərti kimi çıxış edir. Bu öz xalqının mədəniyyətini bilmə və dünya mədəniyyətinin dəyərləri ilə tanışlığı nəzərdə tutur (99; 106).

İnteraktiv təlim metodlarının tətbiqi zamanı istiqamətverici ideyalar kimi qəbul edilərək təcrübədə tətbiq edilməli prinsiplər isə aşağıdakılardır:

**1. Şəxsiyyətə yönəlmiş təlim prinsipi.** Müasir təlimin əsas şərtlərindən biri şagirdi təlim prosesinin mərkəzi kimi təlim prosesinin subyektinə çevirməsidir. Fəal təlim şagirdin maraq və tələbatına uyğun olmalı, onun mənimsəmə potensialına uyğun olmalıdır. Müasir dərsdə müəllimin şagirdə şəxsiyyət kimi yanaşılmalı, ona fərdi şəkildə və hörmətlə yanaşmalıdır.

**2. Fəal idrak prinsipi.** Tarix dərsi elə təşkil olunmalıdır ki, o şagirdin idraki fəallığını, yenilikçi rolunu açmağa imkan versin, onun yeni biliklər mənimsəməsinə həvəs yaratsın, təfəkkürünü fəallaşdırsın. Bunun üçün ilk növbədə təlim prosesində idrak fəallığını yaradan problemli situasiyalar yaradılmalıdır. Şagirdlər problemin həllinə çalışarkən idraki fəallıq göstərir və onların fəaliyyəti yeni bilikləri kəşf etməyə yönəlir.

**3. İnkişafedici təlim prinsipi.** Tarixin müasir təlimi, digər fənlərdə olduğu kimi, əsasən üç xarakteri ilə - öyrədici, inkişafetdirici və tərbiyəedici xarakteri ilə səciyyələndirilir. İnkişafedici təlim ilk növbədə məntiqi, tənqidi təfəkkürü inkişaf etdiri və yaradıcılığı formalaşdırır.

**4. «Qabaqlayıcı təlim» prinsipi.** XXI əsrdə baş verən keyfiyyət dəyişiklikləri təlimin qarşısında şagirdlərin müstəqil həyata hazırlanması məsələsini əsas məqsədlərdən biri kimi qoyur. Məktəb şagirdlərə yalnız fənn üzrə əsas bilik, bacarıq və vərdişləri verməklə deyil, onlarda idraki fəallığı formalaşdırmalıdır, lazım olan informasiyanı müstəqil əldə etməyi, onu dəyərləndirməyi, ondan istifadə etməyi öyrətməlidir.

**5. Təlim-tərbiyə sisteminin çevikliyi prinsipi** ilk növbədə onun real şəraitə uyğunlaşmaq qabiliyyətidir. Cəmiyyətin və öy-

rənənlərin dəyişən tələbləri nəzərə alınmaqla fənn proqramları, kurikulumları, dərslik və dərs vəsaitləri, təlim texnologiyaların seçilməsi prinsipi dəyişir, təzələnir. Çevik təlim və tərbiyə sistemində, daha çox şagirdlərin müxtəlif məlumatların mənimsənilməsinə üstünlük verilir. Bunun üçün müəllim hər şagirdə fərdi yanaşmağa, müxtəlif təlim texnologiyalardan istifadə edərək informasiyaları onların bütün mənimsəmə imkanlarından istifadə etməklə (eşitmə, görmə, hiss etmə və s. duyğulara əsaslanan) təqdim etməlidir.

**6. Əməkdaşlıq prinsipi.** Müasir təlim dərsdə şagirdin təlim prosesində müəllimlə bərabərhüquqlu (müəllim-şagird əməkdaşlığı) şəxs kimi çıxış etməsini nəzərdə tutur ki, bu da şagirdin özünə inamını artır. Əməkdaşlıq prinsipi müəllimdən qiymətləndirilmə zamanı daha çox dəstəkləyici, həvəsləndirici qiymətlərdən istifadə etməsini nəzərdə tutur.

**7. Dialoji təlim prinsipi** dərs zamanı yaranmış hər hansı məsələlərin birgə həllində yoldaşlarının fikirlərini, bilgilərini və təcrübələrini bölüşmək və bundan bütün şagirdlərin faydalanması məqsədilə bütün şagirdlərin müzakirələrdə və qrup işində iştirakı təmin olunmalıdır. Dialoji təlim fikir müxtəlifliyinə, təlim-tərbiyə prosesinin daha da zənginləşdirməyə imkan yaradır, ümumiləşdirmə prosesinə müsbət təsir edir (101).

Yuxarıda sadalanmış bu prinsiplərin həyata keçirilməsi bu gün ümumtəhsil məktəblərimizdətətbiq olunan fəal/interaktiv təlim metodları ilə mümkündür.

Məlumdur ki, yeni təlim texnologiyaları yaddaşa deyil, əsasən təfəkkürə əsaslanır. İnteraktiv təlim metodları ilə müstəqil şəkildə əldə edən biliklər şagirdlərin həm təfəkkürünü inkişaf etdirir, həm də onların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir. Şagirdlərin tələblər baxımından formalaşmasına nail olmaq üçün

təlim prosesində aşağıdakı tələblərə əməl etmək lazımdır:

– **Problemlilik:** təlim prosesində problemli vəziyyətin yaradılması təfəkkürü fəallaşdırır və mənimsəmə prosesini daha səmərəli edir;

– **Bilik və təfəkkürün ayrılmazlığı:** biliklər təfəkkürün inkişaf etdirilməsi vasitəsidir, onlar hazır vəziyyətdə qavranılmır;

– **Məzmunun elmi tutuma malik olması:** təlim-tərbiyə proqramları əsas elmi nailiyyətləri əks etdirməlidir;

– **Yaradıcılığın stimullaşdırılması:** təlim-tərbiyə prosesində bütün növ yaradıcı fikirlərə və fəaliyyətlərə dayaq verilməlidir;

– **Həyat tələbatlarının və biliklərin qarşılıqlı əlaqəsi:** təlim-tərbiyənin məzmunu şagirdin öyrəndiklərinin həyat ilə hansı formada əlaqəli olmasının dərk edilməsinə yönəlməlidir;

– **Şəxsi yönəlişli:** təlim proqramları şagirdlərə şəxsi təcrübəsindən istifadə olunmasına imkan yaratmalıdır;

– **Diferensiallaşdırma:** fənnin məzmununun şagirdlərin meyl və maraqlarına, qabiliyyətlərinə, şagirdlərin inkişaf səviyyələrinə yönəlişliyi;

– **Müstəqil öyrənmə vərdişlərinin inkişaf etdirilməsinə yönəlişlilik:** yeni biliklərə sərbəst yiyələnməyi, onlardan yaradıcı istifadə etməyi öyrədən tapşırıqlar olmalıdır;

– **İnteqrasiya:** müxtəlif fənlərdən olan mövzuları fənlərarası əlaqələrin imkanlarından istifadə etməklə öyrənməyə imkan verir;

– **Təlim proqramlarının məzmununun tərtibində çeviklik:** proqramların məzmununun sistematik olaraq təzələnməsi;

– **Biliklərin ümumiləşdirilmiş şəkildə mənimsənilməsi:** təlim-tərbiyə proqramları yalnız biliklərin mənimsənilməsinə deyil, həm də fundamental elmi bilik və bacarıqların öyrə-

nilməsinə yönəlməlidir;

– **Gələcəyə istiqamətlənmə:** təlim-tərbiyənin məzmununda gələcəkdə əhəmiyyətli ola bilməsi məsələləri olmalıdır;

– **Təlimin nəticələrinin əks etdirilməsi:** təlim-tərbiyə proqramları şagirdin təlimin sonunda nələri bilmələrini əks etdirməlidir.

**Fəal dərsin mərhələləri.**

Aparılmış elmi-pedaqoji təcrübələr göstərir ki, fəal/interaktiv təlim metodları ilə keçirilən tarix dərslərində şagirdlərin maraq və meyllərinə uyğun olduğu üçün onların dərketmə fəaliyyətini daha çox inkişaf etdirir və fənnin məzmununun öyrənilməsində daha səmərəli yol hesab olunur.

Tarix dərsinin səmərəli keçirilməsi dərsin düzgün təşkilindən asılıdır: dərsin forma, üsul və metodları, onun mərhələlərinin düzgün müəyyən olunmasından.

Fəal/interaktiv dərsdə müəllim hər bir uşağı nəzərə alır, onun potensialından maksimal dərəcədə istifadə edir. Müasir tarix dərsi bütün şagirdlərin qarşılıqlı inamı və etibarı, canlı ünsiyyəti əsasında qurulur. Dərs həm müəllimin, həm də şagirdin yaradıcılığının nəticəsi olur.

Fəal/interaktiv metodlarla təşkil olunan tarix dərsinin səmərəliyini artırmaq üçün ən mühüm amillərdən biri dərsin planlaşdırılmasıdır. Müasir tarix dərsinin yaradıcı xarakterinə baxmayaraq, onun uğuru dərsin əvvəlcədən bütün mərhələrinin öncədən «ölçülüb-biçilməsi"sindən asılıdır. Planlaşdırma təlimin məqsədlərinin müəyyənləşməsindən başlanır.

Müasir tarix dərsinin əsas komponenti olan - planlaşdırılması şərti olaraq aşağıdakı hissələrdən ibarət olmalıdır:

1. tədris plan və kurikulumları və ya təlimin məzmunu (nəyi öyrətməli?);

2. təlimin üsul və metodları (necə öyrətməli?);

3. təlim-tərbiyə prosesinin təşkili (hansı şəraitdə öyrətməli?);

4. şagird nailiyyətinin qiymətləndirilməsi (təlim nəticələrini necə qiymətləndirmək olar?).

Qeyd olunan nöqsanları aradan qaldırmaq məqsədi ilə aşağıdakı komponentlərdən ibarət təlim modeli müəyyən edilmişdir (bax şəkil 4).

Şəkil 4. *Müasir təlim modeli*




Bu komponentlər arasında təlim prosesinin 2 əsas istiqaməti müəyyən olunub:

1. Şagirdlərin idrak prosesinin, yəni hafizə, təfəkkür, diqqət, təxəyyül proseslərinin, o cümlədən bilik, bacarıq və vərdişlərinin inkişaf etdirilməsi.

2. Şagirdlərin şəxsiyyətinin nkişafı, yəni şagirdlərin iradi, emosional, sosial və psixoloji inkişaf etdirilməsi.

Bu iki amil təlim-tərbiyə qurulmasının istiqamətini müəyyən edərək, onun əsas meyarı kimi çıxış edir. Tarix dərsinin fəal/interaktiv metodlarla tədrisinin planlaşdırılmasında məzmun xəttinə uyğun əsas və alt standartların seçilməsi mühüm əhəmiyyət kəsb edir. Müəllim dərsi planlaşdırarkən onun hansı növə aid olduğunu müəyyənləşdirir.

Fəal/interaktiv təlimin iki əsas növü var: induktiv və deduktiv tədqiqat. İnduktiv tədqiqat xüsusi biliklərdən ümumi biliklərə doğru aparan yol, deduktiv tədqiqət isə əksinə olaraq ümumi biliklərin əlamətlərinə görə təhlil olunmasıdır.

*İnduktiv tədqiqat* əsasən yeni mövzunun tədrisi prosesində istifadə olunur.

*Deduktiv tətqiqat* əsasən mövzunun möhkəmləndirilməsi və dərinləşdirilməsi zamanı istifadə olunur.

Dərsin məqsədlərini, onun tipini müəyyənləşdirdikdən sonra müəllim artıq fəal təlimin quruluşuna əsasən dərsi mərhələlər üzrə planlaşdırır.

Fəal təlim metodlarının tətbiqi ilə aparılan tarix dərsləri əsasən aşağıdakı mərhələlərdən ibarət olur:

**1. Motivasiya, problemin qoyulması**. Məlumdur ki, tədqiqatı aparmaq üçün problemli vəziyyətin yaradılması əsas şərtdir. Problemli vəziyyətin yaradılması çoxsaylı ehtimallar, fərziyyələr doğurur və bunların yoxlanılması üçün tədqiqat sualı formalaşdırmaq lazımdır. Tədqiqat sualı yeni biliklərin kəşfinə aparan bələdçi, mayak, əsas amildir.

Bəs nə üçün biz dərsin bu mərhələsini məhz motivasiya adlandırırıq? Psixoloji ədəbiyyatda motivasiya istənilən fəaliyyətin mexanizmini işə salan sövqedici qüvvədir. Fəal/interaktiv dərsdə

təfəkkür proseslərini işləməyə sövq edən, eləcədə şagirdlərin idrak fəallığını inkişaf etdirən motivasiya qismində problemi ortaya gətiririr və onun həllini tələb edir.

Motivasiya mərhələsinin əsas üstünlüklərindən biri düşünmə qabiliyyətinin müstəqilliyi və sərbəstliyidir: şagirdlər fikrlərini "Mənə belə gəlir ki, ...", "Zənnimcə..." , "Mən hesab edirəm ki,..." sözlərindən istifadə etməklə ifadə edir.

**2. Tədqiqatın aparılması**. Problemin həlli üzrə ehtimalların meydana gəlməsi nəticəsində, irəli sürülən fərziyyələri təsdiq və ya təkzib edən, həmçinin qoyulan tədqiqat sualına cavab verməyə kömək edən faktları müəyyən etmək zərurəti ortaya çıxır. Məhz yeni informasiyaların öyrənilməsi və yaranan suallara cavabların tapılması gedişində düşünmək və yeni bilgiləri kəşf etmək üçün münasib şərait yaranır.

Tədqiqat müxtəlif formalarda: fərdi şəkildə, cütlük şəklində, kiçik qruplarda və ya bütün siniflə birgə aparıla bilər. Lakin ənənəvi təlimlə müqayisədə fəal/interaktiv təlim metodları daha fəal iş formalarını özündə ehtiva edir. Təlimin interaktiv xarakteri cütlük şəklində və ya kiçik qruplarda işlərdə daha qabarıq formada təzahür edir.

**3. İnformasiya mübadiləsi**. Bu mərhələdə şagirdlər tədqiqatın gedişində əldə etdikləri yeni biliklərin, informasiyaların mübadiləsini aparırlar. Problemli suala cavab tapmaq zərurəti tədqiqat prosesinin bütün iştrakçılarının təqdimatlarını dinləməyə sövq edir. Təqdimatlar ümumi problemin bir növ dairəsini cızır, lakin bu biliklər hələ natamam və nizamsız xarakter daşıyır. Bu mərhələdə həmin biliklərin qaydaya salınması, sistemləşdirilməsi və qoyulmuş tədqiqat sualının cavablandırılması zərurəti yaranır.

**4. İnformasiyanın müzakirəsi və təşkili.** Bu mərhələdə müxtəlif təfəkkür formalarının (məntiqi, tənqidi, yaradıcı) səfərbər

olmasını tələb edir. Müəllim köməkçi, yönəldici suallardan istifadə etməklə (fasilitasiya əsasında) əldə olunmuş yeni faktların müzakirəsinə və təşkilinə istiqamət verir, kömək edir. İnformasiyanın təşkili faktların əlaqələndirilməsinə və onların sistemləşdirilməsinə yönəldilir. Nəticədə dərsin əvvəlində irəli sürülmüş tədqiqat sualına cavabın cizgiləri aydın görünməyə başlayır.

**5. Nəticə, ümumiləşdirmə.** Beləliklə, şagirdlərə yeni biliklərin kəşfi yolunda sonuncu mərhələdə şagirdlər əldə olunan bilikləri ümumiləşdirir və gəldikləri nəticələri tədqiqat sualı ilə (nəticə tədqiqat sualına cavab verirmi?), həmçinin irəli sürülmüş fərziyyələrlə (onlardann düzgün olanı varmı?) tutuşdurmalıdır. Bu ən mühüm məqamdır. Dərsin əsas məqamı biliklərin məhz şagirdlərin özləri kəşf etməsi sayəsində özünə inamın artırılmasıdır.

**6. Yaradıcı tətbiqetmə.** Bildiyimiz kimi, fəal təlimin əsas şərti əldə olunan yeni biliklərin yaradıcı tətbiq edilməsidir. Yeni biliklərin yaradıcı tətbiq olunması bilikləri möhkəmləndirir, onun praktiki əhəmiyyətini şagirdlərə göstərir. Bu mərhələ yalnız bir dərslə məhdudlaşdırılmaya bilər, onun davam etdirilməsi sonrakı dərslərdə də mümkündür.

**7. Qiymətləndirmə və ya Refleksiya**. Qiymətləndirmə istənilən dərsin təkmilləşdirilməsini təmin edən bir mexanizmdir. Öz qüsurlarını vaxtında aşkar etmək, uğur qazanılmasına nələrin kömək etdiyini və nələrin mane olduğunu müəyyənləşdirmək olduqca vacibdir. Fəal dərsin bu mərhələsi məhz bu məqsədə xidmət etməlidir. Müasir dərsin qiymətmətləndirmə meyarları da ənənəvi dərsin qiymətləndirməsindən fərqli və daha da proqressivdir. Şagirdlər artıq əvvəlcədən qiymətləndirmənin meyarlarını bilir və buna görə də əməkdaşlığa, öz fikirlərini irəli sürməyə, fikir mübadiləsi aparmağa, qrupda və ya kollektivdə işləməyə və s. meyl göstərir (100; 69, s. 280-283).

Dərsin sonunda aparılan refleksiya mərhələsi həm müəllim, həm də şagirdlər üçün ən vacib mərhələlərdən hesab olunur. Bu mərhələdə müəllim şagirdlərə "dərsin hansı mərhələsi sizə daha maraqlı oldu?", "dərsin hansı mərhələsi daha maraqsız gəldi", "dərsdə hansı üsullardan istifadə olunmasını istərdiniz?" və s. kimi suallarla müraciət edir. Bu mərhələnin nəticəsində müəllim gələcək dərslərinin təkmilləşdirilməsi üçün özündə qeydlər aparır.

Bəzən fəal dərsin sonuncu mərhələsi hesab edilən - qiymətləndirmə və refleksiya mərhələsini dərsin müxtəlif mərhələlərinə tətbiq etmək olar, bu dərsin daha uğurla keçməsinə və dəyərləndirilməsinə xidmət edər.

Şagirdlərin nailiyyətinin effektivliyi həm kəmiyyət, həm də keyfiyyətə görə qiymətləndirilə bilər və müxtəlif formalarda aparıla bilər. Müəllim unutmamalıdır ki, qiymətləndirmə əsasən şagirdlər üçün özünənəzarət və özünüqiymətləndirmə vasitəsi rolunu oynamalıdır (bax, cədvəl 3).

**Cədvəl 3.** Fəal dərsin mərhələləri və nəticələri

| № | Fəal dərsin mərhələləri | Nəticə |
|---|---|---|
| 1. | Motivasiya (problemin qoyulması, fərziyyələrin irəli sürülməsi) | Tədqiqat sualı və fərziyyələr |
| 2. | Tədqiqatın aparılması (fərziyyələri yoxlamaq üçün faktların axtarılması) | Tədqiqat işləri, yeni faktlar |
| 3. | Məlumat mübadiləsi (əldə edilmiş məlumatların və öz tədqiqatlarının təqdimatı) | Müzakirə üçün yeni məlumat |
| 4. | Məlumatın müzakirəsi və təşkili (əldə edilmiş məlumatların müzakirəsi, müxtəlif faktların əlaqələndirilməsi, omların sistemləşdirilməsi) | Sistemləşdirilmiş məlumat |

| | | |
|---|---|---|
| 5. | Ümumiləşdirmə və nəticələrin çıxarılması (ümumiləşdirilmələr, nəticələrin fərziyyələrlə müqayisəsi və onların təsdiq və ya tıkzib edilməsi, tədqiqat sualına cavab) | Əldə edilmiş bilik (ümumiləşdirmə) |
| 6. | Yaradıcı tətbiq etmə (produktiv tətbiq etmə) | Biliyin tətbiqetmə yolları və təcrübəsi |
| 7. | Qiymətləndirmə və refleksiya | Özünüqiymətləndirmə vərdişi, öyrənməyin qaydalarının mənimsənilməsi, müstəqil öyrənmə vərdişləri |

Tarixin fəal/interaktiv təlimi prosesində şagirdin mövqeyi – "tədqiqatçı", araşdırıcı", "kəşf edən" mövqeyidir; o, problemləri müstəqil tədqiqat prosesində həll edir. Şagirdlər artıq ənənəvi təlimdəki kimi passiv dinləyici deyil, fəal düşünən, fikir söyləyən, öyrəndiyinə münasibət bildirən, bir subyekt, artıq tədqiqatçı, təlim prosesinin tamhüquqlu iştirakçısı, kimi çıxış edir və bilikləri fəal axtarış və kəşflər prosesində mənimsəyirlər (100).

Müasir təlim prosesində müəllimin mövqeyi – **fasilitator** («bələdçi», «aparıcı») daha çox istiqamətverici mövqeyində olur. O, problemli vəziyyətləri planlı şəkildə təşkil edir, şagirdlər qarşısında tədqiqat məsələlərinin yaranmasına çalışır və onların həllinə metodiki kömək göstərir.

İnteraktiv metodlarla qurulan tarix dərsi ənənəvi dərsdən onunla fərqlənir ki, burada uşaqlar özləri biliyi əldə edir, müstəqil çalışaraq, axtararaq bilik qazanır. Şagirdlər təlim prosesinə fəal cəlb olunurlar. Müəllim isə daha çox istiqamət, məsləhət verir, o bələdçi rolunu oynayır. Sinifdəki iqlim uşaqların sərbəstləşməsinə, müstəqilliyinə, fəallığına səbəb olur, uşaqlar öz fikirlərini sərbəst söyləyə bilirlər. İnteraktiv dərsin dəqiq strukturu var və qarşıya qoyulan məsələləri həll etməyə imkan verir, uşaqlar biliklərə yiyələnir, tədris proqramı zərər çəkmir.

Fəal/interaktiv təlim metodlarının əsas üstünlüyü - real idrak motivasiyasının yarada bilməsidir. Ziddiyyətli vəziyyətlərdən yaranan emosiyalar idrak fəaliyyətinin səfərbərliyini təmin edir, diqqəti uzun müddət dərs prosesinə cəmləməyə imkan yaradır. Bilgilər əvvəlki kimi "hazır" şəkildə deyil, artıq müstəqil şəkildə şagirdlərin kəşfi prosesində, fəal formada mənimsənilir. Şagird dərsdə istəyinə görə yeni bilikləri əldə edirsə, kəşf edirsə, onda o, dərsə yaradıcı və daha maraqla yanaşır, əldə etdiyi bilikləri uzun müddətə və daha möhkəm mənimsəyir.

İnteraktiv təlim metodlarından istifadə şagirdlərin passivliyinin aradan qaldırılmasına, onların lazımi təfəkkür xüsusiyyətlərinin və yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması və təlim keyfiyyətinin yüksəldilməsinə, nisbətən qısa vaxt kəsiyində daha çox informasiya mənimsəməsinə şərait yaradır.

Dünya təcrübəsi göstərir ki, interaktiv təlim metodları bu gün təlimin keyfiyyətini artırmaq üçün ən əsas vasitələrdəndir. Fəal/interaktiv təlim metodları şagirdlərin maraq və tələblərini özündə əks etdirir, proqram materialının daha səmərəli üsullarla mənimsənilməsini təşkil edir, şagirdlərin fərdi dərketmə qabiliyyətlərinə uyğun gəlir və ən vacib olan dərsdə şagirdlərin bilikləri aktiv, yaradıcı şəkildə mənimsəyir. Şagirdlərin nailiyyətləri artdıqca, öyrənməyə həvəsi çoxalır və müəllimin fəaliyyəti isə yüngülləşir. İnteraktiv təlim dərsin hazırlanması və idarə edilməsi müəllimdən böyük zəhmət, yaradıcılıq və işgüzarlıq tələb edir.

İnteraktiv metodlarla keçilən dərslərdə şagirdlərin öyrənmə fəallığı, təlimin səmərəliliyi və keyfiyyəti artır, onların təşəbbüskarlığı və hər şeyi bilmək həvəsi yüksəlir və beləliklə mexaniki yaddaş deyil, yaradıcı təfəkkürü inkişaf edir.

## VI. TARİXİN İNTERAKTİV METODLARLA TƏDRİSİ SAHƏSİNDƏ TOPLANMIŞ QABAQCIL TƏCRÜBƏ

Azərbaycan müstəqillik qazandıqdan sonra digər sahələrdə olduğu kimi, təhsil sistemində də uğurla islahatlar aparılır. Bu islahatlar məktəbdə şagirdlərə hazır bilik və bacarıqlar verməyə deyil, onlarda tənqidi düşünmə bacarıq və vərdişlərinin inkişaf etdirməyə, təlim materialını sərbəst şəkildə mənimsəməyi, onları təhlil etməyi və təhlil əsasında müstəqil nəticə çıxarmağa yönəlmişdir. Tənqidi düşünmə - müzakirə olunan məsələ ilə bağlı öz mövqeyini bildirmək, onu əsaslandırmaq bacarığı, həmsöhbətini dinləmək qabiliyyəti, dəlilləri diqqətlə götür-qoy etmək və onların daxili qanunauyğunluğunu təhlil etməkdir. Bu halda şagird sadəcə müəllimin təqdim etdiyi məlumatı passiv şəkildə qəbul etmir, həmçinin mütaliə, yazı və müzakirə yolu ilə müstəqil şəkildə öyrənməyə imkan yaradan tədqiqatın xüsusi metodlarından istifadə edir. Şagirdlər lazım olan materialı tapmağı bacarır və onların öyrənilməsi üçün öz bacarıqlarını tətbiq edirlər. Birlikdə işləyərək şagirdlər yoldaşlarını hörmətlə dinləyir, özünə əmin lakin nəzakətli şəkildə öz fikrini bildirir. Əldə olunmuş bacarıqlardan istifadə edərək onlar lazımi mənbələri axtarıb tapır və qrupun məsul üzvi kimi fəaliyyət göstərərək problemin kollektiv həllində iştirak edirlər.

Hal-hazırda tarix müəllimlərinin ən vacib vəzifələrindən biri – dərsdə bilavasitə məqsədlərə çatmaq, qoyulmuş tapşırıqları yerinə yetirmək üçün şagirdləri səfərbər etməkdir. Bunun üçün hər dəsrin planı tərtib olunmalı, burada irəli sürülmüş məqsədlərə çatmaq üçün ən qısa yollar öz əksini tapmalı və ilk növbədə, qoyulmuş məqsədlərə birbaşa uyğunluq təşkil edən təlim üsulla-

rı, metodları və vasitələri göstərilməlidir. Tədris prosesində müəllim hər şeydən öncə idraki fəaliyyətin əlaqələndiricisi və eyni zamanda şagirdlərin yardımçısı və məsləhətçisi rolunda çıxış edir. Müəllimin istiqamətləndirici rolu şagirdlərə dərs zamanı ortaya çıxan problemləri müəyyən etməyə və həmin problemlərin həlli yollarının tapılmasında yardımçı olmaqdan ibarətdir.

Qeyd etmək lazımdır ki, Respublikamızın ümumtəhsil məktəblərində tarix dərslərinin interaktiv metodlarla tədrisi bəzən fəal təlim metodlarının tələbləri ilə uyğun gəlmir. Bu halların gələcəkdə baş verməməsi üçün onların səbəblərini araşdırıb təhlil etmək lazımdır. İnteraktiv metodlarla tədris edilən tarix dərslərinin müşahidəsi göstərir ki, heç də həmişə dərslər lazımi şəkildə keçirilmir.

Məktəblərdə interaktiv təlim metodlarını tətbiq edən bəzi müəllimlər aşağıdakıları nəzərə almalıdır:

- şagirdləri öz ideya və fikirlərini ifadə etməyə və onların müdafiəsinə həvəsləndirməli;
- yeni ideya və bacarıqların tətbiqi üçün şagirdlərə imkan yaratmalı;
- etibar, dözümlülük və qarşılıqlı hörmət əsasında şagird və müəllimlərin qarşılıqlı əlaqələrinin qurulmasına imkan yaratmalı;
- şagirdlərin öz ideyalarını müdafiə etməsi və əsaslandırması üçün şərait yaradaraq, onların fikir mübadiləsini təşkil etməli;
- şagirdlərin yazılı və şifahi mətni müxtəlif cür şərh etmələrinə imkan yaratmalı;
- təlim prosesinə bütün şagirdləri cəlb etməli;
- şagirdlərlə birlikdə dərs mühitinə və təlim vəsaitlərinə nəzarət etməli;
- tez-tez şagirdlərin şərhlərini digər şagirdlərə yönəldib, onların qarşılıqlı təşkil edir;

- suala verilən cavabların müxtəlifliyinə həvəsləndirirlər;
- şagirdlərin effektiv qarşılıqlı əlaqələrinin qurulması üçün tez-tez cütlük şəklində və ya müxtəlif tərkibli qruplarda fəaliyyətə yönəldirlər.

Müşahidələrin nəticəsindən aydın olur ki, təlimin interaktiv metodlarını tətbiq edən müəllimlər:

1. proqramda-kurikulumda nəzərdə tutulmuş materialı tədris edir, hər bir şagirdi tədris prosesinə cəlb edir, onların tənqidi təfəkkürünü stimullaşdıraraq təlimin aktiv metodlarından istifadə edirlər;
2. marağın davamlılığı üçün müxtəlif metod və üsullardan istifadə edirlər;
3. ideyaların açılması və tədqiqat vasitəsi kimi oxu və yazıdan istifadə edirlər;
4. dərslikləri müxtəlif materiallarla təkmilləşdirərək tədris proqramını zənginləşdirir, onu şagirdlər üçün daha sadə edir və müzakirələrə həvəsləndirlər;

Şagirdləri düşünməyə və öz şəxsi mülahizələrini söyləməyə şövq etmək üçün müəllimlər:

- şagirdləri müxtəlif ideya, rəy və fikirlərini ifadə etməyə həvəsləndirir "açıq" və düşündürücü suallar verirlər;
- şagirdlərə tam, fasiləsiz cavab vermək üçün kifayət qədər vaxt verirlər;
- dərsdə şagirdlərin sual verməyə vadar edən dəstəkləyici mühit yaradırlar;
- şagirdlərlə birlikdə fəaliyyət göstərirlər.

Tarixin interaktiv təlim metodlarından istifadə edərək:

1. müəllim tez-tez özü məlumatın əlavə mənbələrini təqdim edir və şagirdləri tədqiqata həvəsləndirir;
2. tapşırıqlar öyrənilən materialın daha yaxşı mənimsə-

nilməsinə kömək edir və şagirdlərin dərsə marağını artırır;

3. müəllim əsasən Blum taksonomiyasının bütün səviyyələrindən suallar verir (onların əksəriyyəti – açıq suallar olur);

4. müəllim həmişə dərhal cavab vermək iqtidarında olmayan şagirdlərə cavabı düşünmək üçün vaxt verir;

5. müəllim həmişə şagirdlərə öz fikrlərini tamamlamağa şərait yaradır.

Tarixin interaktiv tədrisində xüsusi yeri eyni və oxşar hadisələrdə müxtəlif nöqteyi-nəzərləri əks etdirən mənbələr tutur. Sənədlərlə işin ən sadə səviyyəsi tarixi biliyi daha da təkmilləşdirir, mənbələrin dərin analizi ilə birləşdirir və faktlar haqqında qərarları qiymətləndirir. Yaradıcılıq səviyyəsi bununla oyunda, mübahisədə və şagirdlərin fəaliyyətinin tədqiqat formalarını tətbiq etməyin azad olduğunu göstərir. Geniş tarixi baza əsasında şagirdlərin dərsində və təşkilat işlərində oxumaq işin aktiv formaları tarixə marağı gücləndirmək üçün imkan verir.

Qeyd etmək lazımdır ki, əlavə materiallar tədris planını zənginləşdirir, onu şagirdlər üçün daha əlverişli edir və müxtəlif müzakirələrə həvəsləndirir. Müəllim əlavə informasiya mənbələrini verərək buna şagirdləri də həvəsləndirir. Verilmiş məsələ şagirdlərə yalnız oxumaq və yazmaq deyil, həm də öyrənilən materialı daha dərindən başa düşməyə imkan yaradır.

Məlumdur ki, ənənəvi təlimin mövcud *qiymətləndirmə meyarı*, interaktiv təlimdə şagirdlərin biliyinin qiymətləndirməsindən fərqlidir. Belə ki, ənənəvi təlimdə:

- müəllim suallardan istifadə edərək, şagirdlərin faktiki materialı bilməsini qiymətləndirir;
- qiymətləndirmə meyarları şagirdlərin diqqətinə nadir hallarda çatdırılır (95, s.123).

Təlim interaktiv metodlarla tətdris edən müəllimlər qiymət-

ləndirmə üsulunu elə hazırlayırlar ki, o təlimin təşkili üçün onlara informasiyanı təmin etsin və şagirdləri biliyə stimullaşdırmasının təşkil etsin. Onlar:

1. qiymətləndirmənin dəqiq, konstruktiv, ədalətli və aydın (şəffaf) metodlarından istifadə edir;
2. həm tədris prosesini, həm də onun nəticələrini qiymətləndirir;
3. özünü və yoldaşlarını qiymətləndirmə üçün bir çox üsullardan istifadə edir;
4. daimi monitorinq və qiymətləndirilmə nəticəsində müəllim öz fəaliyyətini dəyişdirir, şagirdlərlə paylaşır;
5. qiymətləndirməni elə təşkil edir ki, şagirdlər qabaqcadan prosesin hansı meyarlar üzrə həyata keçirildiyini bilsin. Şagirdlər bu meyarların hazırlanmasında iştirak edirdilər.

İnteraktiv təlim zamanı:

- şagirdlərə öz-özünü və yoldaşlarını qiymətləndirmə imkanını verilir (özünüqiymətləndirmə);
- təxmini qiymətləndirmə meyarları şagirdlərin diqqətinə çatdırılır və onlarla müzakirə edilir; şagirdlərin fikri və rəyi qiymətləndirmə meyarını həll edərkən nəzərə alınır.

Müasir tarix müəllimi öz fəaliyyətinə diqqətlə yanaşaraq, peşəkar səviyyədə özünü təkmilləşdirmə ilə məşğul olur. İnteraktiv təlimin əsas şərtlərini nəzərə alaraq müəllim:

1. dərslərdə şagirdlər üçün tədqiqat atmosferi yaradır;
2. dərslərinə həmkarlarını dəvət edir və onların dərslərində özü də iştirak edir;
3. peşəkar potensialının reallaşdırılmasının və təlim fəaliyyətinin təkmilləşdirməsina dair öz fərdi planına malik olur;
4. həmkarları ilə öz fikir və bacarıqları ilə bölüşür və onlardan da öyrənir (67, s.173).

İnteraktiv təlim zamanı:

- müəllim təlimi bilərəkdən və müxtəlif formada qurur, şagirdləri hər cür həvəsləndirərək, üsul və metodlar seçir, mümkün fikirlərə əsaslanaraq, sonrakı fəaliyyətində onların fikirlərini nəzərə alır;
- müəllim təlim zamanı tənqidi təfəkkürün inkişafının əksər metod və prinsiplərini effektiv və ardıcıl surətdə qurur.

Tarix dərsinin interaktiv üsullarla tədrisinə dair müşahidələri ümumiləşdirərək tarixin interaktiv metodların tətbiqi haqqında aşağıdakıları deməyə əsas verir:

- şagirdlərin idrak fəaliyyətini aktivləşdirir, hər şagirdə mövzu üzrə öz mövqeyini bildirməyə imkan verir;
- sərbəst tədqiqata sövq edir;
- mətndən və sənədlərin mətnini təhlil etmək bacarığını inkişaf etdirir;
- təfəkkürün, tədqiqat bacarıqlarının inkişafına yaradıcı yanaşmağa imkan yaradır;
- tədris fəaliyyətində müstəqilliyi inkişaf etdirir, tədris bacarıqlarını formalaşdırırlar;
- verilmiş problemə cavabları tapmaq üçün, lazımi məqamlara diqqəti yönəltməyə şagirdlərə kömək edir.

İntekraktiv metodlarla keçirilən tarix dərslərində, təlim prosesə bütün şagirdlərin cəlb olunması xüsusi diqqətə layiqdir. Hər şeydən əvvəl dərsin aparılması metodikası onları cəlb edir. İnteraktiv dərs öyrənilən problem üzrə düşünməyə sövq edir, şagirdlərdə idraki marağa səbəb olur və əvvəlki təcrübəyə söykənir.

Bu vəziyyətlər şagirdlərin iradəsiz diqqətinə söykənərək, onlarda obyektə sərbəst diqqəti tədricən təkmilləşdirir, çətinliklərə baxmayaraq, fənni mənimsəməyə və gələcəkdə şagirdlərin bilikləri sərbəst əldə etməsini təmin edir. Bütün təsvir edilən və-

ziyyəti və dərslərdə işgüzar mühiti müəllim yaradır.

İnteraktiv üsullarla keçirilən dərslərin neqativ nəticələrinin əsas səbəbi «novator müəllimlərin» interaktivliyin qayda və tələbləri ilə yaxşı tanış olmamasıdır. Bir çox müəllim sinfi hazırlamadan, qrupda işləri təşkil etmədən, hətta özləri interaktiv təlimin qaydalarına riayət etmədən interaktiv dərslərə başlayırlar. Bunun səbəbi Respublikamızda interaktiv metodların tətbiqinin yeniliyi və onların kifayət qədər yayılmaması idi. Qeyd etmək lazımdır ki, interaktiv metodların yeniliyi səbəbindən bu metodların tələblərini əks etdirən ədəbiyyat bu gündə hələ qənaetbəxş sayda deyil. Bu vəziyyətlərin aradan qaldırılması üçün interaktiv metodların pedaqoji ədəbiyyatda geniş əksini tapması zəruridir.

Müşahidələri ümumiləşdirərək, qeyd etmək lazımdır ki, novator müəllimlər tərəfindən tətbiq olunan interaktiv dərslərdə bu gün, əsasən aşağıdakı neqativ hallar əksər hallarda təkrar olunur:

- dərsdə səs-küyün qarşısını almaq üçün, müəllim qrupların müzakirələrinə qarışır;
- tez-tez dərsin sonunda cavablar və təqdimatlar təhlil edilmir və nəticələr çıxarılmır;
- qrupların müzakirələrinə qarışan müəllimlər şagirdləri öz fikirlərinə yönəldir;
- dərsdə interaktiv metodları tətbiq edərək şagirdlərin qarşılıqlı dialoqu üçün imkan yaratmırlar;
- bəzi hallarda dərsin sonunda ümumiləşdirmə aparılmır;
- müəllimlər sinifi sakitləşdirmək üçün «avtoritar» üslubdan istifadə edir;
- dərsin əvvəlində problemli sual qoyulmadığı üçün dərsin sonunda alınmış biliklər ümumiləşdirilmir;
- bütün şagirdlərin fəallaşdırılması üçün zəruri hazırlıq aparılmır.

Interaktiv mtəlimin tədbiqi sahəsində toplanmış qabaqcıl təcrübəni ümumiləşdirərək onları üç qrupa bölmək olar:

1. tarixin təlimində interaktiv təlimdən yüksək səviyyədə istifadə edən;
2. öz təcrübəsində orta səviyyədə interaktiv təlim metodlarından istifadə edən;
3. dərslərində interaktiv təlim metodlarından çox az istifadə edən müəllimlər.

# VII. PROBLEMİN DƏRSLİKLƏRDƏ, PROQRAMLARDA (KURİKULUM MATERIALLARINDA) QOYULUŞU. TARİXİN TƏDRİSİNDƏ İNTERAKTİV TƏLİM METODLARINDAN İSTİFADƏNİN MÖVCUD VƏZİYYƏTİ

Müasir tarix müəllimlərinin fərdi istiqamətlərinin əsas xüsusiyyətlərindən biri təhsil prosesində şəxsiyyətin inkişaf mexanizmini tətbiq etməkdən ibarətdir. Bu zaman şagirdlər pedaqoji vəziyyətdən özləri müstəqil şəkildə çıxış yolu tapır, öz fikirlərini sərbəst şəkildə ifadə edir, problemi həll etmək üçün üzərlərinə məsuliyyət götürürərək şəxsi təcrübə əldə edirlər.

Fəaliyyət prinsiplərinin və nəzəri biliklərin mənimsənilməsi, dərsliklərdə onların əks olunması üçün yeni vasitələrin axtarışını tələb edir. Bunlardan ən əsası olan mövzu və paraqrafların ənənəvi adlarını əvəz edən drakı sualları; şagirdlərin mənimsəmə prosesinin inkişafını təmin edən praktiki tapşırıqların həyata keçirilməsi; hazır təqdim olunan tərif və qaydalarının əvəzinə şagirdlərə onları müstəqil nəticə çıxarmağa vadar edən tapşırıqların təqdim olunmasıdır. Tədris tapşırıqları şagird üçün həm məyyən drakı çətinlik yaradır, həm də eyni zamanda müəllimə və şagirdə tədqiqatçı və yaradıcı xarakterli tapşırıqların uğurla həll edilməsini təmin edən metodiki dəstək verir.

Təlimin əsas mahiyyəti onun daha asan mənimsənilməsi üçün əlverişli şərait yaradır. Ənənəvi təlim zamanı tədris materialının mənimsənilməsinin reproduktiv yolunu və onun səviyyəsini təklif edən doqmatik üsul üstünlük təşkil edir. Bu zaman şagirdlərin əsas səyləri biliklərin hazır şəkildə mənimsənilməsi, mənimsənilmiş biliklərin möhkəmləndirilməsi üzərində öz fikirlərini cəmləşdirməkdən ibarətdir. Müəyyən tapşırıqları həll etmək üçün

şagirdlər bir qayda olaraq, onun həlli üsulunu tapmaqdansa, analoji (oxşar tipli) tapşırığın həllini xatırlamağa çalışır. Əgər bu da alınmırsa, şagird əksər hallarda tapşırığı həll etmir və ya digər icra üsullarından istifadə edir (dərsdənkənar).

Təlimin məqsədləri və mahiyyətinə uyğun olaraq tədris prosesində müsir tarix müəlliminin mövqeyi, fəaliyyət xarakteri, prinsipləri, təlim formaları və metodları da dəyişir. İnteraktiv təlim zamanı müəllimin fəaliyyəti kökündən dəyişir. Müasir tarix müəllimin əsas vəzifəsi – “ “təqdim etmək”, məlumat vermək”, “göstərmək” və “izah etmək” deyil, qarşıya çıxan problemin həllinə yönəlmiş tədqiqatı təşkil etməkdir. Müəllim sinifdə səmimi şəkildə şəkildə təşkil olunmuş mini-tamaşanın rejissoru kimi çıxış edir. Təlimin yeni şərtləri novator-müəllimdən hər bir sualla bağlı cavab vermək istəyi olan şagirdi diqqətlə dinləmək bacarığı, hətta səhv olan cavabı rədd etməməyi, onun mühakiməsinin daxili qanunauyğunluğunu anlamağı, daim dəyişən dərs prosesində çıxış yolu tapmağı, uşaqların təkliflərini, cavablarını təhlil etməyi, hiss edilmədən onları problemin həllinə aparmağı tələb edir. Dialoqun və elmi mübahisənin aparılması doğru cavabın tez alınmasını tələb etmir, elə vəziyyət yarana bilər ki, uşaqlar bir dərsdə həqiqəti tam aça bilməsin.

Təlim prosesinin bu formada quruluşunun məqsədəuyğunluğunu rus pedaqoqu N.N. Podyakov öz tədqiqatlarında da qeyd edir. O yazır ki, təfəkkür prosesinin düzgün təşkil olunması aydın olmayan biliklərin, sualların ortaya çıxarılması ilə müşaiyyət olunur. “Burada başlıca amil təfəkkür prosesinin stimullaşdırması və özünü inkişaf etdirməsidir. Qeyd etmək lazımdır ki, biz ənənəvi təhsilimizdə kifayət qədər tez-tez təfəkkür inkişafının bu qanununu pozuruq, bununla uşaqların biliklərini elə formalaşdırırıq ki, məktəb yaşına çatmamış uşaqlarda heç bir qeyri-müəyyənlik yaranmasın” (76, s. 254).

Aparılmış təcrübələr göstərir ki, tarixin fəal/interaktiv təliminin (texnologiyanın) yalnız xarici tərəfi ilə (texnoloji) tanış olmuş bəzi fənn müəllimlərinin müəyyən hissəsi fəal təlimin həmin üsulunun hələ də mahiyyətinə, daxili planına vara bilmirlər. Müəllimlərin interaktiv təlimə yanaşması da hələki tam fərqlidir: kimisi təlimin oxşar formalarını əhəmiyyətli dərəcədə müxtəlifləşdirməyə imkan yaradan vasitə kimi, kimisi ənənəvi təlimdə geniş istifadə olunan təlim metodlar sisteminə zəruri əlavə kimi, digərləri isə təhsil fəaliyyətinin təşkilinə başqa cür yanaşma kimi başa düşür.

Bir çox müəllimlər tarixin interaktiv təlimin əsas vəzifəsini şagirdlərin fəal drakı fəaliyyətə olan motivasiyasının artırılmasında və beləliklə, şagirdləri təhsil prosesinin əvvəlki passiv iştirakçılarından, fəal iştirakçılarına çevirməkdə görürlər.

Qeyd etmək lazımdır ki, tarixinin tədrisi prosesində formalaşan ümumi bacarıqlarla yanaşı həmçinin bu xüsusi bacarıqlar da nəzərə alınır: öyrənilən mövzuda müxtəlif mövqelərin mənasını aça bilmək bacarığı, öz gəldikləri nəticələri arqumentli şərh etmək üçün əvvəllər qazanılmış biliklərin səfərbər olunması, sənədlərdən lazım olan məlumatların seçilməsi və s.

İnteraktiv təlim prosesində formalaşan elementlər, şagirdlərin ünsiyyətini daha ön plana çəkir. Ünsiyyət şagirdlərin şəxsiyyət kimi inkişafında birgə dərs fəaliyyətini təşkil edir və dəstəkləyir. Məktəb müəllimləri fənni faəl/ interaktiv metodlarla tədris etməklə kifayət qədər fərqli bir mənzərə yaratmış olurlar.

İnteraktiv təlim metodunun dialoq üsulu qarşılıqlı əlaqənin daha səmərəli prosesinin başlanmasına imkan yaradır. Qarşılıqlı əlaqə problemin həlli üzrə birgə müzakirəsi ilə eyni vaxtdahəyata keçirildiyi zaman səmərəli olur. Məhz elə bu səbəbdən, fənn müəllimləri pedaqoji prosesdə inkişafetdirici təlim metodlarından

istifadə edirlər. İnkişafetdirici təlim idrakın məzmun tərəfində (anlayışlar, təsəvvürlər, mühakimələr) olduğu kimi, bilavasitə tədris prosesində ortaya çıxa bilən emosional-iradəli, zehni, psixiki, praktiki fəaliyyətlərdə yeni fikirlərin ortaya çıxmasını nəzərdə tutur.

Nəzəri biliklərin və fəaliyyət prinsiplərinin mənimsənilməsi dərsliklərdə əks olunmuş yeni vasitələrin araşdırılmasını tələb edir. Bunlar – mətn və paraqrafların ənənəvi adlarını əvəz edən drakı suallar; drakı tələbatın inkişafını təmin edən praktiki tapşırıqların icra olunması; şagirdləri müstəqil nəticə çıxarmağa sövq edən hazır tərif və qaydalarının tapşırıqlarla əvəz olunmasıdır. Dərs tapşırığı uşaq üçün müəyyən idrakı çətinlik yaratmalı və eyni zamanda həm müəllimə, həm də uşağa axtarış və yaradıcı xarakterli tapşırıqların uğurla həyata keçirlməsini təmin edən yaxşı metodiki yardım göstərməlidir.

Ənənəvi təlimdə şagirdlərin əsas fəaliyyəti hazır biliklərin mənimsənilməsi, mənimsənilmiş biliklərin möhkəmləndirilməsi üzərində öz fikirlərini cəmləşdirməkdən ibarətdir. Hər hansı bir tapşırığı həll etməli olan məktəbli bir qayda olaraq, həllin üsulunu tapmağa səy göstərmir, oxşar tipli tapşırığın həllini xatırlamağa çalışır. Əgər xatırlamaq alınmırsa, şagird əksər hallarda tapşırığı həll etmir və ya digər icra üsullarından istifadə edir (52, s. 101).

İnteraktiv təlimin didaktik əhəmiyyətini nəzərə alaraq Azərbaycan tarixi və Ümumi tarix kurslarında interaktiv təlimin tələblərinin tarix dərsliklərində və pedaqoji proseslərdə tətbiqi imkanlarınadiqqət yetirək. Hazırda istifadə olunan tarix dərslikləri yeni təlim metodların tədrisi üçün az uyğunlaşdırılmışdır:

- tarix dərsliklərində bu və ya digər problemlə bağlı müxtəlif fikirlər kifayət qədər verilmir;
- tarix dərsliklərində hadisələr əsasən yalnız müəllifin subyektiv mövqeyi ilə şərh verilir;

- dərsliyin mətnləri:
  a. təsviri,
  b. hekayəli,
  c. izah xarakteri daşıyır;
- dərslikdə verilən sənədlər əsasən əyani xarakter daşıyır və özündə əlavə məlumat əks etdirmir;
- dəsliklərdə informasiya xarakterli sənədlər, sxemlər, şəkillər, cədvəllər azdır;
- dərsliklərdə verilən tapşırıq və suallar əsasən reproduksiya tələb edir;
- dərslikdə alternativlik nəzərdə tutulmur – yalnız bir tarixi həqiqət mövcuddur;
- yalnız birsəbəbli və bir perspektiv əsaslandırmadan istifadə edilir;
- dərslikdə indekslər (göstəricilər) yoxdur, şəkillər yalnız mətni bəzəyən mənzərələrdir.

Bu gün əksər müəllimlər tarixi interaktiv metodlarla tətbiq edirlər. Təəssflə qeyd etmək lazımdır ki, dərslərdə hər zaman arzuaolunan nəticə alınmır. Bu əsasən ona görə baş verir ki, tarix dərsinin interaktiv metodlarla tədrisi üçün sinifin təchizatı uyğunluq təşkil etmir (xüsusən interaktiv mühazirə texniki vasitələrlə təchiz olunmalıdır).

İkincisi, metodoloji prinsiplərə uyğun olan və tarixin interaktiv təlimi üçün əhəmiyyətli olan vahid metodiki sistemlərin, tarixi sənədlərə əsaslanan material çox azdır.

Bir çox hallarda tarix müəllimləri fəal/interaktiv təlimin məqsədini kifayət qədər dərindən qavramayaraq onu dərslərdə tətbiq edirlər. İstifadə etdikləri interaktiv metodun qaydaları ilə tanış olmadan dərslərdə onun müxtəlif modellərindən istifadə etməyə cəhd göstərirlər. Lakin, interaktiv metodun bir neçə

üsullarından istifadə edərək zəif dərs keçməkdənsə, bir üsuldan səmərəli istifadə etməklə daha yüksək nəticə əldə etmək olar. Bir sözlə, tarixin interaktiv təlimi üçün zəruri metodoloji aparat hələ tam formalaşmamışdır. Aparılmış tədqiqatlar olduqca ziddiyyətli mənzərənin olduğunu aşkara çıxarmışdır:

Bir tərəfdən, məktəb pedaqoqları və şagirdlərinin böyük əksəriyyəti informasiya texnologiyaları əsri üçün yalnız bilik əldə etməyin yox, həmçinin mövcud məlumatların mübadiləsinin əhəmiyyətini anlayırlar. Başqa sözlə, tarixin interaktiv metodlarla tədrisi məlumat mübadiləsi və şagirdlər arasında kommunikasiya vasitəsi kimi həm müəllimlər, həm də şagirdlər üçün çox böyük əhəmiyyətə malikdir. Digər tərəfdən, bəzilərinin interaktiv təlimin mahiyyətini düzgün anlamaması yeni bilik əldə etmək və ya onları mübadilə etmək məqsədi daşıyan təlim-tərbiyə prosesinin bütün subyektlərinin qarşılıqlı əlaqələri, məhsuldar ünsiyyət qurmağa şərait yaratmır. Belə olduqda interaktiv metodların tətbiqi zamanı məzmun baxımından təhsilverici effekt minimuma enir və təlim prosesinin intensiv maarifləndirmə funksiyasından söhbət gedə bilməz. Təsadüfü deyil ki, bəzi müəllimlər zəruri uzlaşma axtarmaq, buna nail olmaq və dialoq aparmaq bacarığı digərinin fikrinə tolerant münasibət göstərmək, məzunların əməkdaşlığa hazırlığı kimi vacib məsələləri təhsilin yeni keyfiyyətinə aid etmirlər.

Apardığımız müşahidələrin nəticələrini təhlil edərək belə nəticəyə gəlmək olar ki, tarixinin interaktiv metodlarla tədrisi aşağıdakı müsbət keyfiyyətlərə malikdir:

- tədris prosesində şagirdlər cütlərlə, qruplarda və ya bütün siniflə fəaliyyət göstərirlər;
- müəllim öz funksiyalarının bir qismini (dərsin planlaşdırılması, biliklərin yoxlanılması, qiymətləndirmə, özünüqiymətləndirmə və s.) şagirdlərə təqdim edir;

- təlimin interaktiv metodları geniş metodoloji işlərin aparılmasına imkan yaradır;
- şagirdlər müstəqil şəkildə bilik əldə edirlər;
- şagirdlər əldə etdikləri bilikləri təcrübədə istifadə etmək imkanı əldə edirlər;
- şagirdlər yüksək fəallıq nümayiş etdirirlər və s.

İndiki şərtlərlə tarixin interaktiv metodlarla tədrisi onun bəzi xüsusiyyətlərini kölgədə qoyur. Xüsusilə, indiki dövrdə, digər fənlərin tədrisində olduğu kimi, tarixin də interaktiv metodlarla tədrisinin əsas mahiyyətinin üzə çıxarılmasını, fənnlərarası inteqrasiyanın qurulmasını və pedaqoji əməkdaşlığın bütöv mənzərəsinin təsvir edilməsini təmin edən, fənn kurikulumlarının, dərsliklərin, yenidən müasir tələblərə uyğun işlənib hazırlanmasına ehtiyac duyulur.

Bu gün Respublikamızın ümumtəhsil məktəblərində tarix dərsi interaktiv metodların tələblərinə uyğun keçirilərsə, tələbləri özündə əks etdirən müvafiq fənn kurikulumları, interaktiv dərsliklər hazırlanarsa – təhsil keyfiyyətinin yüksəldilməsinə nail oluna bilər. Yeni nəsil dərsliklər şagirdlərdə tarixə olan marağı artırmalı, öyrəndikləri mövzu üzrə hiss və emosiyalar oyatmalı və tarixi hadisələrə şəxsi münasibətini formalaşdırmalıdır. Bu tip dərsliklərdə əlavə mövzu artıq qoşma yox, müstəqil mənbə kimi verilməlidir. Tarix təliminə yeni sənədlər daxil edilməli və onların sayı və növ baxımından müxtəlifliyi genişləndirilməlidir. Beləliklə, yeni nəsil tarix dərslikləri bizim ənənəvi təsəvvür çərçivəmizdən çıxmalı və özündə dərsliyin, mütaliə kitabının, müntəxəbatın, tarix üzrə iş dəftərlərinin xüsusiyyətlərini cəmləşdirərək geniş imkanlara malik, çoxfunksiyalı vasitəyə çevrilməlidir. Qeyd etmək lazımdır ki, sual və tapşırıqlar praktiki olaraq yeni tarix dərsliklərinin bütün tərkib hissələrinə nüfuz etməlidir: əsas mövzuya, şəkillərə, xə-

ritələrə , sənədlərə və s. Yeni nəsil dərsliklər yalnız bəzi dəyişiklikləri əks etdirməklə özünü məhdudlaşdıra bilməyəcək: bu dərsliklər, artıq şagirdlərdə müxtəlif, biri-birinə əks olan mühakimələri, fikirləri seçə bilmək və  özü tərəfindən arqumentlərlə əsaslandırılmış fikirləri formalaşdırmaq bacarığını inkişaf etdirməlidir.

Təqdim olunan bu paraqrafda interaktiv təlimin kurikulum materiallarında qoyuluşu öyrənilmiş, interaktivliyin dərsliklərdə və dərslərdə tətbiqi problemlərinə aydınlıq gətirilmişdir.

## VIII. TARİXİN İNTERAKTİV METODLARLA TƏDRİSİNİN ZƏRURİLİYİ VƏ XÜSUSIYYƏTLƏRİ

Məlumdur ki, Birləşmiş Millətlər Təşkilatı XXI əsri "Təhsil əsri" elan etmişdir. Bu əsrdə hər bir dövlətin qüdrəti onun təhsilinin səviyyəsi ilə ölçülməkdədir. Təhsil bəşər cəmiyyətini, habelə hər bir xalqın səviyyəsini səciyyələndirən əsas amilə çevrilir. Belə bir cəmiyyətin bərabərhüquqlu üzvü olmaq hər bir xalqdan təhsilli olmağı tələb edir. Dünya Birliyi XXI əsri "Təhsil əsri", "İdrak əsri" etmək üçün strateji kurs qəbul etmişdir.

Azərbaycan keyfiyyətli islahatlar dövrünü yaşayır. Digər sahələrdə olduğu kimi, təhsil sahəsində aparılan islahatlar da xalqın gələcək müqəddəratında əvəzsiz rol oynayacaqdır. Bu gün ümumtəhsil məktəbləri qarşısında duran başlıca məqsəd gələcək nəsilə yüksək bilik verib, onları müstəqil yaradıcı şəxsiyyət kimi yetişdirməkdən ibarətdir. Bu vacib öhdəliyin həyata keçməsi üçün məktəbi demokratik və humanist təməllər üzrə, yenidən təşkil edilməsilə böyük ehtiyac duyulur.

Əgər bu gün təlim prosesinin gedişində dərsdə bütün şagirdlərin aktiv iştirakı, onların müstəqil düşünməsi, müstəqil mülahizələrinin irəli sürməsi, müstəqili tədqiqat aparması və nəticə çıxarması təmin edilsə, onlar belə bacarıqlara artıq parta arxasında yiyələnəcək və şəxsiyyət kimi yetişə biləcəklər. Bu məktəbin yenidən qurulmasının əsas istiqamətlərindən biridir. Bu əhəmiyyətli öhdəliyin uğurlu həyata keçməsi demokratik və humanist əsaslarla məktəbin yenidən qurulmasıyla, tədris-tərbiyəvi işlərin və müəllimin metodik bacarığının artırılmasıyla bağlıdır. Çalışqan münasibət və şagirdlərin təhsilə məsuliyyəti ilk növbədə müəllimdən və onun metodları seçmək və səmərə-

li tətbiq etmək bacarığından asılıdır. Yeni problem və məqsədləri, təlimin məzmunu köhnə metodalarla yerinə yetirmək qeyri-mümkündür.

Sevindirici haldır ki, hər gün ənənəvi metodlardan imtina edən və yeni metodları tətbiqini məsləhət görən pedaqoq, psixoloq və müəllimlərin sayı artır. Amma təəssüf ki, onların sayı hələ də çox azdır. Bu gün nisbi əksəriyyəti ənənəviliyin tərəfdarları təşkil edirlər. Köhnəliyin və yeniliyin arasında mübahisə davam edir. Mübahisənin yeniliyin xeyrinə ən tez zamanda həlli üçün aşağıdakılar zəruridir:

- öyrənib, ümumiləşdirib və novator müəllimlərin təcrübəsini yaymaq;
- bütün pedaqoji ictimaiyyət dövrün tələblərini dərk edərək, bu məsələyə qaçılmaz problemlər nöqteyi-nəzərindən yanaşmalıdır.

Müasir dövrün təqdim etdiyi tələbləri anlamaq üçün, insan cəmiyyətinin əsas müddəalarına diqqəti yönəltmək lazımdır:

- iqtisadiyyatda üçüncü sahəni üstələyən – elm, təhsil və xidmətlərin rolu (birinci sahə - kənd təsərrüfatı və sənaye, ikinci sahə – emal sahəsi);
- cəmiyyətin sosial, siyasi və mənəvi həyatında, eləcədə iqtisadiyyatın bütün sahələrində və informasiya sahələrində informasiya texnologiyalarının tətbiqiylə bağlı texnologiya yeniliklərinin fasiləsizliyi;
- əhalinin peşəkar məşğulluq strukturunun dəyişilməsiylə, cəmiyyətdə informasiyanın istehsalı, onun saxlanması və yayılması, ötürülməsi ilə bağlı əhali qruplarının nisbi üstünlüyü;
- şəxsiyyətin bilik və təhsilinin səviyyəsi onun sosial statusunun və sosial strukturunun təyinin olunmasında əsas rolu oynamalıdır;

- cəmiyyətin kütləvi informasiya vasitələrlərindən, video-məhsul, reklam və s. gündəlik asılılığının tədricən artıması.

Açıq-aydın görünür ki, müasir insan cəmiyyətini səciyyələndirən bütün faktorlar tədrislə bağlıdır. Bu cəmiyyətin tamhüquqlu üzvü olmaq üçün biz təhsilli olmalıyıq. Lakin təlim problemlərinin həllində - dərsdə biliyin alınmasında yüz il geri qalırıq.

Bu gün bütün dünyada ən böyük diqqət insanın - şəxsiyyət kimi formalaşmasına, mənəviliyinə, mədəniyyətinə, əxlaqına, həmçinin yüksək inkişaf etdirilmiş intellektinə və intellektual potensialına yönəldilir.

Məktəblərdə təlimin bütün mərhələlərində şagirdlərin təlim, tərbiyə və inkişafını vahid prosesdə birləşdirən yeni forma və metodların daim axtarışı getməlidir.

Təlim-tərbiyə prosesdə yuxarıda göstərilmiş məşğuliyyətlərin ümumi əhəmiyyəti ilk növbədə onunla şərtlənir ki, təlim fəaliyyəti onun ənənəvi anlamında məktəb proqramının baza tələblərinin şagirdlər tərəfindən bütovlüklə kollektiv mənimsənilməsinə yönəldilmiş öz-özlüyündə tədris fəaliyyətinin lazımi dərəcədə yaradıcılıq fəaliyyətiylə bağlanmamışdır və buna görə də uşaqların intellektual inkişafının ləngiməsinə gətirib çıxarır. Tək həlli, bir qayda olaraq alqoritm əsasında onun nailiyyətinin qabaqcadan müəyyən edilmiş yolu olan, baza bacarıqlarının möhkəmləndirilməsinə yönəldilmiş standart tapşırıqların icrasına alışaraq şagirdlər müstəqil hərəkət etmə imkanlarından, şəxsi intellektual potensialını inkişaf etdirmək və effektiv istifadə etməkdən məhrumdurlar. Digər tərəfdən, yalnız tipik məsələlərin həlli uşağın şəxsiyyətini zəiflədir (məzmunsuzlaşdırır, tükədir), çünki şagirdlərin bu halda yüksək özünə qiyməti və onların qabiliyyətlərinin qiymətləndirilməsi müəllimlərdən asılıdır və kəşf, zirəklik, yaradıcı axtarış bacarığı, məntiqi analiz və sintez qabiliyyətləri kimi

bir sıra fərdi intellektual keyfiyyətlərin təzahürləri nəzərə alınmır. Beləliklə, inkişaf etdirici tapşırıqların istifadəsinin əsas səbəblərindən biri şagirdlərin yaradıcı-axtarış fəallığının artırılması olur.

Tədris prosesinə spesifik inkişaf etdirici tapşırıqları fəal tətbiq etməyə vadar edən daha bir əhəmiyyətli səbəb - onlarla fərdi işin məqsədyönlü planlaşdırması üçün əsas olan uşaqların intellektual və şəxsi inkişafının effektiv diaqnostikasının keçirməsi imkanıdır.

Məktəblilərin təhsilində şəxsi inkişaf - hər şeydən əvvəl şagirdləri bir-biridən fərqləndirən fərdi xüsusiyyətlərin hesabı deyil, həmçinin şagirdə şəxsiyyət və şüurlu fəaliyyət subyekti kimi münasibətidir.

Pedaqoq alimlər iddia edirlər ki, şagirdin yaradıcılıq güclərinin inkişafı tarixin tədrisi əsasında olmalıdır. Tarix dərsi yalnız o zaman marağa səbəb olur ki, o adət edilmiş formal tədris üsallarından deyil, birmənalı olmayan problemlərin müzakirəsi nəticəsində şagirdləri tarixi hadisələrin fəal iştirakçılarına çevrilməsi ilə həyata keçirilir. Tarixin tədrisində interaktiv metodlardan istifadə olunurkən şagirdlər bir növ tarixi hadisələrin fəal iştirakçılarına çevrilir, tarixi hadisələri emosional olaraq dərk edir (44, s.35).

İnteraktiv metodlarla keçirilən tarix dərslərində aşağıdakılar baş verir:

- maarifləndirici məsələlərin dəqiq, dürüst ifadə etdirilməsi və onların inkişaf etdirici və tərbiyəvi məsələlərlə əlaqəsi. Dərslərin ümumi sistemdə yeri təyin edilir;
- şagirdlərin hazırlıq səviyyəsinin hesabına tədris proqramı tələbi və dərsin məqsədlərinə uyğun olaraq dərsin optimal məzmununun müəyyən olunması;
- həm dərsdə, həm də onun müxtəlif mərhələlərində şagirdlər tərəfindən elmi biliklərin mənimsəmə, bacarıq və vərdişlərin formalaşması səviyyəsinin proqnozlaşdırılması;

- təlimin ən səmərəli metodların, üsul və vasitələrinin, stimullaşdırma (həvəsləndirmə) və nəzarət vasitələrinin seçilməsi, dərsin hər mərhələsində onların optimal təsiri, idrak fəallığını təmin edən, dərsdə kollektiv və fərdi işin müxtəlif formalarının uyğunlaşdırılması və şagirdlərin təlimində maksimal müstəqilliyini təmin edən formalarla uyğunlaşdırılmasının seçimi;
- dərsdə bütün didaktik prinsiplərin reallaşması;
- şagirdlərin müvəffəqiyyətli təliminin şəraitlərin yaradılması.

Təlimin qeyri-ənənəvi metodlarının məktəb proqramına daxil edilməsi pedaqoji (maarifləndirici) prosesi genişləndirmək, təlim və tərbiyə problemlərindən ayrılmayaraq uşağın şəxsi keyfiyyətlərini inkişaf etdirmək məqsədi daşıyır.

İnkişafetdirici təlim nədir? Onun əsas xüsusiyyəti nədən ibarətdir? O ənənəvidən nə ilə fərqlənir?

Ənənəvi olaraq tədris prosesi təlim, tərbiyə və inkişafetdirici problemlərin həll olunduğu, şagird və müəllimin qarşılıqlı təsiri kimi baxılır. Onun mahiyyətini açıqlayan əsas struktur komponentlərinə tədrisin məqsəd və məzmununu, şagirdlərin idrak imkanlarını, tədris fəaliyyətini, onun xarakterini, prinsiplərini, metod və formalarını aid edirlər. Bu ümumi xüsusiyyətlərdən inkişafetdirici təlimin xüsusiyyətlərinin üzə çıxarılması mümkündür.

Demək olmaz ki, inkişafetdirici təlim ideyası yenidir və əvvəl uşağın inkişafı məsələsi tədris prosesində diqqət mərkəzində olmurdu və həlli yolları axtaılmırdı. Şəxsiyyətin inkişafı problemlərini tətqiq edən bir çox alimlərin adlarını sadalamaq olar (Ə.Ağayev, Ə.Əlizadə, M.Əmirov, İ.Cəbrayılov, M.İlyasov, L.Vıqotskiy, N.Mençinskaya, İ.Yakimanskaya və başqaları). Cəmiyyətin inkişafının bu və ya digər dövründə bu ideya ön plana çəkilir və ya müvəqqəti «unudulur», amma heç vaxt onun öyrən-

məsi (tədqiqi) və məktəbdə praktik reallaşdırması dayandırılmır.

İndi Azərbaycan islahatlar dövrünü yaşayır. Digər sahələrdə olduğu kimi, təhsil sahəsində keçirilən islahatlar xalqımızın gələcək taleyində əvəzolunmaz rol oynayır.

Müəllimlərin bu gün qarşılaşdığı çətinliklərdən biri pedaqoji ədəbiyyatda təlim metodlarının təsnifatında müəyyən dəqiqliyin olmamasıdır. Müəllimlər arasında təlim metodlarının seçimində və tətbiqində mövqelərin çoxluğu və bəzən hətta onların ziddiyyətləri müşahidə edilir. Pedaqoji ədəbiyyatda 400-dən artıq fəal təlim metodları və onların seçiminin 20-dən çox faktoru göstərilir. Təlim metodlarının nəzəriyyəsində dağınıqlığın mövcudluğu, optimal elmi sistemin tərifinin olmaması müəllimlərin praktik fəaliyyətinə təsir etməyə bilməz (70, s 70-71).

Müasir təlim nəyi bildirir? Müasir təlim inkişafetdirici təlimdir. Tədrisin müasir metodlarının üstünlükləri onların tətbiqini zəruri edir. İnteraktiv metodlar şagirdlərin idrakını inkişaf etdirir, onları düşünməyə, axtarışlara sövq edir, dərslərdə onları aktiv edir və şəxsiyyət kimi formalaşdırır.

Tarixinin interaktiv metodlarla tədrisi prosesində şagirdlərdə hisslər, mənimsəmələr, qabiliyyətlər, xarakter, təşəbbüslər və maraqlar kimi psixi keyfiyyətlər inkişaf edir. Millətçiliyin üslubunda vətənpərvərliyin tərbiyəsinin imkanları inkişaf edir. Tarixin tədrisində interaktiv təlim metodlarından səmərəli istifadə prosesində şagirdlərdə milli mənəvi dəyərlərin inkişafı üçün motiv yaranır.

Tədrisin interaktiv metodları üçün aşağıdakılar səciyyəvidir:

- şagirdlərin aktiv fəaliyyəti;
- şagirdlərin müəllimlə, eləcədə şagirdlərin biri-biriylə əməkdaşlığı;
- didaktik rollu oyunlarının tətbiqi;

- sinifdə şagirdlərin işgüzar fəaliyyəti üçün bərabərliyin, öyrədici mühitin və psixoloji şəraitin yaradılması;
- müəllim «bilik xəzinəsi» rolunu oynamır, o şagirdləri biliyin axtarışına cəlb edir və aparıcı rolu oynayır.

İnteraktiv təlim şagirdlərdə aşağıdakı keyfiyyətləri yaradır və inkişaf etdirir:

1. müstəqil düşünərək, öz fikirlərini bildirmək;
2. özünüqiymətləndirə bilmək;
3. öz bilik və təcrübəsini təhlil etməyi bacarmaq;
4. əməkdaşlıq etməyi (başqaları ilə işləmək və vahid məqsədə çatmaq üçün vəzifələrin bölgüsü) bacarmaq;
5. başqalarını dinləməyi və digərlərin fikrinə hörmət etməyi bacarmaq;
6. öz fikirlərini dəlillər əsasında izah edib, əsaslandırmağı;
7. məntiqi təfəkkürü inkişaf etdirməyi;
8. məsələnin birgə həlli yollarını müəyyənləşdirib, nəticə çıxarmağı.

Müasir dərs ənənəvi dərsin rasional «toxumlarını» inkar etmir. Ənənəvi dərslə müqayisədə müasir dərs forma, metod və üsullarla zəngindir, lakin təşkilati və keçirilməsi baxımından çətindir, mürəkkəbdir. İnteraktiv metodlarla keçirilən dərslərdə metodik, pedaqoji və psixoloji baxımdan qarşıya qoyulan məqsədlərə çatmaq olur ki, onları aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

- müəyyən mövzu üzrə şagirdlərin bilik, bacarıq və vərdişləri inkişaf etdirilir və formalaşdırılır;
- dərsdə şagirdlərin təşəbbüskarlıq fəaliyyəti üçün bərabərlik və psixoloji şərait yaradılır;
- şagirdlərdə işgüzar atmosfer, təlimə ciddi münasibət yaradılır;

- dərsdə müəllimin minimal, şagirdlərin isə maksimal iştirakı təmin olunur. Müəllim artiq "bilik xəzinəsi" rolunu oynamır, o, aparıcı, bələdçi kimi şagirdləri bilik axtarışına sövq edir.

Dərslərin interaktiv formaları metodiki baxımdan olduqca effektivdir və onlar şagirdlərin inkişafına və tərbiyəsinə kömək edir.

Tarixin interaktiv tədrisi dialoq prosesinə yüklənmiş təlim prosesidir. Tədris prosesinin effektiv olması üçün orada dialoqun bütün üç komponenti olmalıdır:

- ünsiyyətli (verbal və qeyri-verbal informasiyanın ötürülməsi və saxlanılması, dialoq komponenti verbal informasiyadan, yəni şifahi və yazılı informasiya vasitəsilə istifadəni nəzərdə tutur);
- interaktiv (müştərək fəaliyyətdə qarşılıqlı işin təşkili);
- persepsiyalı (insanın insanla qəbul edilməsi və başa düşülməsi).

Real təcrübədə təlimin vəziyyəti bir qədər formasını dəyişir: şagird informasiyanın qəbuluna, saxlanılmasına və çatdırılmasına yönəldilib. Tarixin ənənəvi tədrisinin texnologiyası müştərək fəaliyyət (qarşılıqlı təsir) bacarıqlarını praktiki olaraq formalaşdırmır.

Bu zaman biz vəziyyəti dəyişə bilərikmi – sualı meydana çıxır. Bəli! Bu gün tarixin interaktiv tədrisi fəal təlim-təcrübə vəziyyətlərindən maksimal istifadə olunaraq, şagirdlər üçün «dialoq meydanı»nın yaradılmasıyla, intekraktiv təlim texnologiyalarından istifadə olunaraq yerinə yetirilə bilər. Bu yol müəllimlərin müxtəlif ixtisaslarda və istiqamətlərdə (konsultant-fasilitator və təşkilatçı) gündəlik işini təklif edir.

Beləliklə demək olar ki, tarixin interaktiv təlimi zamanı mənimsəmənin effektivliyi, idrak inkişafının böyük imkanları, təlimdə iki əsas qanunauyğunluq prosesinin istifadəsi hesabına əldə

edilir. Birinci qanunauyğunluq səmərəli mənimsəmə prosesinin şagirdlərin optimal intellektual fəallığı dərəcəsindən asılıdır. İdrak prosesi bu və ya digər bilavasitə fəaliyyət göstərən stimullarından ola bilməz.

İkinci qanunauyğunluq onunla səciyyələnir ki, tədris materialının interaktiv mənimsəməsi zamanı ümumi qanunauyğunluqların və üsulların mənimsəməsinin imkanı ilə təmin olunurlar, bu da yeni praktik və nəzəri məsələlərin həlli üçün mənimsənilmiş biliklərin istifadə edilməsi imkanını yaradır.

Tarixin interaktiv tədrisinin xüsusiyyətini aşağıdakı kimi xülasə etmək olar:

- tarixin interaktiv tədrisi tək «güclü» deyil, həmçinin «zəif» şagirdləri biliklərin effektiv mənimsəməsini təmin edir;
- tarixin interaktiv təlimində mənimsəmə prosesinin effektivliyi optimal dərəcə şagirdlərin intelektual fəallığından asılıdır;
- problem-situasiyalı təlim materialın interaktiv mənimsənilməsi şəraitində ümumi qanunauyğunluğun mənimsənilməsinin imkanı təmin olunur, bu da yeni biliklərin əldə olunması üçün mənimsənilmiş biliklərdən istifadə etmək imkanı yaradır;
- tarix üzrə artıq mənimsənilmiş biliklər əsasında, köhnə biliklər nəinki unudulmur, həm də yeni biliklərin möhkəmləndirilməsi üçün «baza» rolunu oynayır.

Yuxarıda sadalanan üstünlüklərə baxmayaraq, bu gün Azərbaycan məktəblərində tarixin interaktiv metodlarla tədrisinin təlimin əsas metoda çevrilməsi bəzi çətinliklərlə bağlıdır:

1. Bu gün interaktiv təlimə keçid kütləvi xarakter daşıyır. Bu kampaniyaya qabaqcıl müəllimlərlə yanaşı elmi-metodik cəhətdən tam hazırlıqlı olmayan müəllimlər qoşulur. Onlar interaktiv təlim metodlarının uyğunluğuna fikir vermədən onları tətbiq edirlər: oyunun dərsin mövzusunun təlim, tərbiyə

və inkişafetdirici məqsədlərin uyğunluğuna diqqət yetirmirlər. Yaxud dərsləri elə təşkil edirlər ki, işin ağırlıq mərkəzi şagirdlərin ev tapşırığına düşür. Narahatçılıq ondadır ki, təhsil orqanlarının əməkdaşları yalnız belə dərslərin formal təşkilinə diqqət yetirərək onları təqdir edirlər. Təcrübə göstərir ki, belə müəllimlərin qüruruna toxunmadan, səhvləri və onları törədən səbəbləri aydınlaşdırmaq əvəzinə, bəzən onların dərsləri qabaqcıl təcrübə kimi əksinə məsləhət görülür. Görünür ki, belə dərslər interaktiv təlimə mənfi münasibətin formalaşmasına səbəb olur, digər tərəfdən şagirdlərin proqram materialının mənimsənməməsinə gətirib çıxarır. Mövzunun öyrənilməsi zamanı işin ağırlıq mərkəzi şagirdlərin ev tapşırığına düşür, buna görə o idrak maraqlarını təmin etmir, amma nəticədə şagirdlərdə interaktiv təlimə mənfi münasibət formalaşdırılır.

2. İnteraktiv təlimin kütləvi məktəb təcrübəsində hakim metoda çevrilməsi üçün müəllimlərin, metodistlərin, pedaqoqların, psixoloqların və təhsil orqanlarının fəaliyyəti arasında əməkdaşlığın təmin olunması lazımdır.

3. Avropa ölkələrində və hətta Azərbaycanda elə müəllimlər var ki, interaktiv təlimin elmi-nəzəri, psixoloji-pedaqoji, metodiki problemlərinin dərindən öyrənilməsi ehtiyacını inkar edir. Onlar interaktiv təlimin ənənəvi didaktik sistemi arasında uyğunsuzluğu (fərqi) rəhbər tutaraq pedaqoji anlayışlardan tamamilə imtina etməyi təklif edirlər. Bu isə interaktiv təlimin yalnız empirik səviyyədə qəbulunu və nəticədə onun üstünlüklərindən imtina edilməsi deməkdir.

4. İnteraktiv təlimin elmi-nəzəri cəhətdən problemləri respublikamızda hələ kifayət qədər öyrənilməmişdir. Xüsusilə də fənlər üzrə interaktiv təlimin mahiyyəti və tədrisi texnologiyası kifayət qədər işlənilməmişdir.

5. İnteraktiv təlimin məktəblərimizdə geniş tətbiqi yolunda digər maneə dərsliklərlə bağlıdır. İnteraktiv təlim dərsliyə və dərs vəsaitlərinə yeni baxış və yanaşmayla səciyyələnə bilər. Əgər interaktiv təlim əməkdaşlığa, qarşılıqlı təsirə, ünsiyyətə əsaslanırsa, onda bu dərsliklər mübahisəyə, müzakirəyə, sərbəst axtarışlara və sərbəst qiymətləndirməyə imkan yaratmalıdır. Ənənəvi dərsliklərdən fərqli olaraq interaktiv dərsliklər və dərs vəsaitləri problemin həllinin çox variantlı olması haqqında nəticələrin çıxarılmasına və tarixi inkişafın alternativ yolları haqqında fikir müxtəlifliyinin mövcudluğuna imkan yaratmalıdır.

6. Dərsliklərdə verilən sənədlər və əyani materiallar, bilik mənbəyi rolunu oynamalıdır. Məlumdur ki, bugünkü tarix dərslikləri bu keyfiyyətlərdən məhrumdur. Bu dərsliklərdə verilən sənədlər əyani xarakter daşıyır. Buna görə onlar şagirdlər üçün öz üzərində iş və biliklərin sərbəst alması üçün lazımlı material rolunu oynaya bilmirlər. Şagirdlərin tarix üzrə oxumaq üçün kitab, didaktik material, müntəxəbatlar yoxdur.

# IX. TARİXİN TƏDRİSİNİN TƏRBİYƏVİ POTENSİALININ REALLAŞDIRILMASINDA İNTERAKTİVLİYİN ROLU

Orta ümumtəhsil məktəblərində vətənpərvərlik tərbiyəsinin əhəmiyyəti danılmazdır. Etiraf etmək lazımdır ki, Azərbaycan vətənpərvərlik tərbiyəsi baxımından inkişaf etmiş ölkələrdən geridə qalmır. Məsələn, bazar ertəsi bəzi məktəblərdə şagirdlər birinci dərsdə Azərbaycan Respublikasının Himnini oxuyuraq başalayır və bu, belə də olmalıdır. Bu maraqlı təşəbbüsü ölkənin bütün məktəblərində həyata keçirmək lazımdır.

Qeyd etmək lazımdır ki, tarix fənni tərbiyəvi potensiala malikdir, elə bu baxımdan şagirdlər fənni mənimsədikcə, fənnin tərbiyəvi məqsədi də reallaşır. Bildiyimiz kimi, tarixin tədrisinin 3 əsas məqsədini  qeyd etmək olar:

- təlim məqsədi;
- tərbiyəedici məqsəd;
- inkişafetdirici məqsəd.

Bu məqsədlər ayrı-ayrılıqda deyil, birlikdə həyata keçirilir. Məsələn, müəllim Şirvanşahlar sarayı abidəsini nəzərdən keçirərək, şagirdlərin diqqətini bununla bağlı müxtəlif aspektlərə yönəldir: bu abidəyə incəsənət əsəri kimi, yüzlərlə fəhlənin ağır əməyinin nəticəsi kimi, Şirvanşahlar dövlətinin əzəmətinin sübutu kimi, həmin vaxtda memarlığın inkişafının yüksək göstəricisi kimi və s. qeyd etməklə, vurğulamaqla təqdim edir. Həmin materialda mənəvi və estetik hisslərin tərbiyəsi, inşaat işçilərinin əməyinə hörmət, öz əcdadları ilə fəxr etmə və s. kimi hisslər aşılanır.

Həmçinin qeyd etmək lazımdır ki, tədrisin məqsədlərinin kompleks xarakteri təhsilin, tərbiyənin və inkişafın dialektik vəh-

dətindən irəli gəlir. Lakin müəllimlərimiz tədrisin məqsədlərinin kompleks xarakterini müxtəlif cür başa düşürlər.

1. Müəllimlərimizin bir qrupu hesab edir ki, hər dərsdə bilik, tərbiyə vermək və inkişafa nail olmaq zəruridir. Lakin onlar bunu təlimin müxtəlif materialları əsasında həyata keçirirlər. Həmin müəllimlər təlim, tərbiyə və inkişafetdirici məqsədlərin təlimin müxtəlif materialları əsasında həyata keçirilməsini təklif edirlər.

Təəssüf ki, tarix müəllimlərinin tədrisin məqsədlərinin kompleks xarakterinə bu cür yanaşması hallarına tez-tez rast gəlirik.

2. Digər müəllimlər hesab edirlər ki, tədrisin bütün məqsədləri eyni tarixi materiallar əsasında həyata keçirilməlidir. Başqa sözlə desək, tədrisin məqsədlərinin kompleks xarakteri onların birliyi kimi başa düşülür.

Təlimin, tərbiyənin və inkişafın oxşar materiallar üzrə imkanlarının vəhdəti hardan irəli gəlir?

Məlumdur ki, hər dərsdə təlimin əsas materialını təşkil edən bir xülasə və əsas fikir öyrənilir. Bu fikirlərin mənimsənilməsi nəticəsində şagirdlərin dünyagörüşü əsas ideyaları anlamağa və dərk etməyə yaxınlaşır. Dəsrliklərdə verilən xülasə və əsas fikirlər bu baxımdan nəzəri bilikləri ifadə edir. Nəzəri bilik olan nəticələrin mənimsənilməsi onun dərk edilməsini, qavranılmasını, yadda saxlanılmasını və tətbiq olunmasını tələb edir. Hər bir təfəkkür fəaliyyəti (məntiqi fəaliyyət) şagirdləri nəticənin qavranılmasına yaxınlaşdırır. Nəzəri biliklərin mənimsənilməsi zamanı şagirdlərdə müxtəlif qabiliyyətlər formalaşır və inkişaf edir. Məhz bu qabiliyyət sayəsində şagirdlər nəzəri biliklər əldə edirlər. Öyrənilən tapşırıq və faktlara şagirdlərdə müəyyən münasibət formalaşır: iftixar hissi, mərhəmət və ya nifrət hissi. Beləliklə, eyni material şagirdə həm təhsil verir, həm də onu tərbiyə edərək inkişaf etdirir (60, s. 98).

1. Bəzi müəllimlərimiz hesab edir ki, dərsin əsas material bazası ilə yanaşı, digər materialların potensialından da istifadə etmək zəruridir. Bura isə tarixi hadisə, proses və şəxsiyyət, abidə və başqa müxtəlif şeylər aid ola bilər və buna görə onlar müxtəlif xarakterli potensial imkanlarına malikdirlər.

Hal-hazırda, Azərbaycanın Avropa təhsil məkanına inteqrasiya etməsi, sosial-iqtisadi və siyasi vəziyyətin mürəkkəbləşməsi təlim-tərbiyə prosesində yalnız təhsilin keyfiyyətinin artırılmasının ənənəvi üsulunu ön plana çəkməklə deyil, həmçinin ilk növbədə uşağın ətraf mühitə uyğunlaşmasının həyata keçirilməsində məktəbdən xüsusi pedaqoji səylərin göstərilməsini tələb etməklə prioritetlərin dəyişməsi zərurətini ortaya qoyur. Bu, tərbiyəvi və maarifləndirici işin məqsədlərini və ona yanaşmanı dəyişir. Əksər alimlər "təlim" anlayışını "tərbiyə vasitəsi" mənasında işlədirlər, bəziləri "tədris" mənasında, bəzilər isə eyni zamanda "tərbiyə vasitəsi", "tərbiyə", həm də "pedaqoji proses" ifadələrindən istifadə edirlər.

Professor İ.F.Xarlamov yazır, "Təlim – şagirdlərin elmi bilik, bacarıq və vərdişlərə yiyələnməsi, yaradıcı qabiliyyətlərinin, dünyagörüşü və əxlaqi-estetik görüş və əqidələrinin formalaşması üzrə fəal təlim – idrak fəaliyyətinin stimullaşdırılması və təşkilinin məqsədyönlü pedaqoji prosesidir".

Tərbiyəvi təsir dedikdə, - İ.F.Xarlamov davam edir, - təşkilatın və ictimai təcrübəylə yiyələnmə üzrə (görə) formalaşdırılan şəxsiyyətin aktiv fəaliyyətinin stimullaşdırmasının məqsədyönlü və şüurlu olaraq həyata keçirilən pedaqoji prosesini anlamaq lazımdır. Bu biliklər, praktik bacarıqlar və vərdişlərlə, yaradıcılıq fəaliyyətinin üsulları, sosial və mənəvi münasibətlər (əlaqələr) kimi başa düşülür (88, s. 231).

İ.F.Xarlamov qeyd edir, ki tərbiyə dedikdə, -ictimai təcrübə: bilik, praktiki bacarıq və vərdişlər, yaradıcı istedad, sosial və

mənəvi münasibətlərə yiyələnməklə şəxsiyyəti formalaşdıran fəal fəaliyyətin stimullaşdırılması və təşkilinin məqsədyönlü və şüurla yerinə yetirilən pedaqoji prosesidir".

"Pedaqoji proses", "tərbiyə" və "təlim" eyni mənanı ifadə edən sinonimlərdir. Tərbiyə və təlimdə pedaqoji prosesin tamlığının pozulması çox böyük qəbahətdir. Pedaqoji prosesin tərkib hissələri sayılan xarakterin xüsusiyyətləri, hisslər, münasibət, bilik, bacarıq və vərdişlər bir birindən ayrılmadan, eyni üsul, forma və vasitələrlə formalaşdırılır.

Nümunə olaraq son zamanlar geniş yayılmış "tərbiyəedici təlim" anlayışını göstərmək olar. "Tərbiyəedici təlim – bilik, bacarıq və vərdişlər aşılayır, eyni zamanda şagirdlərin dünyagörüşü, mənəviyyatı, xarakter və iradəsini formalaşdırır, şəxsiyyətin idrak qabiliyyətini və digər keyfiyyətlərini inkişaf etdirir". Bu terminin paradoksallığı aydın görünür. Hər halda təlimi "tərbiyəedici" etmək cəhdi təqdirə layiqdir. Pedaqoji proses özündə ardıcıl və bütöv sistemi təcəssüm edir. Akademik Y.K. Babanski yazır: "Pedaqoji proses" termininin sinonimi "təlim-tərbiyə prosesi"dir. O, "təlim" və "tərbiyə"nin çox bənzədiklərini qeyd edərək, onları "pedaqoji proses"in məcmusu adlandırır, eyni zamanda bu "üç" pedaqoji hadisənin müstəqil olduqlarını da qeyd edir.

Tərbiyəvi prosesin quruluşu əsas ünsürlərin qarşılıqlı əlaqəsini özündə təcəssüm etdirir. Tarixi və dünyəvi təcrübə göstərir ki, tərbiyənin başlıca vəzifəsi hərtərəfli inkişaf etmiş insanın formalaşması, müstəqil həyata hazırlığı və müasir cəmiyyətdə fəaliyyəti, sonuncunun gələcəkdə mümkün qədər keyfiyyətlərinin artmasıdır.

Tarixin tədrisi prosesində şəxsiyyətin formalaşması nöqteyi-nəzərindən tərbiyəvi iş üç istiqamətə ayrılır: dünyagörüşünün formalaşması, estetik və əxlaqi tərbiyə. Onlar bir-biri ilə sıx şəkildə əlaqəlidirlər. Məsələn, dünyagörüşünün formalaşmasına

yönəlmiş hər bir addım müxtəlif tarixi mərhələlərdə tarixi şəxsiyyətlərin və ictimai qrupların mənəvi və estetik məqsədlərini daha düzgün qiymətləndirmək və hərtərəfli qavramaq üçün imkan yaradır. Buna görə təlimin tələbləri ilə yanaşı təhsilin şəxsiyyətin formalaşması üçün qarşıya qoyulmuş konkret məqsədləri olmalıdır. Hər bir tarix dərsinin tərbiyəvi məqsədi aşağıdakı tələblərə cavab verməlidir:

- təlim materialının nəzəri mahiyyətinin qavranılması prosesində şagirdlərdə əxlaqi düşüncənin hansı keyfiyyəti formalaşdırılacaq?
- təqdim edilmiş tarixi şəxsiyyət, sinif və ya ictimai qrupun fəaliyyəti haqqında əvvəlcə əldə edilmiş hansı nəzəri bilikləri tətbiq etməklə şagird müstəqil şəkildə qiymətləndirmə apara və öz mülahizəsini söyləyə bilər?
- tarixi faktların öyrənilməsi vasitəsilə əxlaqi və estetik hisslərin inkişafı üçün hansı işlər həyata keçiriləcək?

Təlimin təhsilverici və tərbiyəedici məqsədinin reallaşdırılması inkişafetdirici məqsədlərin düzgün müəyyən edilməsindən və dərsdə tədris edilməsindən asılıdır. Bu isə şagirdlərin təhsilinin, tərbiyəsinin və inkişafının vəhdətindən irəli gəlir.

Əminliklə istənilən nəticəni proqnozlaşdırmaq və nöqsansız elmi baxımdan əsaslandırılmış qərar qəbul etmək üçün müəllim tərbiyənin metodlarından peşəkar şəkildə istifadə etməlidir. Tərbiyənin metodları ilə yanaşı, təhsilverici-tərbiyəedici məsələnin həlli məqsədilə pedaqoq və şagird arasındakı peşəkar qarşılıqlı əlaqənin qaydalarını düzgün qavramaq lazımdır. Tərbiyə metodu metodiki üsullar adlandırılan elementlərə (hissələrə) ayrılır. Bu üsullar xüsusi və tabe edilmiş xüsusiyyətə malikdir. Onlar müstəqil pedaqoji məsələlərə malik deyillər, verilmiş metodu izləyən həmin məsələyə tabe olurlar. Eyni metodiki üsul

müxtəlif metodlarda istifadə oluna bilər. Və əksinə olaraq müxtəlif müəllimlərdə eyni metod ayrı-ayrı üsullarla tətbiq edilə bilər. Tərbiyə metodları və metodik üsullar sıx şəkildə bir birləri ilə bağlıdırlar, konkret pedaqoji hadisələrdə bir birinə keçə və ya bir birini əvəz edə bilərlər. Məsələn, müsahibə, şüurun, baxışların və əqidənin formalaşdırılmasının başlıca metodlarından biridir. Eyni zamanda o, öyrətmə metodunun reallaşmasının müxtəlif mərhələlərində istifadə olunan başlıca metodik üsullardan biri ola bilər.

Hal-hazırda uşaqlıq dövrünün əhəmiyyəti və dəyəri, əməkdaşlıq, dialoq, şəxsiyyətin öz zərurətini və öz müqəddaratını təyin etməsi kimi ideyalar pedaqogikaya geri dönmüşdür. Qeyd etmək lazımdır ki, uşaqların əməkdaşlığını və dialoqunu təşkil edən kollektiv içində təlim və tərbiyəsi pedaqoji prosesin təşkilinin kollektiv, qrup şəklində və fərdi formasının optimal ahəngini təklif edir. Burada tərbiyə və inkişaf prosesi daha aydın hiss olunur.

Təbii ki, tarix müəllimlərinin işində başlıca istiqamətlərdən biri vətənpərvərlik tərbiyəsidir. Vətənpərvərlik tərbiyəsi konsepsiyasının başlıca məqsədi vətənpərvərlik tərbiyəsinin gənclərdəki yeri və rolunu müəyyən etməkdən ibarətdir. Vətənə ləyaqətli xidmətə hazırlıq ictimai həyatın müxtəlif sahələrində, xüsusilə də Vətənə, milli mənsubiyyətə sədaqətdə öz təzahürünü göstərir. Bu məqsədlərə nail olmaq üçün aşağıdakı başlıca məsələləri yerinə yetirmək lazımdır:

- gənclərin vətəndaşlıq və vətənpərvərlik dəyərləri, baxışları və əqidələrində əminlik;
- Azərbaycanın tarixi və mədəni keçmişinə, onun adət və ənənələrinə hörmət.

Vətənpərvərlik tərbiyəsinin mahiyyətinin müasir şəraitində aşağıdakı mənəvi-əxlaqi dəyərləri qeyd etmək lazımdır:

1. Vətəndaşlıq, ümumi dövlət maraqlarının prioriteti, vətənpərvərlik, Vətəninə sədaqət, xalqının adət-ənənələrinin varisliyi, qorunması və inkişafı, humanizm və ədəb qaydaları, şəxsi ləyaqət hissi, ictimai fəallıq, mənəvi və hüquq normalarının pozulmasına yolverilməzlik, ən yaxşı milli keyfiyyətlərin qorunması və təkcə öz Vətəninin deyil, öz rayonunun, şəhərinin, kəndinin tarixi keçmişini öyrənmək.
2. Vətənpərvərlik tərbiyəsi – çox geniş anlayışdır. Vətənpərvərlik həm tarix dərslərində, həm də tarix üzrə dərsdənkənar və məktəbdənkənar tədbirlərdə formalaşdırılır. Vətənpərvərlik tərbiyəsi – şübhəsiz, vətənin müdafiəsinə hazırlıqdır.

Tarix dərsləri həmişə tarixin öyrənilməsi üçün faydalı materiallar vasitəsi ilə şagirdlərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi prosesinin həyata keçirilməsinə imkan yaradır. Vətən anlayışını dərk etməklə, ona qarşı sevgi hissi və onun indiki və gələcək vəziyyəti ilə bağlı narahatçılıq hissi keçirməklə şagird öz ləyaqətini göstərir və Vətənin qəhrəmanlarına bənzəməyə çalışır. Böyük Vətən Müharibəsinin iştirakçılarından biri demişdir: "Vətənə xidmət edən qəhrəman heç bir zaman ölmür, nəsildə yenidən canlanır."

Xalqın vətənpərvərliyi və qəhrəmanlığı sayəsində Azərbaycan öz tarixinin ən çətin mərhələsində, ən ağır vəziyyətdən belə uğurla çıxmağa nail olmuşdur. Tarix dərsləri şagirdlərə keçmişdə baş verən bütün tarixi hadisələri barədə məlumatlanmağa imkan yaradır. Şagirdlərdə Vətənə, bütün bəşəriyyətə sevgi hissi anlayışını dərk edilməsi, əxlaqın ümumbəşəri normalarının aşılanması Azərbaycan Respublikası vətəndaşının tərbiyəsinin, vətəndaşlığının formalaşmasının ən vacib mərhələsi hesab olunur. Buna o zaman nail olunur ki, vətənpərvərlik anlayışı tərbiyə olunan tərəfindən şüuru və ürəyin dərinliyində aydın emosional nümunələrlə qavranılsın və haqq-ədalətə görə mərd döyüşçülərə minnətdarlıq

hissi oyansın. Eyni zamanda Vətən haqqında məlumatlar yalnız onun nailiyyətlərinə görə iftixar hissi deyil, həmçinin hər şeyin lazım olduğu kimi olmadığı üçün səmimi narahatçılıq hissləri oyatmalıdır. Tarix – vətənpərvərləri, vətəndaşları yaradan qüdrətli və daimi mövcud olan qüvvədir. Böyük tərbiyəvi iş özündə bir sıra vəzifələr daşıyır: "Babəkin başçılığı altında azadlıq hərəkatı" (7-ci sinif), "Cənubi Azərbaycanda milli azadlıq mübarizəsi" (9-cu sinif) və başqaları. Təlimin interaktiv metodlarının istifadə olunduğu bu dərslərdə şagirdlərə aşağıdakı dəyərlər aşılanır:

1. şagirdlərdə əcdadların xatirəsinə, vətənpərvərlik hissinə hörmətcil münasibətin tərbiyəsi;
2. şagirdlərdə öz-özünü qiymətləndirmənin və özünütəsdiq etmənin obyektivliyinin tərbiyəsi (öz-özünə nəzarət kartları ilə iş);
3. xalqımızın şücaətinə hörmət;
4. qəhrəmanlarımıza ehtiram.

Vətənə sevgi hissinin aşılanması Cavanşir, Babək, Koroğlu, Şah İsmayıl, Qaçaq Nəbi, Həzi Aslanov, Mübariz İbrahimov, Polad Həşimov, İlqar Mirzəyev, 44-günlük qələbənin qəhrəmanları və b. Timsalında müəllimlərin baş vermiş hadisələr, onların iştirakçılarının taleyi ilə bağlı şagirdlər hər tərəfli məlumatlandırdığı halda mümkündür. Dərsin emosional qurulması həmçinin şəkillərin, şerlərin, musiqi əsərlərindən olan parçaların istifadəsi ilə həyata keçirilir. Məsələn, Koroğlunun igidliyi və şücaəti ilə bağlı hekayələr Üzeyir Hacıbəyovun "Koroğlu" operasından ayğıkeş ilə birgə danışılır (fənlərarası inteqrasiya).

Xüsusilə, müzəffər Azərbaycan ordusunun 44-günlük müharibədə şanlı qələbəsinin həmmüəllifi olaraq tarix müəllimlərinin rolunu qeyd etmək lazımdır. Məhz tarix dərslərində müəllimlərin şagirdlərdə vətənpərvərlik hisslərinin tərbiyə etdirməsi ordumu-

zu qələbəyə, işğal altında olan torpaqlarımızın azad olunmasına, cavanlarımızı vətənimizin, torpağlarımızın azad edilməsində göstərdiyi qəhrəmanlığı, şücayəti bunun bariz nümunəsidir.

Məktəblilərin vətənpərvərlik ideyasını daxilən qavramaları, öz ailələri, Vətənləri haqqında qavradıqları yeni bir anlayışın sevincini yaşamaları, bunu müstəqil şəkildə öz yaşıdlarına və özlərindən böyük yoldaşlarına ötürmələri üçün müəllimlər daima bu materialları gündəlik pedaqoji fəaliyyətlərinə daxil etməli, vətəndaşı abstrakt ideallar əsasında deyil, valideynlərinin, həmyerlilərinin, öz şəhərinin tarixində baş vermiş hadisələrin nümunəsində formalaşdırmalıdırlar. Vətənpərvərlik tərbiyəsi və böyüklərə qarşı hörmət hissi konkret tarixi zəmin üzərində qurulmuşdur.

Dərs məktəblilərə öz əcdadaları ilə iftixar hissi aşılayır, güclü və qəddar düşməni məğlub etməyə inam, həlak olmuşlara (şəhidlərə) mərhəmət hissi oyadır və insanların öz canları bahasına olsa belə, Vətəni fəlakətdən, məhv olmadan qoruduqlarını nümayiş etdirir.

Qısa olaraq nümunə əsasında təhlil edək. Məsələn, "Azərbaycan SSR İkinci Dünya Müharibəsi illərində" mövzusunda dərs keçirilərkən sinif beş qrupa bölünür, qrupların hər birinə müəyyən mövzu üzrə məlumat hazırlamaq üçün tapşırıq verilir. Hər qrup müzakirələrə başlayır, nəticədə qruplar məlumat hazırlayırlar. Daha sonra məlumatların təqdimatı üçün qruplara hər qrupun adından bir nəfərin çıxış etməsi təklif olunur. Qruplara həmçinin qrupun üzvlərinin qohumları ilə bağlı faktları da hazırlanmış məlumata daxil etməyə imkan yaradılır.

Birinci qrupun nümayəndəsi qrup tərəfindən hazırlanmış mövzu üzrə məlumata əlavə olaraq məsələn, müharibənin ilk ayında ön cəbhəyə mübarizə aparmış Babası haqqında söhbət açdı. O, müharibədə əvvəldən axıra kimi iştirak etmiş, uzun döyüş yolu

keçmiş, orden və medallarla təltif edilmişdir. İkinci qrupun nümayəndəsi orduya çağırılmış Babası haqqında danışdı (əsas materialı şərh etdikdən sonra). O, demək olar ki, ən ağır döyüşlərdə iştirak etmiş, yaralanmış və bir ilini hərbi xəstəxanada keçirmişdir. Müxtəlif medal və ordenlərlə təltif edilmişdir. Üçüncü qrupundan şagird öz qohumunun müharibəyə həsr olunmuş albomunu və onun mükafatlarını nümayiş etdir.

Dördüncü qrupun nümayəndəsi demək olar ki, bütün müharibəni tibb bacısı kimi fəaliyyət göstərmiş nənəsi haqqında danışır. O, hərbi xəstəxanada işləmiş, daha sonra ön cəbhədə yaralı döyüşçülərə kömək edərək çoxlarının həyatını xilas etmişdir.

Beşinci qrupun nümayəndəsi öz təqdimatında müharibə illərində əmək qəhramanı olmuş nənəsi haqqında danışdı. Arxa cəbhədə onun və həmyaşıdlarının əməyinin sayəsində işğalçılar üzərində qələbəyə nail olunmuşdur.

Demək olar ki, sinifdə hər kəsə müharibənin iştirakçısı olan qohumları barədə danışmaq müvəffəq olmuşdur. Oxşar dərslər uşaqlar üzərində böyük emosional təsirə malikdir, belə ki, bu cür dərslər şagirdlərdə tarixin çox böyük əhəmiyyətli hadisələrinin iştirakçıları olan qohumları ilə iftixar hissi oyadır və ümid edirəm ki, faşizm təhlükəsindən dünyanı xilas etdiyi üçün Vətəninin qəhrəmanlığı ilə fəxr etməyə sövq edir. Həmin dərs zamanı bütün şagirdlər təlim prosesinin fəal iştirakçısı oldu. Dərs müddətində formalaşmış vətənpərvərlik hissi onların qəlblərində silinməz iz buraxdı.

Müəllimin vəzifəsi şagirdlərə özünü dərk etməsi üçün yol göstərmək, bu və ya digər yaşdakı uşağın inkişafı üçün insanın öz daxili dünyasını müəyyən edən şərait yaratmaqdır. Müəllim öz funksiyaları ilə yanaşı, şagirdlərlə iş formalarının seçimini həyata keçirir.

Müşahidələr, pedaqoji ədəbiyyatın təhlili, göstərir ki, yalnız şagirdlər arasında olan əməkdaşlıq şəxsiyyətin hərtərəfli inkişafına, insanın ali vətəndaşlıq borcu, vətənpərvərlik və həmçinin öz Vətəninin gələcəyi üçün həyəcan hissləri ilə tərbiyə olunmasına kömək edə bilər.

Hal-hazırda tarix müəllimləri üçün şagirdin mənəvi-əxlaqi şəxsiyyətinin formalaşmasından vacib məsələ yoxdur. Tarix müəllimlərinin məqsədi şagirdlərin özlərinin Vətənin tarixi ilə əlaqələrinin olması haqqında düşünməyə sövq etmək və Vətənin taleyi üçün vətəndaşlıq məsuliyyəti hissini oyatmaqdan ibarətdir.

Araşdırmalar göstərir ki, tarixi qədim dövrdən öyrənmədən yenilənmiş Azərbaycanın vətəndaş cəmiyyətini yaratmaq mümkün deyil. Şagirdlər qarşısında müəllim faktları açıqlayır: “Ermənilər tərəfindən məscidlərin, tarixi abidələrin dağıdılması sadəcə binaların məhvi deyil, həm də mədəniyyətin məhvidir. Yandırılmış və məhv edilmiş tarix sadəcə milli sərvətlərimizin yoxa çıxması deyil, həm də tariximizə qarşı olan qəddarlıq və insaniyyətsizlikdir”. Müəllim xüsusi olaraq qeyd edir ki, həyatımızdan keçmiş və keçəcək bütün hadisələrin və proseslərin dərin mahiyyətinə diqqətlə nəzər yetirmək vacibdir. Lakin əksər hallarda tarixin tədrisində yalnızca faktlardan sitat gətirilir.

Bildiyimiz kimi, torpaqlarımızın 20%-i Azərbaycana qarşı elan olunmamış müharibə nəticəsində ermənilər tərəfindən 30 ilə yaxın müddətdə işğal altında qalmışdır. Bildiyimiz kimi, 44 günlük müharibə zamanı Azərbaycanın rəşadətli ordusu Ermənistan ordusunu darmadağın etdi və öz ərazi bütövlüyünü bərpa etdi. Müharibə nəticəsində Azərbaycanın çoxlu sayda oğulları vətən uğrunda canlarından keçib şəhid olmuşlar. Bu mövzuya həsr olunmuş dərs şagirdlərdə vətənpərvərlik hisslərini və öz həmvətənləri ilə iftixar hisslərini oyatmağa müvəffəq ola bilər. Bu

məqsədlə XI sinifdə "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi müasir mərhələdə. Qətiyyətin nümayişi" mövzusunda dərs-seminar keçiririk.

Bunun üçün əvvəlcədən şagirdlərlə hazırlıq işlərinə başlamaq lazımdır. Bu dövr ərzində vaxtaşırı məsləhətləşmələr aparılması məsləhət görülür. Məsləhətləşmələr zamanı müəllim şagirdlərə dəyərli tövsiyələr verir, əlavə ədəbiyyatla işləməyə və hazırlıq zamanı ortaya çıxan problemlərin həllinə yardım göstərir.

Ev tapşırığı kimi şagirdlərə aşağıdakı bəndlərdən ibarət olan əsas plan əsasında tapşırıq verilir:

1. Müharibənin başlanması. Azərbaycanın milli qəhrəmanları;
2. Xocalı soyqırımı. Ermənilərin vəhşiliyi;
3. Şuşanın işğalı. Azərbaycan xalqına verilmiş zülm;
4. Dövlət çevrilişi cəhdi. AXCP və Müsavat cütlüyünün hakimiyyəti ələ keçirməsi və s.

Verilmiş məsələləri daha dolğun öyrənmək üçün dərslikdən olan materiallarla yanaşı, şagirdlərə aşağıdakı əlavə ədəbiyyatdan istifadə etməyi təklif edilir:

- F.Hicran "Qarabağda qırğın" (s.43-48),
- N.Yaqublu "Xocalıda soyqırım" (s.75-81),
- "Erməni soyqırımı və bəşəriyyat əleyhinə cinayət" (143-150),
- "Qarabağ. Dunən, bugün və sabah" (s.83-95),
- Musayev D.M. və b. «Ermənistanın işğalçı siyasətinin ifşası (məqalələr toplusu)», Bakı, 2019,
- Süleymanov E.S., Süleymanov V.E. «Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri» (Azərbaycan, ingilis, rus və ərəb dillərində)», Bakı, 2012.

Dərs zamanı sinif dörd qrupa bölünür və hər qrupa planın

bir bəndi üzrə məlumat hazırlamaq təklif olunur. Qruplar onlara tövsiyə olunan əlavə ədəbiyyatdan əldə etdikləri vacib informasiyalar əsasında təqdimat hazırlayır. Qruplarda biliklər və fikirlər mübadiləsi həyata keçir. Müzakirələrdən sonra hər qrupdan yalnız bir şagirdin sinifə təqdim edəcəyi cavabı hazırlanır.

Məsələn, qruplardan birinin cavabı bu cür səsləndirildi:

Ermənistan, Azərbaycanın tarixi düşməni XX əsrin sonlarında yenidən ərazi iddiasına başlamışdır. Elan olunmamış müharibəyə başlayaraq, ermənilər 20% Azərbaycan torpaqlarını işğal etmişlər (*Xocavənd rayonu –18 noyabr 1991-ci il, Xankəndi rayonu –26 dekabr 1991-ci il, Xocalı rayonu – 26 fevral 1992-ci il, Şuşa rayonu –8 may 1992-ci il, Laçın rayonu – 18 may 1992-ci il, Kəlbəcər rayonu – 2 aprel, 1993-cü il, Ağdam rayonu – 23 iyul 1993-cü il, Cəbrayıl rayonu – 23 avqust 1993-cü il, Fizuli rayonu – 23 avqust 1993-cü il, Qubadlı rayonu – 31 avqust 1993-cüil, Zənqilan rayonu – 30 oktyabr 1993-cü il*). Ermənilər Xocalı şəhərinin işğalı zamanı xüsusi vəhşilik nümayiş etdirmişdir. Azərbaycan torpaqlarının müdafiəsi üçün Vətənin cəsarətli oğulları ayağa qalxmışdır. Onların arasında çoxları öz canından keçərək qəhrəmanlıq zirvəsinə yüksəlmiş və şəhid olmuşlar. Onlardan biri bizim məktəbimizin məzunu olmuş və vətən üçün canından keçmiş Tahir Məmmədovun (ad şərtidir) adını çəkmək olar. Şəhidimizin adınının əbədiləşməsi üçün bizim məktəbimiz onun adı ilə adlandırılmışdır. Bu müharibənin nəticəsində Azərbaycan yüzlərlə şəhid vermiş, minlərlə dinc əhali soyqırımın qurbanına çevrilmişdir. Azərbaycanın 209 oğlu göstərdikləri şücaətə görə birinci Qarabağ müharibəsində Milli qəhrəman adına layiq görülmüşdür.

Göründüyü kimi, şagirdlər əlavə ədəbiyyatdan istifadə etməklə dolğun məlumat hazırlamışlar. Bu, şagirdlərdə vətənpərvərlik hissini, Azərbaycan xalqının cəsarəti və qəhrəmanlığı timsa-

lında iftixar hissini oyatmağa imkan yaratmışdır. Dərs prosesində şəgirdlərdə öyrənilən proses və hadisələrə münasibət formalaşdırılır, mənimsənilmiş bilik əsasında hadisələri qiymətləndirmə bacarığı yaradılır və elmi dünyagörüşü əsasında fərdi baxışlar, yanaşmalar və qiymətləndirmə sistemi meydana gəlir. Artıq ilk dərslərdə müəllim Vətənə dərin hörmət hissini yaratmağa çalışır. Müəllimlər fikirlərini açıq-aşkar ifadə etməlidir – bizim hər birimiz öz daxili dünyamızı anlayaraq daxilimizdəki həqiqi dəyəri üzə çıxarmalıyıq. Tarixi tədqiq edərək, müəllim dərslərdə yavaş-yavaş bu hissi formalaşdırmaq imkanı qazanır. Şagirdlərdə öz xalqına, Vətəninə məhəbbət və iftixar hissi oyatmaq çox vacib amildir.

Məsələn, Çaldıran döyüşünü qiymətləndirərkən bir çox müəllimlər əksər hallarda qızılbaşların itkilərindən, I Şah İsmayılın qeyri-düzgün siyasətindən danışır, lakin çox nadir hallarda öz Vətənləri uğrunda həlak olmuş qızılbaşların yüksək şücaətindən söhbət açır. Onlar bilirdilər ki, düşmən sayca üstünlük təşkil edir.

Qarşıya qoyulmuş məqsədə çatmaq üçün müəllim müxtəlif vasitələrdən və metodlardan istifadə edir. Sinif şagirdlərin dərs prosesinə maraqlarını artırmaq üçün kompyuterlə, proyektorla, nautbukla təchiz oluna bilər. Dərsin keçirilməsinin interaktiv metoduna əxlaqi problemlərin qoyulduğu fəal müzakirələr daxil edilir. Videofraqmentlər, fotosənədlər şagirdlərin öyrənilən dövrü öz xəyallarında canlandırmasına imkan yaradır. Təlimin sonunda müəllim problemin əxlaqi aspektini vurğulayaraq məyyən nəticə çıxarır.

Əxlaqi tərbiyə ümumbəşəri əxlaqi anlayışlar olan xeyir və şərə əsaslanır və bu anlayışları rəftar, davranış və tarixən toplanmış əxlaqi, siyasi, estetik və başqa formalarla izah edir.

Əxlaqi tərbiyənin ideya-psixoloji qolu erkən yaşlarda bünövrəsi qoyulan vicdan və şərəf anlayışlarını aşılamalıdır və bu,

həm tarixi təcrübə əsasında, həm də dərsdə ünsiyyət zamanı inkişaf etdirilə bilər. Dərsdə tədris olunan əsas əxlaqi keyfiyyətlərə aiddir: vicdan, xeyirxahlıq, mehribanlıq, mərhəmət, vətəndaşlıq borcu, vətəndaşlıq məsulliyyəti, vətənpərvərlik və humanizm.

Gənc nəslin əxlaqi tərbiyəsinin vəzifələri və mahiyyəti cəmiyyətin ədəb qaydaları vasitəsi ilə müəyyən olunur. Bəşəriyyətin yazılı adət-ənənəsindəki insanın ədəb qaydalarının əsas müddəaları Tövrat, İncil və Quranda əks olunmuşdur. Etik tərbiyənin əsas vəzifələri kimi bunlar seçilir: ictimai davranış qaydaları haqqında əxlaqi təcrübə və məlumatların toplanması (ailədə, küçədə, məktəbdə və digər ictimai yerlərdə); asudə vaxtın səmərəli keçirilməsi və şəxsiyyətin əxlaqi keyfiyyətlərinin inkişafı, insanlara qarşı diqqətli və ayğıkeş münasibət; dürüstlük, dözüm, təvazökarlıq və zəriflik, təşkilatçılıq, nizamlılıq və məsuliyyət, vəzifə borcu və şərəf, insan ləyaqətinə hörmət, əməksevərlik və əmək mədəniyyəti, milli var-dövlətə qənaətcil münasibət.

Məsələn, 8-ci sinifində "Azərbaycan XVIII əsrin ikinci yarısında" mövzusunda təkrar ümumiləşdirici dərs keçirilərkən müzakirəyə başlamazdan əvvəl müəllim şagirdlərlə dərsin keçirilməsi qaydalarını müzakirə edir, onlar birlikdə müzakirənin qaydalarını tərtib edirlər. Bu qaydalarda yoldaşın fikrinə hörmət, səbir, dözüm göstərmək öz əksini tapır, xatırladılır ki, müzakirə obyekti müəllif yox, onun düşüncəsidir. Dərs-müzakirə zamanı müəllim "tərəflərin müşahidəçisi" rolunda çıxış edir və ehtiyac duyulduqda, qaydaları xatırladır. Qarşlıqlı ünsiyyətdən sonra şagirdlər qoyulmuş problemin həllini tapırlar. Sözsüz ki, yuxarıda sayılmış bacarıq və vərdişlər yalnızca dərs-müzakirədə böyük əhəmiyyət daşımır. Hal-hazırda həmişə olduğu kimi bu vərdişlər aktual olmaqda davam edir. Tərbiyənin təşkilində əsas rolu tərbiyənin həyatla və istehsal təcrübəsi ilə əlaqə prinsipi oynayır. Tərbiyə

prosesində əməyə, istehsala, insanların qarşılıqlı əlaqəsinə münasibət xüsusi rol oynayır. Niyə biz məktəbdə estetik tərbiyənin məhz artan rolundan bəhs edirik? Məsələ orasındadır ki, müasir cəmiyyətimizdə estetik tələbat əhəmiyyətli dərəcədə artmaqdadır və gözəllik qanunları bizim həyatımızda dərindən kök salmışdır. Estetik tərbiyə təbii olaraq böyüməkdə olan nəslin dünyagörüşünün təkmilləşməsi ilə, təhsil, şəxsi həyat, humanizm ideallarının ictimai işi, Vətəninə və onun tarixinə olan sevgi ilə birləşməlidir.

Məktəb illəri – ola bilsin ki, insan şəxsiyyətinin təşəkkül tapmasının ən mürəkkəb və məsuliyyətli mərhələsidir. Yeniyetmələr və gənclər olduqca həssas daxili dünyaya, tamamilə dərin düşüncələrə malikdirlər. Bu dövrdə onların qəlbləri çox kövrək olur, buna görə onlarla mümkün qədər nəzakətli rəftar etmək lazımdır ki, gələcək həyatlarına mənfi təsir göstərə biləcək izlər buraxılmasın. Elə etmək lazımdır ki, onların yaddaşında zərrə qədər belə olsa, silinməz mənfi iz qalmasın. Elə burada incəsənət, estetik tərbiyə əvəzsiz rol oynaya bilər. V.A.Suxomlinskinin dediyi kimi: "Yeniyetmə yaxşı olmaq istəyir, ideala doğru yönəlir və eyni zamanda tərbiyə edilməsinə dözmür, bəzən məktəb tərbiyəsinin həqiqi bəlasına çevrilən "çılpaq" ideyalara, tendensiyalara tab gətirmir". Görünür, incəsənət ibrətamizlik formasına bürünməyərək əxlaq dərsi verməyə imkan yaradır.

Estetik tərbiyənin məqsədi gerçəkliyə olan estetik münasibətin inkişaf etdirilməsidir. İ.Kant hesab edirdi ki, kamil insan əli ilə yaradılmış incəsənət əsərinə tamaşa edərək "daha yaxşısına" qoşulur (birləşdirilir). Hər halda, biz ya coşan dənizi, ya da vulkan püskürməsini insanın iqtidarında olmadan yaratdığı "yüksəklik" kimi dərk edirik. Estetik münasibət mükəmməlin emosional şəkildə qavranmasına inkam yaradır. O, yalnız təbiətə münasibətdə deyil, eynilə incəsənət əsərinə münasibətdə təzahür edə bilər.

Dərs zamanı müəllim şagirdlərdə xalqımızın mədəni irsinə hörmətlə yanaşmağı aşılamağa çalışmalıdır.

Belə ki, 7-ci sinifdə "IX– XI əsrlərdə Azərbaycan mədəniyyəti" mövzusunda dərsi interaktiv metodla (qruplarla iş) keçiririr (əlavədə dərsin xülasəsi verilir) – ümumi şəkildə təhlil edək.

Qruplardan birinin təqdimatı təxminən aşağıdakı kimi qurur:

Azərbaycanda islam dininin qəbul edilməsi memarlığın inkişafına öz təsirini göstərmişdir. Burada saray, məscid, minarə, günbəz və karvan-saray kimi gözəl mədəniyyət abidələri inşa edilmişdir. IX-XI əsrin müqayisə edilməz dərəcədə gözəl abidələri arasında Naxçıvanda Əlincə Qalasını, Ağaoğlan çayının sahilində Amaras monastırını, Araz çayı üzərində Fəzl ibn Məhəmməd tərəfindən bünövrəsi qoyulmuş Xudafərin körpüsünü və başqalarını misal göstərmək olar (dərslikdə şəkilləri verilir).

Həmin dərs şagirdlərə bilik verməklə yanaşı, aşağıdakı keyfiyyətlərin formalaşmasına da imkan yaratmışdır:

1. Özünüqiymətləndirmə, obyektivlik və özünütəsdiq təşəbbüsləri;
2. Şifahi xalq yaradıcılığına ehtiram;
3. Mədəni irsimizə hörmət.

Əlbəttə, inkar etmək olmaz ki, bu keyfiyyətlərdən bəzilərini ənənəvi təlimlə də aşılamaq mümkündür. Lakin həmin halda bu proses müəllimlərin avtoritar nəzarəti altında deyil, iştirakı ilə həyata keçirilirdi.

Bildiyimiz kimi, mədəni-estetik material tarixin məktəb kursunda əhəmiyyətli yer tutur. Əgər göstərilmiş materialın təhsil və tərbiyə ilə əlaqəsinin əhəmiyyəti nəzərə alınmışdırsa, bu tamamilə öz təsdiqini tapır. Mədəni-estetik materialın mahiyyəti məktəblinin estetik tərbiyəsi və onun ümumi inkişafı baxımından böyük əhəmiyyətə malikdir. Tarix dərslərinin tərbiyəvi əhəmiyyətinə

həmçinin əməyin estetik təşkili, sinif otağının gözəl tərtibatı aiddir. Estetik tərbiyə prosesində rəsm və ədəbi əsərlərdən istifadə olunur: musiqi, incəsənət, kino, teatr, xalq folkloru və başqaları.

Məsələn, ümümtəhsil məktəblərinin 5-ci siniflərində Azərbaycan tarixi dərslərində Yusif Məmmədəliyev, Mirəli Qaşqay, Şamil Əzizbəyov, Lütfi Zadə, Mustafa Topçubaşov kimi məşhur alimlərin, Rəsul Rza, Səməd Vurğun, Əliağa Vahid, İsmayıl Şıxlı, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Ustad Şəhriyar, Bəxtiyar Vahabzadə kimi dahi yazıçı və şairlərin, Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Səttar Bəhlulzadə, Əzim Əzimzadə, İsmayıl Axundov, Maral Rəhmənzadə, Bəhruz Kəngərli, Rüstəm Mustafayev kimi böyük bəstəkar və rəssamların, Səttar xan, Sultan bəy Sultanov, Heydər Əliyev kimi dahi şəxsiyyətlərin fəaliyyətləri, misli görünməmiş nailiyyətləri ilə şagirdləri tanış edirik. XX əsrin birinci yarısında Azərbaycan elminin və incəsənətinin inkişafında misli görünməmiş əməyi olan bu görkəmli şəxslərin yaradıcılığının timsalında şagirdlər Azərbaycanın dünya mədəniyyətinə nə kimi töhvə verdiyini anlamış olurlar.

Tarixin tədrisində estetik tərbiyənin istiqamətlərindən biri yazılı iş, inşa, imla, verilmiş müəyyən mövzu üzrə referatlardır ki, bunları yerinə yetirərkən şagirdlər qoyulmuş problem barədə şərh verir, müzakirə edir, öz fikirlərini ifadə edə bilirlər. Bu istiqamətdə işləyərkən onların şəxsi yaradıcılıqlarına olan həvəsləri inkişaf etdirilir.

Həmçinin vurğulamaq istərdim ki, pedaqoq dərs müddətində öz nəzarəti altında şagirdlərin tarixə olan canlı, tam və estetik münasibət formalaşdırmalıdır.

Araşdırmalar göstərir ki, dəsrlərin interaktiv metodla keçirilməsi tərbiyə məsələsinin həllində heç də az əhəmiyyətli rola malik deyildir. Şagirdlər öz anketlərində qeyd edirlər ki, dərslərdə yeni

metodların istifadə olunması sayəsində fənnə olan münasibətləri dəyişmişdir ("dərslər maraqlı olub", "dərslərdə mən daha sərbəst olmuşam", "hər dərsdə öz fikrimi ifadə edə bilirəm", "material daha rahat yadda qalır"), müvəffəqiyyətə nail olunmuş ("çox böyük həvəslə tapşırığı yerinə yetirirəm", "çoxlu yeni və faydalı məlumatlar öyrənirəm") və s.

Yuxarıda qeyd olunananları ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, tarixin tədrisində tərbiyəvi potensial :

- onun çoxcəhətliliyindən irəli gəlir;
- tarixin tərbiyəvi xarakteri onun məqsədlərindən və mahiyyətindən doğur və onun kompleks xarakteri ilə əlaqədardır;
- tarixin tədrisinin tərbiyəvi potensialının reallaşdırılmasında interaktiv metodlar əhəmiyyətli rol oynayır;
- tarixin məqsədlərinin kompleks xarakteri ilə əlaqədar tərbiyəvi potensialın realllaşdırılmasının imkanları sıx əlaqəlidir.

## X. TARİXİN İNTERAKTİV TƏDRİSİ – ŞAGİRDLƏRİN İNKİŞAF ETDİRİLMƏSİ VASİTƏSİDİR

İnsanın hər bir fəaliyyətinin müəyyən məqsədi olur. Tarix müəllimlərinın əsas vəzifəsi – şagirdlərin idrak marağını fəallaşdırmaq və onların yaradıcı qabiliyyətlərinin inkişaf etdirməkdən ibarətdir. Bu məqsədlərə nail olmaq təhsilin bir çox məsələlərini həll etməyə imkan yaradır: şagirdləri idrak fəaliyyətində fəal iştiraka hazırlamaq, müstəqil şəkildə öz biliyini artırmağı bacarmaq, elmi-texniki qərarı həyata keçirmək, yeni biliklərə yiyələnmək, ölkənin ali məktəblərinə seçilmiş ixtisası yüksək səviyyədə mənimsəməyi bacaran hazırlıqlı tələbə vermək və s.

Müasir cəmiyyət ümumtəhsil məktəbi məzunlarının qarşısına kifayət qədər yüksək tələblər qoyur. Ənənəvi təlimdə uşaq ilk yaşlarından nəinki əzbərləməyə,əksər halda mexaniki yadda saxlamağa məcbur edilirdi. Hər halda yeniyetmələr kimi gənclər də mexaniki əzbərləməyə - xronologiyaların, faktların və hadisələrin əzbərlənməsinə meyl göstərirlər. Bu isə dərsin səmərəliliyinin azalmasına gətirib ifahi. Beləliklə, bu, şagirdin şəxsiyyətinin inkişafına arzu olunmaz təsir göstərirdi. Məlum olduğu kimi, şagirdlərin idrak marağını canlandırmaq problemi hər zaman aktual olub və əvvəlki kimi gündəmdə qalmaqda davam edir.

Əgər şagirdlərin öyrənməyə həvəsi olmasa, müəllimlər bunun üçün nə qədər böyük səy göstərsələr də, bütün cəhdlər boşa çıxar. Bu baxımdan müasir yanaşma "fənnə olan marağın artırılması və ya canlandırılması" yollarının axtarıb tapılmasına istiqamətlənmişdir. Uşaqlar məktəbdə, bir qayda olaraq, həvəslə oxusalar da, təxminən 5-ci sinifdən bu istək yavaş-yavaş sönür.

Pedaqoq və psixoloqlar hesab edirlər ki, yeniyetmə yaşı təhsil və tərbiyə baxımından ən mürəkkəb yaş dövrüdür.

Ənənəvi təlim şagird şəxsiyyətinin intellektual potensialının hərtərəfli inkişaf etdirilməsinə imkan yaratmır, burada təfəkkür fəaliyyətinə deyil, şagirdlərin mexaniki yaddaşına ünvanlanmış və beləliklə fərdi təhsili nəzərdə tutmayan ənənəvi məlumat-mənimsəmə yanaşmasını nəzərdə tutur. Bu gün məktəb qarşısında şagird şəxsiyyətin hərtərəfli formalaşması, onun yaradıcı fəallığının, məntiqi və tənqidi təfəkkürünün yüksəldilməsi məsələləri durur. Bu gün əsas məsələ - şagirdlərə bilik verərək, inkişaf etdirən, onları idraka təşəbbüs göstərən intellektual inkişaf etmiş şəxsiyyət kimi tərbiyə etməkdən ibarətdir. Beləliklə, tarix dərsin qarşısında qoyulan yeni tələblər şagirdləri fəal/interaktiv təlim prosesinə cəlb edərək, onların şəxsiyyətinin müntəzəm inkişafını təmin etməkdən ibarətdir. Lakin, müəllimin niyyətinin nə qədər yüksək olmasından asılı olmayaraq, şagirdlərin oxumaq arzusu olmadıqda bütün səylər səmərəsiz olur. Məhz buna görə tərbiyə etdirmə və fənnə maraq oyatmaq təlimə açar rolunu oynayır.

Bu gün təhsilin məqsədi fərdlərin (şəxsiyyətin) marağı daxilində təlimin və tərbiyənin məqsədyönlü prosesinin həyata keçirilməsidir. Müəllimlər ehtiyatında olan tədris metod və üsulların bütün kompleksindən məharətlə istifadə edərək qarşıya qoyulmuş məqsədə müvəffəqiyyətlə nail olmaq mümkündür. Onların arasında xüsusi yeri təfəkkürün inkişaf etdirən metod və üsulları tutur. Məktəb tədrisində təfəkkürün inkişafının aktuallığı aydın görünür. Müasir didaktikada qəbul olunduğu kimi, təfəkkürün inkişafı tədrisin prinsiplərindən biri kimi nəzərdən keçirilir, çünki onun mövcudluğu tədrisdə ardıcıllıq və sistemlilik, fəallıq və şüurluluq, anlaşıqlılıq,nəzəriyyənin təcrübə ilə əlaqəsi, davamlılıq və digər prinsiplərin uğurla reallaşması zərurətindən ortaya çıxır.

Tarixin fənninin tədrisinin əsas məqsədlərinə müstəqil və yaradıcı şəxsiyyətin, ümumbəşər dəyərləri və Azərbaycanın mədəni nailiyyətləri və onların dünya mədəniyyətindəki roluna əlavə olaraq ictimai fəal şəxsiyyətin formalaşması daxildir.

Müasir tarix dərsləri məktəblilərə məlumatları ənənəvi dərsdə oldu kimi, passiv şəkildə yadda saxlamağı deyil, tarixi məlumatlara müstəqil şəkildə əldə etmək bacarığını öyrətməyi nəzərdə tutur.

Ehtimal etmək olmaz ki, şagirdlərin idrak marağı uzun müddət və ya birdəfəlik yüksək olacaq, sadəcə vaxtaşırı maraqlı dərs keçirməyi düşünmək yanlış olar. Burada kompleks yanaşmaya ehtiyac duyulur. İdrak marağı – tədris motivasiyasının vacib komponentlərindən biridir, lakin ona, tədrisin fəal formaları, fəal yanaşma, tədris tapşırığı ilə təlim prosesinin təşkili, inkişaf edən tədrisin prinsiplərinin reallaşması hesabına nail olunur.

Tanınmış psixoloq İ.A.Zimnyaya idrak marağını artırmaq, təhsil motivasiyasının formalaşmasına şərait yaratmaq üçün aşağıdakı amillərin nəzərə alınmasını təklif edir:

- təlimin interaktiv metodları: şagirdlərdə təlimin məzmununa və dərsə maraq oyatmaq üçün zəruri vasitədir – təlimdə təşəbbüskarlıq və əqli sərbəstlik göstərmək imkanıdır. Təlim-tərbiyə prosesində nə qədər fəal/interaktiv metodlardan istifadə olunarsa, bir o qədər şagirdlərdə dərsə marağ artar. Təlimə olan marağın tərbiyə olunmasının əsas şərti – şagirdlərdən fəal araşdırma fəaliyyəti tələb edən tapşırıqlardan istifadə edilməsidir;
- dərsdə problemli vəziyyətin yaradılması, dərs tapşırıqlarının və materialının mürəkkəbliyinin tarazlaşdırılması: şagirdlərdə dərsə olan marağın formalaşmasında, , şagirdlərin mövcud biliklər olmadan həll edə bilmədikləri çətinliyi ilə qarşılaşması, onlar yeni biliyin əldə edilməsinin vacibliyini və ya yeni vəziyyətdə köhnə biliklərin tətbiqinin zərurətinin şahidi olurlar. Məlumdur

ki, dərsdə daimi gərginlik tələb edən işlər şagirdlərin daha çox marağına səbəb olur. Asan material ciddi maraq doğurmur. Dərs tapşırığı və dərs materialının çətinliyi o zaman maraq doğurur ki, həmin çətinlik öhdəsindən gəlinə bilən olsun, əks halda dərsə maraq tez itə bilər (56, s.134).

Aparılan tədqiqatlar göstərir edir ki, adətən bacarıqlı, istedadlı, insanların imkanları anomaliya deyil, əksinə normadır. Burada yalnız insan təffəkürünün faydalı fəaliyyət əmsalının artırılması və təbiət tərəfindən ona verilən geniş və zəngin imkanlardan istifadəedilməsi nəzərdə tutulur. Buna görədə son vaxtlar idrak fəaliyyətinin formalaşdırılması və inkişaf etdirilməsi məsələsi dahaçox aktuallıq kəsb edir.

Koqnitiv (dərk etmə) bacarığı – fərdin reallığı əks edən hadisələri seçim etmək bacarığı və yeni bilik əldə etməyə olan təşəbbüsüilə xarakterizəolunur. Sistematik şəkildə inkişaf edər və möhkəmlənərək , dərk etmə marağı dərsəolan münasibətdə əsas müsbəttəsir göstərir. Koqnitivmaraq axtarış xarakteri daşıyır. Onun təsiri altında şagirdlərdədaim cavabı fəal şəkildə axtardıqları suallar ortaya çıxır. Belə axtarış fəaliyyəti şagirdlərdə maraq oyadır və emosional ruh yüksəkliyi, sevinc yaşadır.

Koqnitiv maraq yalnız dərsə və şagird fəaliyyətinin nəticəsinə deyil, həm də şagirdlərdə zehni proseslərin gedişatına – onlarda idrak maraqlarının təsiri altında xüsusi istiqamətə və fəaliyyətə sahib olan yaddaş, düşüncə, təxəyyül, diqqətə müsbət təsir göstərir (56, s.89).

Koqnitiv marağ təlimin əsaslı vasitəsi kimi çıxış edir. Pedaqoq və psixoloqlar iddia edir ki, müəllimin mühlik səhvi – dərsin darıxdırıcı olmasıdır". Əgər uşaq "kötək zoruna" dərs oxuyursa, bu zaman müəllimdən daha çox zəhmət tələb olunur. Uşaqlar həvəslə oxuyanda, dərs tam fərqli olur. Koqnitiv marağının inkişafı ol-

madan şagirdlərin idrak fəallığınıcanlandırmaq nəinki çətin, hətta mümkünsüz olur. Buna görə, təlim-tərbiyə prosesində sistematik olaraq şagirdlərin koqnitivmarağını oyatmaq, formalaşdırmaq inkişaf etdirmək və möhkəmləndirmək, təlimin əsas şərti kimi, eləcədədə şəxsiyyətin davamlı xüsusiyyəti, həmçinin təlimin əsas vasitəsi kimi böyük əhəmiyyətə malikdir.

Nəzər yetisək, "bilik vermək" və "inkişafa nail olmaq" arasında böyük fərq var. İnformasiyanın mexaniki yadda saxlanılması şagirdlərin öyrəndiklərini bir müddət sonraunutmasınasəbəb olur. Fikrimizcə, yalnız şagirdin tədqiqat nəticəsindəmənimsədiyi və yoxlanılmış biliyi uzunmüddətli həqiqi "irsinə" çevrilir – bizim şüurumuz özü üçün təsdiq olunmuş informasiyaları unutmur.

Bu zaman sual yaranır, bəs tədris prosesinin həm müəllim, həm də şagirdlər üçün maraqlı və səmərəliolması üçün dərs necə qurulmalıdır? Təbii ki, bu suala fəal/interaktiv təlim cavab verə bilər. İnteraktiv təlim, şagirdlərin dərs və dərsdənkənar fəaliyyətində əhəmiyyətli nəticələr əldə etməklə, dərsdə şagirdlərin gərginliyini azaltmaqla və biliyin keyfiyyətini artırmaqla onların fəaliyyətinin payının artması hesabına şagirdinfərdi inkişafını dəstəkləyir.

Şagirdin inkişafı, təhsili və tərbiyəsi ilə əlaqəli konkretproblemin həlli, onların yaş xüsusiyyətləri və şərtləri baxımından nəzərə alınmadan, diqqətlə təhlil edilmədən uğurlu ola bilməz. Psixoloqlar qeyd edirlər ki, yeniyetmə dövründə uşaqlar əvvəl olduğu kimi böyüklərin (müəllimlərin, valideynlərin) davranışlarına deyil, öz həmyaşıdlarının (sinif yoldaşları, dostları) davranışlarına oxşamağa, təqlid etməyə başlayırlar. "Şəxsiyyət" bu mərhələdə formalaşır. Yeniyetmələr bu zaman ictimailəşərək özünütanıma, özünü reallaşdırma və özünüifadə etməyə çalışırlar. Yaranmış vəziyyətdən çıxış yolunu necə tapmaq olar? Yeniyetmələrin fəaliy-

yətini necə təşkil etmək lazımdır ki, onlar dərsə olan maraqlarını itirmədən öz həmyaşıdları ilə işgüzarmünasibət qursunlar?

Şagirdin təlimi, tərbiyəsi və inkişafı ilə əlaqədar istənilən problemin həlli konkret yaş mərhələsi baxımından diqqətli təhlil olunmadan müvəffəqiyyətlə nəticələnə bilməz.

Məktəb şagird şəxsiyyətini formalaşdırmaq üçün təlim və tərbiyə materiallarının ümumiləşdirilməsi  və sistemləşdirilməsi , nöqsanların aradan qaldırılması şagirdlərə müsabiqə və oyun xarakterli üsullardan, fəaliyyətindən (müxtəlif oyunlar, viktorinalar, konkurslar) istifadə etmək imkanı verir. Bu cür dərslərin oyun xarakteri yaradıcı mühit yaradır və şagirdlərin müxtəlif fərdi bacarıqlarını nümayiş etdirilməsinəimkan yaradır. Belə dərslərdə şagirdlərin fəal koqnitiv bacarığı inkişaf edir. Müsabiqə və oyun xarakterli tarix dərsləri dərk etmə marağının formalaşmasına, şagirdlərdə müsbət hisslərin yaranmasına imkan yaradır. Çox vaxt vacib olan nəticə, bilavasitə bu cür tədbirlər deyil, əksinə şagirdlərin  sərbəstliyi, öz aralarında razılaşaraq böldükləri vəzifələri, rolları, təşəbbüskarlığın və yaradıcı bacarıqlarının ortaya çıxmasıdır. Gənc yaşlar üçün müzakirələrdə və mübahisələrdə iştirak etməyə olan meyli inkişaf etdirmək olduqca vacibdir. Aydındır ki, tarixdə "birmənalı" cavabı olmayan bəzi suallar mövcuddur. Bütün bunlar ***diskussiya*** keçirilən zaman müvəffəqiyyətlə istifadə edilə bilər. Bu cür diskussiya 11-ci sinif şagirdləri arasında  "O kimdir – dahi və ya cani?" (İosif Stalin haqqında) mövzusunun öyrənilməsi zamanı təşkil edilə bilər. digər misal, 8-ci sinfində "Siyasətdə kim dahi, kim canidir" (Nadir şah haqqında) mövzulu oxşar diskussiyaya hazırlıq zamanı şagirdlərə əvvəlcədən mövzu üzrə geniş plan təqdim oluna bilər.

Şagirdlərin idrak fəaliyyətinin (koqnitiv marağının) canlandırılması, yaradıcılığın inkişaf etdirilməsi və eyni zamanda müəy-

yən fərdi keyfiyyətlərin inkişaf etdirilməsinin əsas vasitələrindən biri ***layihə*** metodudur. Bu metodun istifadəsi zamanı şagirdlərin idrak fəaliyyətinin canlandırılmasına imkan yaranır. Qeyd etmək lazımdır ki, müəllimin tarix dərsində tədqiqat fəaliyyəti elementlərinin tətbiqi şagirdləri daha yaxşı öyrənməyə və onların idrak fəaliyyətinin inkişaf etdirilməsinə imkan verir. Bu texnologiyanın istifadəsində üç əsas şərt var: təşəbbüskarlıq, fəaliyyət və səmərəlilik. Layihəni icra edərkən şagirdlər qeyri-müəyyən vəziyyətə düşürlər, lakin elə məhz bu vəziyyət, onların koqnitiv bacarıqlarını canlandırır. Layihələrin icrası prosesində müəllimin vəzifəsi aşağıdakı məntiqi ardıcıllığı reallaşdırmaqdan ibarətdir: maraq; seçim; müvəffəqiyyət (müvəffəqiyyətsizlik); ; adekvat qiymətləndirmə (özünüqiymətləndirmə); refleksiya. Bu yanaşma, öyrənmə fəaliyyətləri üçün motivasiyanı qorumağa və inkişaf etdirməyə imkan verir.

Ehtimal etmək olmaz ki, sadəcə sadalananyanaşma ilə yüksək nəticələr əldə etmək olar, nəzərə almaq lazımdır ki bu, işin bütün sisteminin təzahürü deyil. Fikrimizcə, qeyd olunan usullardanistifadə, şagirdlərin tarixin dərk etmə marağını artırmağakömək edə bilər. Hər bir insan düşündüyü zaman müstəqil şəkildə özü üçün yeni bir şey kəşf edir, şagird də həmçinin, tapşırığı həll edərkən özü üçün yeni bir şey öyrənir. İnsan fəaliyyətinin elə bir sahəsi yoxdur ki, orada təfəkkür aparıcı rol oynamasın.

“Təfəkkür – nitqlə sıx bağlı olan psixi proses olaraq analiz və sintez nəticəsində həqiqətin əks etdirilməsidir. Təfəkkür idrakın praktiki fəaliyyətindən əmələ gəlir və onun çərçivələrindən kənara çıxır” (41, s.50).

İnsan düşüncəsi hansı formada həyata keçirilirməsindən asılı olmayaraq – dil, nitq olmadan mümkün deyil. İstənilən fikir nitqlə olan fasiləsiz əlaqədən meydana gəlir və inkişaf edir. Bu

və ya digər fikir nə qədər mənalı və dərin olarsa, o qədər səlis və aydın şifahi və yazılı şəkildə ifadə oluna bilər. Eyni zamandahər hansı bir fikir şifahi şəkildə nə qədər çox təkmilləşərsə, bir o qədər çox bu fikir aydın və səlis səslənər.

Aparılmış təcrübələr zamanı etdiyimiz müşahidələr göstərir ki, bəzi məktəblilər öz fikirlərini ucadan ifadə etməyənə qədər, problemin mahiyyətini dərk etməkdə çətinliklə üzləşirlər. Öz düşüncələrini daha səlis ifadə etdikdə bu cür səsli düşünmə adətən problemin həllini asanlaşdırır. Beləliklə, sözlə ifadə olunması və möhkəmlənməsi sayəsində düşüncə itmir və məhv olmur. O, daha möhkəm nitq formulunda ifahi və bəzən yazılı şəkildə toplanır. Buna görə, yenidən həmin fikirlərə qayıtmaq üçün imkan yaranır. Bu zaman o daha dərindən ətraflı düşünür, yoxlayır və digər fikirlərlə əlaqəsini qurur. Tarixin tədrisi zamanı fəal/interaktiv metodlarından istifadəedilərkən, fikirlər və biliklər sadəcə formalaşdırılmır, eyni zamanda şagirdlərin birgə fəaliyyəti nəticəsində daha da möhkəmlənmiş olur. Bu zaman başlıca rolu daxili nitq oynaya bilər. Beləki, tapşırığı həll edərkən şagird fikrini ucadan deyil, ürəyində səsləndirir, sanki daxildən yalnız özü özüylə danışır.

İnsan təfəkkürü, bildiyimiz kimi, birbaşa dil və nitqlə sıx əlaqəlidir. Təlimin bütün mərhələrində şagirdin qarşısında bütün tarixi dövrlər ərzində kəşf edilmiş və təkmilləşmiş bəşəriyyətin artıq hazır, aydın, qəliz bilik və anlayış sistemi dayanır. Belə ki, bəşəriyyətə artıq məlum olan, lakinonun üçün yeni sayılmayan hər şey, hər bir uşaq üçün yeni sayılır. Baxmayaraq ki o, şagird müəllimin rəhbərliyi altında hazır anlayışlar sistemini mənimsəyir, tarixən toplanmış bilik xəzinəsininin mənimsənilməsi uşaqdan ciddi yaradıcılıq işi və böyük təfəkkür tələb edir. Beləliklə, bu fakt şagirdlərin müəllimlərin köməyi ilə məlum biliyi mənimsəməsini istisna etmir, əksinə uşaqların müstəqil təfəkkürünə eh-

tiyac duyulduğunu vurğulayır. Əldə olunmuş bilik, əks təqdirdə, tam formal, mexaniki və səthi xarakter daşıyar.

Beləliklə, təfəkkür fəaliyyəti – tarixi inkişaf zamanı biliyin qavranılmasının (uşaqlar tərəfindən) və yeni biliklər əldə edilməsinin (ilk növbədə müəllimlər tərəfindən) əsasını təşkil edir.

Ümumtəhsil məktəblərinin qabaqcıl tarix müəllimlərinin təcrübələrinin öyrənilərək ümumiləşdirilməsi göstərir ki, tarixin müasir texniki vasitələrlə, sənədlərlə, bədii ədəbiyyatlarla, tarixi belletristika, və s. öyrənilməsi zəruridir, belə ki bu, tarixə olan marağı artırır, əldə olunan bilikləri dərinləşdirir, ən əsası keçmişin hərtərəfli və daha dolğun qavranılmasını yeni mərhələyə yüksəldir. Tarixin belə səciyyəvi xüsusiyyətlərini və təəssüratlarını heç bir ənənəvi dərs və ya dərslik aşılaya bilməz. Buna görə, real imkanlara malik mənbələrdən istifadə edilməsi zəruridir.

Tarix müəllimlərinin qaşısında yeni materialın qavranması üçün geniş informasiya resursları arasından lazım olan materialı seçmək, əsas müddəaları və tarixi proseslər arasında əlaqələri və prosesin özünü anlamaqda şagirdlərə kömək etmək vəzifəsi durur.

Araşdırmalar "məntiqi" tapşırıqlar sisteminin təkmilləşdirilməsinin zəruri olması qənaetinə gətirib çıxarır. Məsələnin bu cür qoyuluşu zamanı şagird fəal şəkildə müəllimin interaktiv mühazirəsini dinləyir, dərk edir, yadda saxlayır və düşünməyə başlayır. Tapşırıq müxtəlif cür ifadə oluna bilər. O, qiymətləndirməni və onun mahiyyətin üzə çıxarılmasını tələb edə bilər. Bu xarakterlitapşırıqlar yalnız heyakə üçün nəzərdə tutulmur, həmçinin sənədə, şəkilə, cədvələ və tarix dərsinin bütöv mahiyyətinə verilə bilər. Lakin, tapşırığı çətinləşdirmək, xarakterlərini dəyişdirmək lzaımdır ki, şagirdlərin müxtəlif fikirləri formalaşsın və materialın qavranma prosesi düzgün qurulsun.

Təfəkkür –daimyeni bir şeyin axtarışı və mahiyyətinin açıq-

lanmasını nəzərdə tutur. Məktəbdə tarixi tədris edən müəllim şagirdlərin təfəkkür fəaliyyətini öyrənərək onları tarixi hadisələrin təhlilinə yönəltməli, şagirdlərə mühüm hadisələrin təhlilindən düzgün nəticə çıxarmağı öyrətməli və beləliklə tarixi hadisələri, onların səbəblərini - əlaqə və qarşılıqlı əlaqələrinin asılılığını aşkara çıxarılmasına kömək göstərməlidir (66, s. 190-192).

Şagirdlərin təfəkkür fəaliyyətlərinin reallaşmasına geniş imkan yaradan üsullardan biz planlaşdırmanı, müsahibəni, müasir texniki vasitələrdən istifadəni, əyani materiallardan istifadəni, yazılı işləri, müqayisəli təhlili, debat və diskussiyaların aparılmasını, cədvəllər və sxemlərlə işi, dərs oyunlarını və s. təklif edirik.

Şagirdlərdə tarixi təfəkkürü fəallaşdıran, inkişaf etdirən və onlarda əqli fəaliyyəti formalaşdıran tapşırıqlar tarix təliminin metodları, üsullar və vasitələri ilə uyğunluq təşkil edir.

Qeyd etmək lazımdır ki, tarixin interaktiv təlimi prosesində şagirdlərdə nəzəri biliklərin şüurlu mənimsənilməsi (koqnitiv biliklər) ilə yanaşı onlarda cəmiyyətdə qəbul edilmiş əxlaqi-mənəvi dəyərlərə yiyələnmə də mərhələ-mərhələ həyata keçirilir. Təlimin məzmununun elmiliyi, şagirdin həm elmiliyi, həm də tərbiyəsini müasir tələblər səviyyəsində formalaşdırmağa zəmin yaranır.

# XI. TARİXİN İNTERAKTİV TƏDRİSİNDƏ İSTİFADƏ OLUNAN MÜXTƏLİF TƏDRİS MATERİALLARINDAN İSTİFADƏNİN İMKANLARI

*Təqdimat zamanı planlaşdırma metodundan istifadə*

İnteraktiv mühazirə zamanı məntiqi tapşırıqları həll edərkən planın bir mərhələsindən digərinə keçid üçün şagirdlərin lövhədə yazılmış plandan istifadə etməsi məqsədəuyğundur.

Məsələn, 6-cı sinifdə "Albanların yadellilərə qarşı mübarizəsi" mövzusunun öyrənilməsi zamanı romalılara qarşı mübarizə haqqında danışdıqdan sonra müəllim şagirdlərə ritorik suallar verə bilər: "Biz bu cür çətin vəziyyətdən necə çıxmışıq?", "Bundan sonra Azərbaycan hansı hücumlara məruz qaldı?" Bu suallar şagirdlərin diqqətini planın ikinci maddəsinə – "Şimal tayfalarının Azərbaycana hücumu" yönəldir. Bu idrak məsələsini isə şagirdlər yalnız müəllimin mühazirəsinin ikinci hissəsini və ya yoldaşının məlumatını diqqətlə dinləməklə həll edilə biləcək. Plana müəllim refleksiya zamanı da qayıdır.

- Bugünki dərsdə biz nə öyrəndik? – sualı ilə müəllim "Feodal münasibətlərinin inkişafı" mövzusunu tədris etdikdən sonra 7-ci sinif şagirdlərindən soruşur.

Plandan istifadə etməklə şagirdlər öyrənilmiş mövzunun əsas məqamlarını seçirlər:

- Azərbaycan mədəniyyətinin Sasanilər mədəniyyəti üzərində güclü təsiri olmuşdur;
- V əsrdə alban dilində fərman tərtib olunmuşdur;
- Albanların dini görüşləri və inancları;
- Həmin dövrdə albanların memarlığı;
- Türk tayfalarının təşəkkülü.

Hər müəllim öz təcrübəsində şagirdlərdən: "Mən oxumuşam, lakin mövzunu danışmağı bacarmıram" (dərs ənənəvi metodla keçirilərkən) etirafını eşidə bilər. Aparılan təcrübələrdən aydın oldu ki, uşaqlar sadəcə paraqrafı mexaniki əzbərləyir və buna görə də yaxşı cavab verə bilmirlər. Şagirdlərə dərsi plana əsasən cavab vermək təklif olunduğu halda onların cavablarında fərq hiss olunur. Plandan istifadə etdikdən sonra şagirdlərin cavabları daha səlis olur.

Müşahidələrin yekununa görə belə nəticəyə gəlmək olar ki, planın tətbiqi məlumatın müzakirəsi zamanı sinifin kollektiv şəkildə fəaliyyət göstərməsinə, siniflə frontal sorğu zamanı təqdimatın səmərəli qurulmasına imkan yaradır. Dərs materialının plan üzrə ardıcıl şəkildə mənimsəyərək şagirdlər yoldaşlarının cavabını daha diqqətlə dinləyir, qarşılarında plan olduğu halda (və ya onu yadda saxlamaqla) onlar rahat şəkildə unudulmuş məqamları və nöqsanları müşahidə edir və onun təhlilində fəal iştirak edirlər.

Unutmaq olmaz ki, təqdimat zamanı müəllim yalnız plan üzrə qısa cavablarla kifayətlənərsə bu şagirdlərin biliyində mexaniki əzbərləməyə gətirib çıxara bilər. Buna görə şagirdlərdən verilmiş məsələ üzrə dolğun ifadəyə, verilmiş bütün materiallardan istifadə etməklə məlumatın doğruluğunun və əsaslılığının sübut olunmasına nail olmaq zəruridir. Eyni zamanda vurğulanmalıdır ki, plan üzrə müzakirəni hər konkret hadisədə qarşımıza qoyduğumuz məsələ və ya mövzunun öyrənilməsinin konkret mahiyyətindən asılı olaraq başqa metodlarla dəyişdirməyə ehtiyac vardır. Plan üzrə cavab verməyi öyrənərək şagirdlər müzakirə hətta plansız aparılanda belə dolğun cavablar verməyi öyrənirlər.

Şagirdlərin təfəkkürünün canlanması üçün öyrənilən mövzu üzrə şagirdlərin fəal iştirakı ilə tərtib olunmuş planının olması zəruridir. Buna görə şagirdləri plan qurmağa mümkün qədər çox

cəlb etmək lazımdır. Dərsə başlayarkən şagirdlərə bu sualla müraciət etmək məqsədəuyğun olardı: “Yeni mövzunu öyrənərkən biz nəyi öyrənəcəyik?” Bəzən bu sual ritorik qurulur və müəllim həmin məsələ ilə bağlı şagirdlərin biliyini cəmləşdirir. Sualın bu cür qoyuluşu şagirdlərdə fəal təfəkkürü oyadır, onlar təqdim olunmuş materialı mexaniki deyil, şüurlu şəkildə qavrayaraq dərsləri daha diqqətli izləyirlər.

Öyrənilən mövzunun mahiyyətindən, vaxtından və yerindən asılı olaraq bəzən planı dərs zamanı şagirdlərlə birlikdə qurmaq daha məqsədəuyğundur: “Dərsin birinci hissəsində biz nə haqda danışdıq? Orada daha əsas nə idi? Əsas fikiri bir cümlədə qısa və aydış şəkildə necə ifadə etmək olar?” – müəllimlər tərəfindən verilmiş bu cür suallar şagirdlərin diqqətini canlandırır, öyrənilən materialın daha şüurlu qavranmasına gətirib çıxarır, onların məntiqi təfəkkürünü inkişaf etdirir.

***Müsahibə metodlarından istifadə***

Tarix dərslərində, xüsusilə də 5-9-cu siniflərdə şagirdlərin təfəkkür fəaliyyətinin inkişafı üçün müsahibə metodlarından və ya tədrisin digər metodlarından istifadə etməklə yanaşı müsahibə elementlərininin tətbiqi böyük əhəmiyyət kəsb edir. Müsahibə – müəyyən mövzu üzrə dialoq, eyni zamanda insanların fikirlərinin mübadiləsidir. Müsahibənin elementlərindən interaktiv mühazirə zamanı, tarixi sənədlərdən istifadə və ya bədii ədəbiyyat əsərlərinin təhlilində istifadə oluna bilər. Müsahibədən yeni materialın öyrənilməsi, mənimsənilməsi və daha sonra sorğu-sual zamanı istifadə olunur. Öyrənilən materialın analiz və sintezini tələb edən məsələlər şagirdləri məlum faktlardan şüurla istifadə etməyi, onların arasından həmin mövzuya aid olanları seçməyi və qoyulmuş tapşırığın müstəqil şəkildə həllini tələb edir.

Məsələn, X sinfində “Azərbaycan XIX əsrin 60-90-cı illərin-

də" bütöv bir fəsilin təkrarı zamanı şagirdlər kənd təsərrüfatının və sənayenin inkişafını təhlil edirlər. Burada əkinçilik, kənddə ictimai əlaqələr, neft sənayesində yenilik, ipəyin emalı sənayesi, əlaqələrin, nəqliyyatın inkişafı və s. təhlil olunur. Bütün bunlar təhlil olunduqdan sonra yekun nəticə ümumiləşdirilir və XIX əsrin 60-90-cı illərində Azərbaycanın kənd təsərrüfatı və sənayesinin vəziyyəti xarakterizə olunur.

Müsahibə zamanı təhlil və ümumiləşdirmə metodları problemli vəziyyət yaradır. Onun həlli üçün şagirdlər qarşısına ayrı-ayrı mövqelərin sübuta yetirilməsi və ya təkzib edilməsi üçün tapşırıqlar qoyulur. Şagirdlərin tarixi hadisələri müstəqil şəkildə izah etməsi onların inkişaf etməkdə olan keyfiyyətlərin göstəricisidir.

Məsələn, XI sinfində Ümumi tarix kursunda "İkinci Dünya müharibəsi. Faşist blokunun üstünlüyü və Müharibədə dönüş və faşist blokunun məğlubiyyəti" mövzularının təkrar-ümumiləşdirici dərsi zamanı problemli məsələ qoyulur. Giriş olaraq müəllim şagirdlərə 1941-1945-ci illərin hadisələrini yada salmağı təklif edir. Bildiyimiz kimi, həmin vaxtlarda SSSR-in müstəmləkəsi olan digər 14 respublika kimi Azərbaycan da həmçinin "bəşəriyyət düşməni"nə qarşı müharibəyə qoşuldu. Burada müəllim "Düşmənimin düşməni-mənim dostumdur" atalar sözündən istifadə edir və sualla şagirdlərə müraciət edir. Həmin vaxt Azərbaycan SSSR-nin müstəmləkəsi idi, bəs nəyə görə qələbəyə nail olmaq üçün çoxlu sayda itki verdi və bu cür çətinliklərlə üzləşdi? Azərbaycanın Almaniya əleyhinə olan müharibədə iştirakı doğru idimi?

Qoyulmuş suallarla bağlı müxtəlif baxışlar və rəylər formalaşır. Müzakirə zamanı şagirdlərin bir hissəsi "doğru idi", digər hissəsi "yanlış idi" fikrini qətiləşdirir. Müzakirə zamanı müəllim neytral mövqe tutur və onun rolu sadəcə dərs prosesinə nəzarəti

həyata keçirmək olur. Həmin vəziyyətdə müəllim "kənar müşahidəçi" rolunu oynayır.

***Şagirdlərin əyani materiallarla işi***

Tarix dərslərində şagirdlərin təfəkkür fəaliyyətlərinin inkişafı üçün uzaq keçmişin tarixi hadisələri haqqında konkret təsəvvür yaratmağa kömək edən əyani materiallardan düzgün istifadə çox böyük əhəmiyyətə malikdir. Aparılmış tədqiqatlar göstərir ki, əsas əhəmiyyətli rolu əyani materialın fəal şəkildə qavranmasının təşkili oynayır, belə ki bu proses şagirdlər tərəfindən əyani materiallarda təsvir olunan həmin tarixi hadisələrin mahiyyətinin açıqlanması ilə birgə baş tutur.

Etiraf etmək lazımdır ki, əyani vasitələr 6-7-ci siniflərdə tarixin öyrənilməsində xüsusi əhəmiyyətə malikdirlər. Öyrənilən hadisənin qavranılması məqsədilə şagirdlər özləri üçün müxtəlif əyani vasitələrin köməyi ilə konkret təsəvvür yaratmalıdırlar.

Daha aydın və qeyri-adi təəssüratlara olan tələbat nəinki uşağın diqqətini cəlb edir, eyni zamanda onun daxili dünyasının zənginləşməsinə, yaradıcılığına və inkişafına üçün zəmin yaradır.

Əyani material bədii-əyani təfəkkürün inkişafında böyük rol oynayır. Tarixin tədrisində tarixi mənzərələrin mürəkkəb süjetlərindən istifadəyə ehtiyac duyulur. Onların tərkibinin aydın təhlili şagirdlərin dərk etməsi və bütün öyrənilmiş materialı dərindən qavranması üçün zəmin yaradır.

Bildiyimiz kimi, əyani materialdan istifadəni, tarixi mənzərələrin təsvirini, dərsliyin mətni və şəkilləri ilə işi şagirdlərin idrak fəaliyyəti olmadan təsəvvür etmək mümkün deyil. İdrak fəaliyyətin üç səviyyəsi qeyd etmək olar:

1. Təkrar etmə səviyyəsində əsas anlayışların, təriflərin, xülasələrin, qoyulmuş sualların cavablarının yazılmasını, mövzunun təkrar danışılmasını və dəqiqləşdirilməsini tələb edən, öyrə-

nilmiş faktların, hadisələrin yadda saxlanılmasını, sənədlərin kollektiv şəkildə çeşidlərə ayrılması zamanı nümunələr üzrə sxemlərin, cədvəllərin doldurulmasını, şagirdlərə bildiyi sadə planın tərtibatını təklif edir.

2. Yenidən təşkil etmə səviyyəsində suallar və tapşırıqlar şagirdlərin sənəd üzrə danışmasını, nəzəri materialın (müstəqil seçmə, faktların, ideyaların qruplaşdırılması, öyrənilən mövzunun açılması üçün cəlb olunması), geniş planın, tezislərin, konspektlərin, mövzu cədvəllərinin, sxemlərin, kiçik referatların, məruzələrin tərtibiqini nəzərdə tuta bilər.

3. Yaradıcı axtarış səviyyəsində bir neçə sənədin dərk olunması və müqayisəsini tələb edən məsələlər təklif edilir; cədvəllərin, məntiqi zəncirlərin müqayisə xəttinin müəyyən olunması; öz mövqeyini sübut etmək üçün nəzəri müddəalardan və mübahisəli problemlərin müzakirəsindən istifadə olunur.

Yeni biliklərin mənimsənilməsi zamanı şagirdlərin təfəkkürünün inkişaf etdirilməsi üçün həm dərsdə, həm də ev tapşırığının yerinə yetirilməsi zamanı dərsliklərin illüstrasiyaları böyük əhəmiyyət kəsb edir. Dərslik mətni ilə əlaqəli olan şəkillər xüsusilə dəyərlidir. Şəkillərə verilən qısa izahedici mətnlər də bu baxımdan çox dəyərlidir. Onlar şagirdlər tərəfindən öyrənilən materialın analiz olunmasına və daha dərin mənimsənilməsinə kömək edirlər. Dərsliklərdə verilən şəkillər həm müəllim, həm də şagirdlər üçün ən kütləvi və ən əlverişli vasitədir. Şəkillərin əksəriyyəti dərsdə öyrənilən dövrü əks etdirir. Məsələn, müəllim şagirdlərə «Eldənizlər dövləti» və «XV əsrdə Azərbaycan» xəritələrindən istifadə edərək müqayisə etmək üçün tapşırıq verir və aşağıdakı plan üzrə məlumat hazırlamağı tapşırır:

- birinci xəritədə Azərbaycanın ərazisini göstərin;
- ikinci xəritədə Azərbaycanın ərazisini göstərin;

- XV əsrdə ticarətin inkişafına hansı faktorlar təsir etmişdir;
- ticarətin, sənətkarlığın və kənd təsərrüfatının zəifləməsi arasında qarşılıqlı əlaqəni izah edin;
- ticarətin zəifləməsi dövlətin qüdrətinə necə təsir göstərdiyini izah edin.

Şagird üçün dərslikdə verilən şəkil konkret tarixi hadisəsini təsvir etmək üçün dəyərli mənbədir. Orada bizim əcdadlarımızın yaşayış tərzini, təsərrüfatının inkişafını və s. şagirdlər şəkillərdən istifadə edərək vizual təsəvvür edə bilərlər. Onlarla işləyərək 6-cı sinifdən başlayaraq şagirdlər öyrənilən tarixi hadisənin təsvirini analiz etmək imkanını özü-özündə inkişaf etdirir və böyük tarixi informasiyanı əldə etmək üçün bütün mümkün şəkillərdən istifadə edirlər. Dərsliklərdəki şəkillərlə işləyərək konkret təsvirin həm şifahi həm də yazılı təsvirini vermək mümkündür.

Dərslikdə verilən şəkillərinin öyrənilməsi müəllimə dərsin hansı məqamlarında lazım olan şəkillərə şagirdlərin diqqətini yönəltməsini və hansı işi aparmasını müəyyən etməyə imkan yaradır. Şagirdlərin müstəqil işi üçün onların təfəkkür fəaliyyətlərinin inkişafı üçün ən vacib olanlarını seçmək zəruridir.

Tarixin öyrənməsi zamanı yazılı işlər böyük əhəmiyyətə malikdir. Onlar fənni daha yaxşı mənimsəməyə, şagirdlərin idrak fəallığını inkişaf etdirməyə, onlarda yaradıcılığı, diqqəti, təxəyyülü, onların yaddaşlarında öyrənilən mövzunu möhkəmləndirməyə kömək edir və şagirdləri hər zaman axtarış vəziyyətində olmağa vadar edir.

Yazılı işlərin ən geniş yayılmış növü müstəqil işlərdir. Onlar öz növbəsində müəllim tərəfindən təqdim olunan mövzu üzrə tarixi şəkillərin izahlı təsviri (məsələn, səyyahın hər hansı ölkəyə, şəhərə səyahəti haqqında təsvirləri), həmçinin şəkillərin, sxemlərin, xəritələrin təsvirləri və s. bölünürlər.

Bu işlərin üzərində daha ətraflı dayanmazdan əvvəl, «təsvir» anlayışı üzərində dayanaq. Təsvir elmi təriflərin çevirilmiş formasıdır və obyektin bir çox əlamətini göstərir. Təsvirlərin formaları müxtəlifdir. Onların məğzi obyektin mahiyyətini sadalamaqdan ibarətdir. Ənənəvi təsvirin əsas formaları, təqdim edilən şifahi, qrafik, bədii, yazılı təsvirlər kimi təqdim olunur. Təsvirin rəsmi forması obyektin şifahi, verbal, «keyfiyyətli» hekayə xüsusiyyətindən ibarətdir.

Tarix dərslərində yazılı işlər, tarixi şəkillərin və illüstrasiyaların izahlı təsvirlərini aparmaq zəruridir. Şagirdlərə tək tarixi hadisəni əks etdirən şəkili təsvir etmək deyil, həm də bu tarixi hadisə haqqında danışmaq, yəni şagirdin təfəkkürü iki məsələnin həllinə yönəlir. Birinci məsələ şəkili təsvir etmək, ikinci problem şəkildə təsvir olunmuş tarixi hadisə haqqında danışmaq.

Tarix dərslərində şagirdlərin təfəkkür fəaliyyətinin inkişafına həmçinin mətnlərlə iş üsulu kömək edir. Təlim prosesində dərsliyin mətni ilə işə əhəmiyyətli yer ayrılır, belə ki, məhz mətn tarixi biliklərin əsas mənbəyi sayılır. Mətnlə işləyərkən müəllim ilk növbədə hər paraqrafın məzmununu və strukturunu öyrənməlidir. Şagirdlərin müstəqil işi üçün dərsdə bilavasitə mətndən verilən fraqmentləri seçmək lazımdır. Mətnlərlə işləyərkən hər sinifin mənimsəmə qabiliyyəti, müstəqil işləmə imkanları da nəzərə alınmalıdır.

Mətnə verilən tapşırıqlar, fənnin digər təlim mərhələləri ilə birlikdə keçirilməlidir. Müxtəlif siniflərində tapşırıqların nəticələrinə verilən tələblər müxtəlifdir. Belə ki, 5-ci sinif şagirdləri üçün mətnlə iş sadə suallara cavab vermək, mətni oxumaq, nağıl etmək və s. ibarətdir. Mətnin oxunması şagirdlərin monoloji nitqinin inkişafına kömək edir. 6-11-ci sinif şagirdləri üçün mətnə verilən tapşırıqlar tədricən mürəkkəbləşir.

Şagirdlərin təfəkkür fəaliyyəti yeni mərhələyə keçir. Şagirdlər mətnə verilən yazılı mənbələri analiz edir, tarixi hadisələr ateria əlaqəni müəyyən edir, qoyulmuş suallara istinad edərək dərsliyin paraqraflarını öyrənirlər. Mətnlə işin imkanlarının həcmi dəyişir, mətnlər dərsdən dərsə, sinfə sinifdən genişlənir. Şagirdlər böyüdükcə, daha çox işləyir (həll edir), mətn tarixi biliyin başqa mənbələrinə kombinasiyada onları cəmləşdirir, mətn komponentlərindən özündə saxlayan informasiyaya illüstrasiyalara, sənədlərin fraqmentlərinə qoya bilər və yeni materialın oxumaq ərzində və təkrarda ötürə bilir. Dərslik mətnləri ilə məsələlərin iki tipi var. Bu əvvəl, məsələlər konkret cavabı (məsələn istənilən terminin tərifini tapmaq) üçün tələb etmək və ikincisi, mətndə istənilən fraqmentin ehtiyatlı tədqiqini tələb edən məsələlər.

Birinci halda şagirdlər yalnız müəllimə yox həm də dostlarına qulaq asır, həmçinin verilən saulın cavabını tapmaq üçün kitabda verilmiş mətndə onu axtarırlar. Yeni mövzunun oxumaq ərzində, müəllim diqqəti mətndə, terminin və ya anlayışın qısaca və tərkiblərindən sitat  kimi yerinə yetirə bilər. Belə metod mövzuya şagirdlərin diqqətini qaldırır, biliyin müstəqil qazanılmasında onları yönəldir, buna baxmayaraq məktəblilər dərslik mətni ilə tanış olamağı da zəruridir. Dərs ərzində müəllimin müəyyən hədəflərin qərarında şagirdlərdən fikirləşməyi tuşlamaqda aktiv rol olmalıdır, Müəllim bu halda fasilitator rolunu yerinə yetirir, yəni vacib materialın oxumağa onları yönəldir. Belə dərsdə dərslik mətni ilə işləyin məktəbdə tarixin bütün tədqiqi boyu əhəmiyyəti saxlayır.

***Dərsliklə iş***

Dərslik mətnləri ilə iş şagirdlər üçün əsasdır, lakin təlim prosesində yeganə bilik mənbəyi deyil. Dərsliyin mətndənkənar elementləri ilə iş, yəni tarixi sənədlərin fraqmentləri, salnamələrdən sitatlar, müasirlərin qeydləri və s. böyük əhəmiyyət kəsb edir.

Təəssüf ki, 1934-cu ildən islahatlarından sonra sənədli materiallar tarixin dərsliklərindən tamamilə çıxarılmışdır. Buraxılan sənədlərin topluları müəllim və tələbələr üçün nəzərdə tutulurdu və məhz buna görə də şagirdlərin tarixi sənədlərlə işi entuziast müəllimlər tərəfindən həyata keçirilirdi (84, s.45-47).

Belə ki, tarixi sənədlərlə işləyərkən şagirdlərdə elmi bilik metodları inkişaf edir. Məsələn, hər hansı bir sənədi təhlil edərkən onlar müəyyən tarixçinin müxtəlif metodlarından istifadə edir, məsələn mənbələrin müqayisəli analizini aparır.

Məsələn, 7-ci sinifdə müəllim orta əsr ərəb səlnamələrindən iki fraqmenti oxumağı şagirdlərə təklif edir. Bu salnamələr üsyanlar haqqındadır. Üsyanlar Azərbaycanda VIII-IX əsrlərin sonunda baş vermişdi.

Birinci salnaməçi: «tezliklə xilafətin bir çox ərazilərində böyük üsyanlar baş verdi. Allah Bizə kömək etməsəydi bu yaramazlar çoxalardı və bütün alicənab əsgərlər və bütün varlı adamları məhv edərdi…»

İkinci salnaməçi: «kəndlilərin arasında yoxsulluq onsuzda hökm sürüldü, ərəblər qaydaları daha da sərtləşdirərək, kəndlilərin əlindən mülklərini alaraq onların kasıb həyatını daha da ağırlaşdırırdı. Ərəblər tərəfindən edilən bu zülmə dözməyən əzab çəkən adamlar fəlakətləri və sıxıntıları görərək müxtəlif istiqamətlərdən yadelllilərə qarşı qalxmışdır. Xarici təcavüzkarlara qarşı silah ilə hərəkətə başladıqdan sonra, onlar tezliklə əhəmiyyətli qüvvəni təşkil edə bildilər»…

Müəllim şagirdlərə səlnamələrində olan iki fraqmenti müqayisə etməyi və müəlliflər haqqında fikirlərini bildirməyi tapşırır.

Şagird: «Birinci salnaməçi Ərəb feodallarına və zəngin adamlara rəğbət bəsləyir. İkinci salnaməçi üsyana qalxmış kəndlilərin halına acıdığını və onların hərəkətlərini dəstəklədiyini müşahidə

olunduğunu bildirir».

Müəllim: "Bu üsyan haqqında danışarkən hər iki müəllifin xəbərləri hansı nöqtədə birləşir?"

Şagird: «Hər iki müəllifi o cəhət birləşdirir ki, bu üsyanlar antifeodal xarakteri daşıyır və ölkədə geniş miqyasda yayılmışdır» və s.

Şagirdlərə müxtəlif mənbələrin müqayisəli analizini aparmaq təklif olunur. Onlar təsvir baxımından fərqlidir, lakin hər ikisi eyni üsyanı təsvir edir. Şagirdlər, sənəddən fraqmenti öyrənərək, hadisələrin tənqidi analizi aparır, bu isə onlarda məntiqi təfəkkürü fəallaşdırır. Onlarda üsyan haqqında öz fikirləri formalaşır.

Müasir tarix dərsində mənbələr üzərində tənqidi işsiz təsəvvür etmək mümkün deyil. Bu işlər şagirdlərdə tarixi öyrənməkdə xüsusi bacarıqların formalaşmasına imkan verir.

Nəticə olaraq deyə bilərik ki, tarixi sənədlərin cəlb olunması tarixi materialların konkretləşdirilməsinə, keçmişin parlaq obrazların yaradılmasına, şagirdləri öyrənilən dövrün mühitinə daxil etməyə, onlara dilimizi, dinimizi, dövrün ruhunu hiss etməyə imkan yaratdı; şagirdlərə təqdim olunmuş tarixi sənədi analiz etmək üçün çox gözəl material oldu; sənədlə iş onların düşüncəsini fəallaşdırdı, onlara tarixi hadisələri anlamağı öyrətdi, onlara hər vətəndaşa lazım olan müasirliyin ən əhəmiyyətli ictimai-siyasi sənədlərini anlamaq bacarığını aşılamağa kömək etdi.

***Müqayisə metodundan istifadə***

Şagirdlərin təfəkkür fəaliyyətinin inkişafında böyük rolu müqayisələr oynanır. Təsadüfi deyil ki, görkəmli pedaqoq K.D.Uşinski deyirdi ki, «Didaktikada müqayisə əsas metod olmalıdır».

Müəllim oxşar faktların ümumi və fərqləndirici əlamətlərinə görə müqayisəsini apararaq şagirdləri hadisələrin ümumi-

liyini anlamağa gətirir. Beləliklə, şagirdlərdə tarixi təsəvvürlərin formalaşması həyata keçir. Şagirdlərdə təsəvvürlərin formalaşması və təkmilləşdirilməsi tarixin öyrənilməsində vacib əhəmiyyətə malikdir.

Tarix müəllimləri müqayisə metodunu müntəzəm olaraq tətbiq edir. Müqayisə metodu müxtəlif xarakterli idrak məsələlərinin həllində tətbiq olunur. Hər şeydən əvvəl, iki və ya daha çox illüstrasiyanın müqayisəsi onların mövcud əhəmiyyətli əlamətlərini müəyyən etməyə kömək edir (87, s. 102).

Müəllim müqayisə metodundan istifadə edərək şagirdlərə öyrənilən hadisənin oxşar, mühüm əlamətlərini qeyd etməyə və ümumiləşdirməyə kömək etdi. Tarix təlimində müqayisə dərsin bütün mərhələlərində geniş tətbiq olunur. Lakin bu metod dərsin son hissəsində və təkarar-ümumiləşdirici dərs zamanı bir neçə bölmənin təkrarında xüsusilə əhəmiyyətlidir.

Bir sinifin şagirdlərinin cavablarını digər sinifin cavabları ilə müqayisə edərək bu metodun üstünlüyünə inanırıq.

Müəllimin sualları şagirdləri məntiqi düşüncələrə cəlb edir, onlar müqayisə edir, düşünür və nəticə çıxarılar. Beləliklə, müəllim qərarın qəbul olunması prosesində şagirdlərə köməkçi rolunu oynayır.

***Atlas və xəritə ilə iş***

Tarixin öyrənilməsi zamanı təfəkkür fəaliyyətin inkişafında əsas rolu atlas və xəritə kimi vəsaitlər oynayır.

Tarixi atlaslar və xəritələr dövlətlərin yaranması, onların ərazilərinin dəyişilməsi, dövlətlərin bir-biridən asılılığının müxtəlif formalarını, əhalinin məskunlaşdığı ərazilərini, sinfi mübarizələrin ərazilərini, hərbi yürüşlərin istiqamətlərini, mübaribə və döyüş yerlərini, iqtisadi xarakterli məlumatları, səyyahların marşrutlarını və s. kimi məlumatları özündə əks etdirir. Tarixi atlaslar

və xəritələr aşağıdakı kimi olurlar:

1. ümumi xəritələr – özündə müəyyən tarixi inkişaf zamanında dövlətin və ya bir qrup dövlətin tarixi hadisələrinin gedişini əks etdirir,

2. icmal (xülasə) xəritələri – öyrənilən hadisənin inkişafında bir sıra ardıcıl anları əks etdirir, əksər hallarda uzun müddətli dövr üçün ərazi dəyişikliklərini;

3. tematik xəritələr – müəyyən hadisə və ya tarixi prosesə həsr edilir.

Şagirdlərin təfəkkür fəaliyyətini formalaşdıran bəzi xəritələrlə iş üsulu nəzərdən keçirək.

Məsələn, 7-ci sinifdə «Qaraqoyunlu dövləti» mövzusunda keçirilən dərsdə «Azərbaycan XIII-XIV əsrlərdə" və «Azərbaycan XV əsrdə» adlı xəritələrdən (proyektorla nümayiş etdirilir) istifadə edərək suallara cavab vermək üçün məsələ verilir:

- Azərbaycanın ərazisində göstərilən müddət ərzində nə kimi dəyişikliklər baş vermişdi;
- Birinci xəritədə Azərbaycan ərazisində neçə dövlət mövcud idi;
- İkinci xəritədə ərazi necə dəyişmişdir?
- Necə fikirləşirsiniz, bu hadisələrdən hansı Azərbaycanın ərazisində ticarətin inkişafı üçün əlverişli şərtlər yarada bilərdi?
- ikinci xəritəyə üzrə cavab verin: XV əsrdə Azərbaycan ərazisində ticarətin inkişafına nə kimi maneələr ola bilərdi?
- ticarət, sənətkarlıq və kənd təsərrüfatı arasında nə kimi əlaqə mövcuddur?
- ticarətin zəifləməsi kənd təsərrüfatına necə təsir göstərə bilərdi?
- kənd təsərrüfatının zəifləməsi sənətkarlığa necə təsir göstərə bilərdi?

- kənd təsərrüfatı, sənətkarlıq və ticarət birlikdə necə adlandırılır?
- iqtisadiyyatın zəifləməsi dövlətin gücünə necə təsir edə bilər?
- incəsənət, elm və təhsil ilə dövlətin gücü arasındakı əlaqə nədən ibarətdir?
- bu sualların cavablarına müvafiq olaraq deyin: Azərbaycanda iqtisadiyyat, elm və incəsənət XIII-XIV əsrlərdə yoxsa XV əsrdə daha çox inkişaf etdirə bildi?

Xəritə ilə işləməyi qruplarda da təşkil etmək olar. Bu məqsədlə sinif qruplara bölünür və hər qrupa yuxarıda qeyd olunan suallardan verilir. Şagirdlər qruplarda cavablar hazırlayır. Təqdimatdan sonra qrupların cavablarının müzakirəsi təşkil olunur.

Qeyd etmək lazımdır ki, xəritələr ənənəvi dərsliklərdə də verilir, lakin onlarda olan informasiya çox sadə olur və şagirdləri dərin düşünməyə sövq etmir. Xəritələrə interaktiv dərsliklərdə daha çox əhəmiyyət verilir. Nümunədən görünür ki, suallara cavab verən şagirdlər əvvəllər əldə etdikləri bilikləri tətbiq edirlər. Xəritələri müqayisə edərək şagirdlər onlarda verilən fərqi dərk edir, iqtisadiyyatda, ticarətdə, elmdə, incəsənətdə, kənd təsərrüfatında baş verən siyasi dəyişikliyin təsirini görür və başa düşürlər.

***Tədris (maarifləndirici) oyunları***

Tarixin interaktiv tədrisində xüsusi yeri təlim oyunları tutur. Bəzi pedaqoq və psixoloqlar (R.Xəlilov, M.Əmirov, İ.Cəbrayılov, R.Məlikov, Z.Veysova Y.Azarov, D.Elkonin, və s.) qeyd edir ki, dəsrlərdə oyunların tətbiq edilməsi qeyri-ənənəvi vəziyyət yaradır, şagirdlərdə qeyri-rəsmi mühitə düşür, bu isə informativ marağın inkişafına səbəb olur, şagirdlərin dərin və güclü biliyi formalaşdırır, emosional və intellektual sahəsi inkişaf etdirilir. Oyun ərzində, şagirdlərin qarşısında təlim məqsədi oyun formasında

meydana çıxır. Bu zaman aşağıdakı məsələlər yerinə yetirilir:

- rollu oyunlar zamanı şagirdlər qruplara bölünür – rolu oynayanlar və analiz prosesində iştirak edən müşahidəçilər qrupuna. Dərs-oyun zamanı hamının iştirakı vacib şərtdir, çünki qarşılıqlı təsir təlimin əsas elementi kimi çıxış edir.
- rollu oyunda iştirakçılara həll edilməli olduqları problem və ya situasiya verilir.

Psixoloqlar hesab edir ki, rollu oyun zamanı şagirdlər özünü tarixi personajın yerinə qoymaqla, onu dərk edir, onun dərdinə şərik olur, bunlar isə insanın empatik rolu əsasında mümkün ola bilər.

Rollu oyunların keçirilməsinin səmərəliliyi yalnız tarixi biliklərin təşkil olunmasının səviyyəsindən deyil, həm də şagirdlərin ümumi və spesifik bacarıqlarından, , müəyyən psixoloji hazırlığından da asılıdır (77, s. 82).

Rollu oyunu tətbiq etməzdən əvvəl hazırlıq aparmaq lazımdır:

1. şagirdlərin əvvəlki dərslərdən əldə etdikləri biliklərdən istifadə etmə imkanlarını qiymətləndirmək;
2. tarixi vəziyyətin təhlil etmə bacarıqlarına imkan yaratmaq;
3. öyrənilən mövzunun aktual problemlərini göstərmək və təhlil etmək;
1. şagirdlərə tarixi personajı və ya hadisəni qiymətləndirmək imkanını yaratmaq;
2. öz mövqeyini formalaşmaq əlverişli imkan yaratmaq.

Rollu oyunları tətbiq edərək tarix dərslərinin keçirilməsi mühüm əhəmiyyətə malikdir, çünki rollu oyunlar:

1) əsasən təxəyyülün, tənqidibacarıq və vərdişlərinin inkişaflına geniş imkanlar açır;
2) şagirdlərə öz fikrini və münasibətini ifadə etməyə kömək edir;

3) şagirdlərin kommunikativ bacarıqların inkişafına səbəb olur;

4) şagirdlərə yoldaşlarının davranış xəttini təcrübədə yoxlamağa imkan verir;

5) şagirdlərə problemi həll etmək bacarığının artıq təcrübədə tətbiqinə yol verir;

6) şagirdlərdə dəyərlərin formalaşmasına və s. kömək edir.

Unutmaq lazım deyil ki, oyun xarakterli dərsin əsas hissəsi oyuna yekun vurulmasıdır. Bu zaman istifadə olunacaq mümkün suallar:

1. Problem həll edildimi? Bu necə həll olundu?
2. Sizcə hansı başqa xətti seçmək olardı?
3. Siz qarşı tərəfin davranışını necə qiymətləndirə bilərsiniz?
4. Qarşı tərəfin hərəkətlərində ən düzgün olanı nə idi?
5. Qarşı tərəf hansı səhvlərə yol verdi?

Müəllim tərəfindən oyunların düzgün təşkil olunması onun səmərəliliyini artırır və şagirdləri orada fəal iştirak etməyə sövq edir. Oyun vəziyyəti prosesin maraqlı olmasından, onun məzmununa maraq, qaydalara hər kəsin, həmçinin müəllimin tabe edilməsi, yekunlaşdırma və iştirakçıların fəaliyyətinin qiymətləndirmənin s. kimi faktlardan formalaşır.

Rollu oyunun keçirməsinin əsas məqsədi – öyrənilən mövzunun problemləri haqqında şagirdlərdə təsəvvür üçün şərait yaratmaqdan ibarətdir. Oyun şagirdlərin dərsin problemlərinə subyektiv münasibətinin formalaşmasının, problemlərinin dərk etməsinə intensiv işi üçün xüsusi layihələşdirilmiş tədris meydanıdır (66, s. 198).

Rollu oyunun nəticələri:

- oyun şagirdlərin hazırlıq səviyyəsini, onların nəzəri hazırlığını qiymətləndirməyə geniş imkan yaradır və eyni zamanda onları aktiv düşünməyə və problemli vəziyyətlərdən həllində yol axtarmağa sövq edir;
- oyun aparılması göstərir ki, dərsə diqqətsiz olan şagirdlər oyunda iştirak etdikdən sonra «bitərəfliklərini» tənqidi qiymətləndirə bildi. Əksər şagirdlər dərsdə öz aktiv iştirakının vacibliyini dərk etdilər;
- oyun şagirdləri dərsin aktiv iştirakçısı edərək tarixi vəziyyətin təhlilinin mümkün metodlarını onlara açır;
- şagirdlər müxtəlif baxışlara və mövqelərə tolerant münasibət göstərməyi öyrənirlər.

Tarixin interaktiv metodları tədris prosesini intensivləşdirir, müstəqil, məntiqi və yaradıcı təfəkkürü fəallaşdırır. İnteraktiv təlim zamanı təfəkkür məsələləri dərsin konkret məzmunundan asılı olaraq müxtəlif formaları qəbul edir.

5-11-ci siniflərdə tarixin tədrisi sahəsində əldə olunmuş təcrübələri ümumiləşdirərək, aşağıdakılar nəzərə almağı məsləhət bilirik:

1. mənimsənmiş biliklərin təkrarı zamanı yeni mövzunun materialı ilə onların əlaqəsini yaratmaq üçün seçim aparmaq və şagirdləri yeni materialın mahiyyətinin dərk olunmasına yaxınlaşdırmaq lazımdır;
2. təfəkkür məsələsi kimi, şagirdləri problemin həllinə yönəldən və analiz, sintez və ümumiləşdirməni həyata keçirməyə sövq edən dərsin mövzu və məqsədlərini formalaşdırmaq;
3. mövzunun ateriallarını şagirdlər tərəfindən daha yaxşı mənimsənilməsi üçün hissələrə ayırmaq;
4. yeni faktların şərhi və əyani materialın təqdimatı zamanı analiz və sintezinin köməyi ilə əsas və vacibini qeyd etmək.

Şagirdləri mənimsənilən tarixi hadisələrin mahiyyətinin dərk edilməsinə və anlayışların formalaşmasına yaxınlaşdırmaq;

5. öyrənilmiş tarixi hadisələri və faktları ümumiləşdirmək və müqayisə etmək. Şagirdləri müqayisə edilən tarixi hadisələrin oxşar və fərqli əlamətlərinin tapılmasına yönəltmək. Müəllim onlara müəyyən olunmuş oxşar və fərqi cəhətəri müəyyən etməyə kömək etməli və bununla bu hadisələrin mənimsənilməsini daha da yaxşılaşdırmalıdır. Öyrənilən hadisələrin əsas əlamətlərinin müəyyən olunması və ümumiləşdirməsi yolu ilə şagirdlər tarixi anlayışların daha yaxşı mənimsənilməsinə gətirilirlər;

6. müqayisədən istifadə edərək şagirdləri öyrənilən materialı analiz və sintez etməyə sövq edən uyğun təlim metodlarını seçmək.

Təlim-tərbiyə prosesinin optimallaşdırmasının əsas şərti – şagirdlərin pedaqoji prosesə marağını artıqmaqdan ibarətdir. Bunun üçün şagirdlərin fəal təfəkkür fəaliyyətinin təşkili zəruridir. Müstəqil işin təşkili – təlimə stimul verən, bilik və inamı uğura aparan yoldur.

Yalnız təfəkkür proseslərinin fəallaşdırılması ilə şəxsi əməyin nəticəsində mənimsənilmiş biliklər möhkəmləndirilir. Fəal yaradıcı tədqiqat şagirdlərə müvəffəqiyyətin sevincini yaşamağa, çətinliklərin öhdəsindən gəlməyə, öz gücünə inanmağa, özündə əmək bacarıqlarını tərbiyə etdirməyə imkan yaradır.

Sərbəst düşüncə və fənnə maraq öz-özündən yaranmır. Müəllimin məqsədi sinifin sərbəst işini təşkil etmək, şablon və formalizmin (rəsmiyyətçiliyin) hər cür təzahürlərindən çəkinərək – bilik, bacarıq və vərdişlərin formalaşmasına kömək göstərməkdən obarətdir.

Pedaqoji-psixoloji- ədəbiyyatın analitik təhlili nəticəsində məlum olur ki, təfəkkür fəaliyyətinin inkişafı – şəxsi məsələ deyil,

müəllimin işinin həlledici istiqamətlərindən biridir.

Şagird ona daha maraqlı olanı mənimsəyir və yadda saxlayır. Buna görə də uşağa bilik verərkən onun üçün maraqlı şəkildə fikirinin formalaşmasına yardım edən interaktiv metodlardan istifadə etmək olduqca vacibdir.

Beləliklə, interaktiv metodlarla keçirilən tarix dərslərində şagirdlərin qarşısında idrak məsələləri qoyulur, onların həlli isə öyrənilən tarixi materialın analiz və sintezini tələb edir. Müəllimlər şagirdlərin idrak fəaliyyətini vacib olan məsələlərə yönəldir, şagirdlər öyrəndikləri faktların mənimsənilməsinə istiqamətləndirir, onlardan ən əsasını və əhəmiyyətlisini seçməyə imkan yaradır.

Şagirdlərin aktiv müstəqil fəaliyyəti tədrisin vacib şərti kimi qəbul edilməlidir. Çünki bu üsul hazır biliyin verilməsindən daha səmərəlidir, şagirdlərin müstəqil işi idrak fəaliyyətinin tələblərinə cavab verir və beləliklə daha effektivdir.

Müstəqil fəaliyyət təlimin üç probleminin sintezini təşkiil edir – biliyin formalaşmasını, şagirdlərin inkişafını və onların tərbiyələndirilməsini. Bu təlimin tərbiyəvi gücünü artırır, səbəb-nəticə və qanunauyğun rabitəsini müstəqil quraraq, mənimsənilmiş (əzbərlənmiş) bilikləri təkrar etmir, lakin öz qənaətlərini, dünyagörüşünü ifadə edir və fəal formalaşdırır.

Nəzəri və praktiki olaraq müəyyən edilmişdir ki, müstəqil təfəkkür fəaliyyəti düzgün təşkil edildikdə şagirdlərdən maksimal dərəcədə dərk etmə imkanlarından və bacarıqlarından geniş istifadə etməyi tələb edir və bu cür dərslər hazır biliklərin ötürülməsindən daha effektiv olur. Əgər tarix dərs bütövlükdə şagirdlərin müstəqil təfəkkür fəaliyyətinə əsaslanarsa, materialın bir hissəsi hazır bilik kimi ötürülsə belə, bu zaman yeni bilklər olduqca effektiv mənimsənilir. Lakin bu məqsədlə hazır biliklər dərsin məzmununa bacarıqla ötürülməlidir.

Dərsdə düzgün təşkil edilmiş problem-situasiya əlavə vaxt tələb etmir: bu zaman onun üstünlüyü həmdə ondan ibarətdir ki, eyni vaxt ərzində o hazır biliyin ötürülməsindən daha mühüm nailiyyətlərə nail olmağa imkan verir (23, s.294-295).

Müstəqil təfəkkür fəaliyyəti əsasında yeni biliklərin formalaşması şagirdləri tarixigerçəkliyi dərk etməyə, fənnimənimsəməyə daha yaxşı hazırlayır.

Şagirdlərin müstəqil təfəkkür metodlarına əsaslanan müasir tarix dərsləri hazır biliyin ötürüldüyü ənənəvi dərslərdən daha çətindir və təlimin yüksək metodiki səviyyəsini tələb edir, lakin onlar çox effektivdir və müəllimin əziyyətini tam doğruldur.

Aparılmış tədqiqatlarımızın nəticələri göstərdi ki, tarix dərslərini interaktiv metodlarla tədris edərkən:

1. müəllim şablon və formalizmdən uzaqlaşaraq sinfin müstəqil işini təşkil edir, bilik, bacarıq və vərdişlərin formalaşmasına yardım göstərir;

2. fikir və mülahizələr nəinki formalaşır, hətta şagirdlərin qarşılıqlı əməkdaşlığı nəticəsində daha da möhkəmləndirilir. Qarşılıqlı ünsiyyət zamanı fikirlərin dürüst ifadə edilməsi onların formalaşmasının əsas şərtidir;

3. şagirdlərin idrak fəaliyyətini öyrənilən tarixi hadisələrin təhlilinə yönəldərək, onlara ümumiləşdirmə aparmağı, nəticə çıxarmağı, tarixi qanunauyğunluqları anlamağa, səbəb-nəticə əlaqəsini açmağa imkan verir;

4. şagirdlər öyrəndikləri məsələyə dair öz düşüncələrini və gəldikləri nəticələri formalaşdırıb fəal ifadə edirlər;

5. tarixi hadisələrin əsl mahiyyətinin açılması, təlimin öyrədici və inkişaf etdirici gücünü artırır, məntiqi əməliyyatlar aparmaqla yaradıcı təfəkkür formalaşır;

6. şagirdlər qarşısında öyrənilən tarixi materialın təhlilini

və ümumiləşdirilməsini tələb edən idrak məsələləri qoyulur. Bu məsələlərlə müəllimlər şagirdlərin idrak fəaliyyətini istiqamətləndirir, öyrənilən faktların mənimsənilməsinə, əsas və əhəmiyyətli məsələlərini mənimsəməyə kömək edirlər.

# XII. TARİXİN TƏDRİSİNDƏ BLUMUN İDRAK TAKSONOMİYASINDAN İSTİFADƏNİN İMKANLARI

Fənn kurikulumlarında məzmunun göstəricisi olan standartlar məzmun (bilik) və fəaliyyət (bacarıq) komponentlərindən ibarətdir. Təlim məqsədlərinin fəaliyyət üzrə bacarığın xüsusiyyətləri, məzmun üzrə isə biliyin kateqoriyaları konkretləşdirilir. Pedaqoji-psixoloji ədəbiyyatda biliyin kateqoriyaları aşağıdakı kimi qruplaşdırılır:

1) deklorativ;
2) prosedural;
3) kontekstual.

***1. Deklorativ bilik*** yaddaşa əsaslanır və fənnə aid mühüm biliklər kimi başa düşülür. Biliyin bu kateqoriyası fənnə aid mühüm terminləri, tərifləri, ifadələri əhatə edir və şagirdlərin onları bilməsi dərsin sonrakı mərhələlərində çox əhəmiyyətlidir. Amerika alimi Benjamin Blumun taksonomiyasındakı 6 mərhələnin (bilmə, anlama, tətbiqetmə, analiz, sintez, dəyərləndirmə (qiymətləndirmə) iki mərhələsi ilə - bilmə və anlama ilə deklorativ biliklə əlaqələndirilir.

***2. Prosedural bilik*** müəyyən fənn üzrə mühüm bacarıq və vərdiş kimi başa düşülür. Problemin həlli zamanı istifadə olunan biliklər prosedural biliklər hesab edilir. Prosedural biliklər Blumun taksonomiyasında üçüncü mərhələ olan tətbiq mərhələsi ilə əlaqələndirilir.

***3. Kontekstual bilik*** əldə edilən yeni informasiya və ya müəyyənin formasiyalara tətbiq edildikdə, yeni məna alan proseslər kimi dəyərləndirilir (102).

Mütəxəssislər şagirdin fəaliyyətini aşağıdakı kimi müəyyənləşdirirlər.

1. *Koqnitiv (İdrak) fəaliyyət* şagirdin intellektual qabiliyyəti və vərdişlərinin inkişaf etdirilməsində mühüm rol oynayır və problemlərin həll edilməsində mühakimə yürütmə, əlaqələndirmə, sübut etmə kimi mürəkkəb koqnitiv bacarıqların əsasını təşkil edir. Fənn üzrə məzmun standartlarının fəaliyyət komponentinin tərtibində idraki bacarıqlar sistemli şəkildə işlənir. Koqnitiv fəaliyyətin mərhələləri Blumun təklif etdiyi: bilmə, anlama, tətbiqetmə, təhliletmə, sintezetmə və qiymətləndirmə taksonomiyasıdır.

2. *Affektiv (emosional) fəaliyyət* şagirdlərin yanaşmaya, hisslərə, dəyərlərə münasibətinin və emosiyalarının inkişaf etdirilməsində mühüm rol oynayır. Affektiv fəaliyyətin 5 mərhələsi müəyyən edilmişdir: məqbulsayma, reaksiyavermə, dəyərləndirmə, təşkiletmə, dəyər və ya dəyərlər sistemini xarakterində əks etdirmə. Koqnitiv və affektiv fəaliyyətlərə aid olan mərhələlər fənn üzrə standartların tərtibi üçün müəyyənləşdirilmişdir.

3. *Psixomotor (hərəkət) fəaliyyət* əzələ inkişafını və hərəkət fəaliyyətini əhatə edir. Psixomotor bacarıqları aşağıdakı mərhələlərə ayırırlar: imitasiya (təqlid), manipulyasiya (idarə), dəqiq icra.

*a)* imitasiya mərhələsində şagirdlər müəllimin nümayiş etdirdiklərini təqlid edirlər ki, bu da hərəki bacarıqların ilkin mərhələsi kimi dəyərləndirilir;

*b)* manipulyasiya mərhələsində müəllimin yardımı olmadan, şagirdin müstəqil şəkildə nümayiş etdirmək bacarığı(hər hansı hərəkəti) kimi nəzərdə tutulur.

*c)* dəqiq icra psixomotorun ən yüksək mərhələsidir. Bu mərhələdə şagirdlər hərəkətləri bacarıqla və dəqiq icra edirlər.

Yuxarıda qeyd olunanlara aydınlıq gətirmək məqsədi ilə pedaqoji-psixoloji ədəbiyyatdan istifadə etməklə, idrak fəaliyyətinin Benjamin Blumun (Blum Taksonomiyası) verdiyi mərhələlərin xüsusiyyətlərini, hər mərhələyə uyğun təlim məqsədlərinin səciyyə-

vi cəhətlərini nəzərdən keçirək.

Taksonomiya (yunan dilindən tərcümədə. táxis - yer, quruluş, nizam və nómos - qanun) reallığın mürəkkəb obyektlərini təsnif edən bir elmdir. Dar mənada «təsnifat» sözünün sinonimi kimi də istifadə olunur. Taksonomiya, sadə və mürəkkəb bir sistemdən əldə olunan nəticələrin və iyerarxik (sadədən mürəkkəbə) bir sistemdir.

Təhsildə taksonomiyaya nə üçün ehtiyac var?

– təlimdə hədəfləri düzgün müəyyən etmək üçün;

– şagirdlər üçün problem və tapşırıqları düzgün tərtib etmək üçün;

– adekvat qiymətləndirmə vasitələrini seçmək üçün;

– refleksiyanı düzgün aparmaq üçün.

Aktiv öyrənmə strategiyasında əldə olunan hədəflər barədə söhbəti konkretləşdirmək məqsədilə pedaqoji-psixoloji cəmiyyətdə fəal şəkildə müzakirə olunan üçün Benjamin Blumun *koqnitiv (idrak)* hədəfləri taksonomiyasından istifadə edəcəyik. B.Blumun təklif etdiyi taksonomiyaya görə (1956-cı ildə təlimin səmərəliliyinmi qiymətləndirmək üçün bir metod kimi təklif etmişdir) bilik idrak piramidasının yalnız ilk, ən sadə səviyyəsidir. Bundan sonra piramidanın daha beş hədəf səviyyəsi var, ki ilk üçü (bilik, anlama, tətbiqetmə) daha aşağı, sonrakı üçü isə (analiz, sintez, qiymətləndirmə) - daha yüksək səviyyəli hədəflərdir (103).

Blumun taksonomiyasına görə koqnitiv (idraki) bacarıqları aşağıdakı şəkildə təqdim oluna bilər:

*1.* *bilik*: faktları, qəbul edilmiş terminologiyanı, meyarları, metodoloji prinsip və nəzəriyyələr daxil olmaqla xüsusi məlumatları tanımaq və əks etdirmək bacarığı;

*2.* *anlama*: hər hansı bir məlumatın mənasını başa düşmək bacarığı;

3. *tətbiq*: əvvəllər mənimsənilmiş biliklərin kənardan heç bir göstəriş olmadan yeni bir vəziyyətdə tətbiq etmək bacarığı;

4. *analiz*: materialı ayrı-ayrı komponentlərə ayırmaq, əlaqələrini qurmaq və təşkili modellərini anlamaq. Məsələn, hər hansı bir tarixi hadisənin əlamətlərinə görə təhlil olunması, onun səbəb və nəticə əlaqələrinin müəyyən olunması.

5. *sintez*: yaradıcılıq prosesi olaraq hissələrin və ya elementlərin birləşdirilməsini nəzərdə tutur. Məsələn, müəyyən tarixi hadisənin əlamətlərinə görə ümumiləşdirilməsi, hadisələr arasında paralellərin və analogiyaların aparılması.

6. *qiymətləndirmə*: ideyalar, həll yolları, metodlar və s. haqqında dəyərli mühakimələr yürütmə prosesi. Bu qiymətləndirmələr kəmiyyət və ya keyfiyyətə görə ola bilər, əsasən fənn üzrə meyarlar və ya standartlardan istifadə olunmaqla aparılmalıdır (bax şəkil 5).

*Şəkil 5. Blum taksonomiyası*



Ənənəvi tədrisdə istifadə olunan metod və üsullar təhsil prosesində ilk üç səviyyəyə çatmağa imkan verir. Nümunə olaraq dərslikdəki hər hansı bir abzasın sonunda yerləşən tapşırıqları nəzərdən keçirək. Əksər hallarda məzmunun sadə şəkildə həlli üçün onun məzmununu əks etdirmək kifayətdir. Şagirdlərin başa düşməyini və tətbiq etməyini tələb edən tapşırıqlar (ikinci və üçüncü hədəf səviyyələri üzrə), bir qayda olaraq, işarələrlə qeyd olunur və müəllim tərəfindən istifadə olunmadan qalır (bax cədvəl 4).

Cədvəl 4. *Təlimin məqsədləri üzrə metod və texnikalar*

| Təlimin məqsədləri | Metod və texnikalar |
|---|---|
| Bilik | Əqli hücum, klaster, təqdimat |
| Anlama | Diskussiya, suallar |
| Tətbiq | Rollu oyun, problemin həlli |
| Analiz | Debatlar, modelləşdirmə |
| Sintez | Yaradıcılığı stimullaşdıran üsullar |
| Qiymətləndirmə | Meyar üzrə qiymətləndirmə |

İnteraktiv təlim metodları ənənəvi metodlar kimi ilk üç səviyyə çatmağı təmin edir, lakin daha səmərəli şəkildə. Bunun nəticəsi olaraq ənənəvi paradiqmada çalışan müəllimlər şagirdlərin məlumatları daha yaxşı mənimsəməsi üçün tez-tez interaktiv təlim metodlarından istifadə edirlər.

Tarix fənnin tədrisində interaktiv metodlardan istifadə şagirdlərə müxtəlif qərarlar qəbul etməkdə məntiqi inkişaf etdirir, həmçinin müəyyən bir vəziyyətdə və ya tapşırıqda perspektivi görməyə imkan verir.

İnteraktiv təlimin əsas hədəfi şagirdləri müstəqil olaraq bilik, bacarıq və vərdişlər əldə etmək qabiliyyətlərinin forma-

laşmaqdan ibarətdir. Əslində, bu cür təlimdə şagird fəaliyyət mənbəyidir - təlimin subyektidir. İnkişafetdirici təlimin fərqli xüsusiyyəti ondan ibarətdir ki, müəllim yalnız uşaqlara elmin nəticələri barədə məlumat vermir, həm də onlar üçün problemli vəziyyətlər yaradaraq elmi araşdırmaların iştirakçısına çevirərək kəşflərə aparır. Beləliklə, bilik hazır formada verilmir – onlar əldə edilməlidir (fəaliyyət yanaşması). Öyrənmə prosesində nəzarət kənardan gəlmir, özününəzarət (daxili nəzarət) və refleksiya bacarıqları formalaşır.

Müasir peşə təhsilinin dinamik təbiəti bütün müasir tədqiqatçılar tərəfindən qəbul edilir. Təhsil sisteminin əsas konsepsiyası kompetensiya və kompetentlik kimi çıxış edir və peşə təhsili sistemində - peşəkar kompetensiya, ilk növbədə bir mütəxəssisin daha da peşəkar özünü inkişaf etdirmə qabiliyyəti kimi başa düşülür. Təhsil sistemini yeniləmək üçün onun kompetensiya əsasına keçməsi, təlim modelinin özünün yenidən nəzərdən keçirilməsi tələb olunur. Bu baxımdan üç model fərqlənir:

1. *passiv* model: öyrənən təsir obyektidir, dinləyir və baxır (seyr edir);
2. *aktiv*: öyrənən təlimin subyektidir, o müstəqil, yaradıcı işləyir və özü bilik alır;
3. *interaktiv*: öyrənmə öyrədən və öyrənənin qarşılıqlı əlaqəsi kimi başa düşülür.

Şübhəsiz ki, passiv mənimsəmədən aktiv modelə keçid zəruridir və bu, artıq praktik olaraq həyata keçirilmişdir, lakin ən məhsuldar olan da interaktiv təlim modelidir, çünki şagirdlər bunun sayəsində yalnız əldə etdiyi bilikləri tətbiq etməyi öyrənmir, eyni zamanda davamlı olaraq peşəkar bacarıqlara yeniləmək üçün yeni bilikləri axtarmağa çalışır (bax cədvəl 5).

**Cədvəl 5.** Hafizə və təfəkkür növlərinin inkişafı üzrə təsnifat

| Təlimin məqsədləri | Texnikalar |
|---|---|
| Hafizə | Ümumi sorğu, "əqli hücum", klaster, söz assosiasiyası, əlaqələndirmə |
| Məntiqi təfəkkür | Diskussiya, modelləşdirmə, sosioloji tədqiqat |
| Tənqidi təfəkkür | Rollu oyun, diskussiya, modelləşdirmə, debatlar, meyar üzrə qiymətləndirmə |
| Yaradıcı təfəkkür | əqli hücum, rollu oyun, modelləşdirmə, layihələr |

Müasir dövrün təqdim etdiyi tələbləri anlamaq üçün insan cəmiyyətinin əsas müddəalarına diqqət yetirmək lazımdır:

- üçüncü sahənin - elm, təhsil və xidmətlərin - iqtisadiyyatdakı üstün roluna (birinci sahə kənd təsərrüfatı və sənaye, ikinci isə istehsal sənayesidir);
- dünya iqtisadiyyatının iqtisadiyyatın əsas mənbəyinə çevrilməsi, milli, regional və dünya iqtisadiyyatının və telekomunikasiyanın informasiya texnologiyaları əsasında inteqrasiyası;
- cəmiyyətin sosial, siyasi və mənəvi həyatında və iqtisadiyyatın bütün sahələrində və informasiya sahəsində informasiya texnologiyalarının istifadəsi ilə əlaqəli texnoloji yeniliklərin davamlılığı;
- əhalinin peşəkar məşğulluq strukturunda dəyişiklik, məlumat istehsalı, yayılması, qorunması və ötürülməsi ilə əlaqəli əhali qruplarının cəmiyyətdəki nisbi üstünlüyü;
- bir insanın bilik və təhsil səviyyəsi onun sosial vəziyyətini və sosial statusunu təyin edən əsas amil rolunu oynamalıdır;
- cəmiyyətin gündəlik mediaya, video məhsullara, reklamlara və s. asılılığının tədricən artması.

Göründüyü kimi, müasir insan cəmiyyətini səciyyələndirən

bütün amillər təhsillə bağlıdır. Bu o deməkdir ki, müasir cəmiyyətin tam hüquqlu üzvü olmaq üçün təhsil almalıyıq.

Bu gün bütün dünyada insana bir şəxs olaraq - onun şüuruna, mədəniyyətinə, mənəviyyatına, eləcə də yüksək səviyyədə inkişaf etmiş bir ağıl və intellektual potensialına daha çox diqqət yetirilir. Buna görə, elm, ümumi mədəniyyət və müstəqil və çevik düşünmək qabiliyyətinə sahib olan savadlı intellektual fərdlərin məzun olacağı gənc nəslin bu cür hazırlığının son dərəcə vacibliyinə, təcili ehtiyacına şübhə yoxdur.

## XIII. TARİXİN TƏDRİSİNDƏ TƏHSİL MƏQSƏDLƏRİNİN REALLAŞMASINDA İNTERAKTİVLİYİN ROLU

Hələ XX əsrin 60-70-ci illərində, Amerika Birləşmiş Ştatlarında, Qərbi Avropa ölkələrində, Yaponiyada təhsilin rolu iqtisadi inkişafın ən əhəmiyyətli amili kimi və ümumdövlət səviyyəsində xüsusi diqqəti və qayğını tələb edən sahə kimi dərk edilməyə başladı, «təhsil sahəsində dövlət siyasəti» termini «dövlət siyasəti», «daxili siyasət», «xarici siyasət», «iqtisadi siyasət», «elmi-tədqiqat siyasəti» kimi terminlər sırasında öz yerini möhkəm tutdu.

Azərbaycan təhsil sistemində inkişaf etmiş ölkələrin təcrübəsindən istifadəsinin ən əhəmiyyətli istiqaməti peşəkar bacarıq və təlimin peşəkar-yaradıcı istiqamətinin formalaşmasıdır.

Bu gün tarixin təhsil məqsədləri onunla səciyyələnir ki, şagirdlər aşağıdakıları bilməlidir, bacarmalıdır:

- bəşəriyyətin tarixi yolu haqqında sistemləşdirilmiş biliklərin kompleksini öyrənməli; sosial təcrübə və xalqların tarixi yolu haqqında, onun yeri, rolu və qarşılıqlı əlaqələri haqqında bütöv təsəvvürü formalaşmalıdır;
- dövlətlərin meydana gəlmə və inkişaf prosesini mənimsəmək, müstəqillik uğrunda ərazilərin və təsərrüfatın və sosial mübarizələrin inkişafları, ictimai və siyasi hərəkətlər; yerli ənənələr və dəyərlər, dünya mədəniyyətində müəyyən mədəniyyətlərin yerini öyrənmək;
- ənənəvi və sənaye cəmiyyətləri haqqında bilikləri almaq; müasirləşdirmə prosesinin əlamətləri haqqında, müxtəlif tarixi dövrlərdə cəmiyyətdə islahatların və inqilabların yeri haqqında; istehsalın təkamülü haqqında, cəmiyyətlərin sosial strukturları, hakimiyyətin, cəmiyyətin və şəxsiyyətin münasibətlərinin

müxtəlif tarixi dövrdə sistemləri haqqında; tarixdə insan haqqında (şəxsiyyət və «tipik insan»);

- tarixi proseslərinin faktlarını, hadisələrini, mühakimə proseslərini, sistemliyini, bütövlüyü və ən əhəmiyyətli islahatlarını, inqilabları və onların nəticələrini haqqında təsəvvürləri mənimsəmək;
- tarixi prosesi xarakterizə edən və tarixi inkişafın ardıcıl pillələrində ictimai həyatın müxtəlif tərəfi olan ən əhəmiyyətli problemlərinin müasir izahlarını öyrənmək;
- şagirdlərdə konkret-tarixi təsəvvürlərin yaradılmasını nəzərdə tutan qədimlikdən indiyə qədər görkəmli xadimlərin, əsas hadisələrin, tarixi keçmişi əks etdirən (yəni obrazlar və keçmişin şəkilləri) əsas hadisələri mənimsəmək;
- tarixi mənbələrin əsas növlərinin əlamətlərini öyrənmək və keçmişin öyrənilməsində onların rolunu anlamaq.

Müasirlik həmçinin pedaqoji paradiqmanın dəyişməsi, təlim fəaliyyətinin mahiyyətinin yeni anlamasının kütləvi şüura daxil edilməsi haqqında kəskin məsələ qoyur. Elmlərin geniş spektrinin əsaslarının öyrənilməsi müxtəlif bilik sahələrindən və həyat sahələrindən informasiyanın alınmasıyla əvəz olunur.

Müasir xoşagəlməz ümummədəni vəziyyətdən çıxmağın yeganə yolu cəmiyyətin yaşayış tərzinin, o cümlədən təhsil sahəsində inkişafın çətinliyi onun bütün mühitin dəyişilməsin ilə bağlıdır. Buna görə məktəbdə yeniləşmənin yaranması, yayılması və tətbigi məsələsinə yalnız pedaqoji cəhətdən deyil, həmçinin böyük sosial məsələ kimi yanaşmaq lazımdır. Müasir təhsil sistemi təhsil alanların tam sərbəst düşünmək, öz fikrini faktlara, cürbəcür rəyləri tutuşdurub elmi faktlara və nəzəriyyələrə arxalanıb irəli sürmək imkanı üstündə qurulmalıdır. Göstərilən faktlar təhsil sistemində elmin yeni tələblərinə xas olan, orada olan ziddiyət-

ləri aradan qaldıran və təhsil sisteminin inkişafını stimullaşdırır. Bunların çoxunu təhsil texnologiyaları kimi qələmə vermək olar. Bu gün təhsil sisteminin tədqiqatının genişlənməsi, onun təhsil texnologiyalarının qurulmasında əsas kimi götürülməsinin tətbiqi təhsil alanlarda tarixi həqiqətin qavranmasında mühüm rol oynayır. Təhsilin əsas məsələsi təhsil alanın şəxsiyyətinin inkişaf etdirilməsi, onun yeni bilikləri mənimsəməsində universal tədqiqatlar aparması, onlarda tədqiqi fikir bacarığını genişləndirməsi, təhsil prosesində onların yeni elmi biliklərə şəxsi fikrinin aktivləşməsindən ibarətdir. Qərb təcrübəsində müasir dərs 4 mərhələdən ibarətdir. Bu mərhələlər aydın şəkildə biri digərinə keçməlidir və dərsin mütləq mərhələləri sayılır. Başqa sözlə desək, əgər müəllim dərsin məzmununun təhsil alanların yaddaşında möhkəm həkk olunmasını istəyirsə, onları bütün 4 mərhələdən keçirməlidir:

1. *əsaslandırma;*
2. *araşdırma;*
3. *təcrübə;*
4. *tətbiq (69, s.231).*

Bəzi müəllimlər dərsin gedişində və onun hansı komponentlərdən ibarət olunması haqqında tamamilə ziddiyyətli fikirlərin tərəfdarı olurlar. Birmənalı cavab vermək də çətin olur, çünki dərsin müvəffəq başa çatması əsas amil və son məqsəddir. Dərsin məqsədləri ənənəvi və interaktiv dərsin tədrisində olduğu kimi - dərsin pedaqoji ideya özəyini təşkil edir və əgər müəllim öz qoyduğu məqsədinə çatıbsa deməli dərsi səmərəli hesab etmək olar.

Bu gün tarix fənninin tədrisinin əsas məqsədi proqram biliklərinin ötürülməsinə deyil, fənnin idrak tapşırıqlarının həlli nümunəsində fəaliyyətlərin ümumiləşdirilmiş üsullarının formalaşdırılmasından ibarətdir.

Tarix dərslərində şagirdlərin pedaqoji kommunikasiya fəa-

liyyətinin təşkili hesabına tək təlim deyil, həmçinin inkişaf etdirən məqsədlər əldə edilir. Şagirdlər biliyi yalnız əldə etmir, həmçinin bu zaman öyrənmə problemi həll edilə bilər ki, bu fəaliyyət nəticəsində bu hərəkətlərin icrasından təcrübə qazanır, öz təlim məhsulunu yaradır. Bu üsulla maarifləndirmə özü şagirdlərin informativ imkanların öyrətməyin inkişaflarını güman edir, maarifləndirici formalaşma fəaliyyətini ümumiyyətlə ümumiləşdirir. Məktəb şagirdin bütün həyatı üçün bilik verə bilmədiyindən, təlim şagirdi gələcək həyatda informasiyanı necə dərk etməsini öyrətməli, öz mənimsəmə fəaliyyətini təşkil etmək bacarıaqlarını inkişaf etdirməlidir.

İnteraktiv metodlarla təşkil olunan tarix dərsində aşağıdakı elementlərin formalaşdırılması zəruridir:

1. Fikri fəaliyyəti ifadə edənlər: fikir irəli sürmək, problemləşdirmək, məqsəd qoymaq və problem formalaşdırmaq, fərziyyə irəli sürmək, problemli sual vermək, fərziyyə irəli sürmək, metod və ya texnika, fəaliyyətdəki bir yol seçmək, fəaliyyətini planlaşdırmaq, öz fəaliyyətini təhlil etmək və refleksiya aparmaq;
2. Təqdimat: görülən iş barədə şifahi və ya yazılı bir hesabatın hazırlanması, fəaliyyət nəticələrinin vizual təqdimat üsulu və formalarının seçimi, əyanilik əşyaların hazırlanması, görülən işlər barədə yazılı hesabatın hazırlanması;
3. Kommunikativ: başqalarına qulaq asmaq və özünü ifadə etmək, qrupda əməkdaşlıq etmək, ortaq məxrəcə gəlmək kimi formalar tapmaq;
4. Axtarış: tarixi sənədlərin oriqinallarında zəruri informasiyanı tapmaq, kontekst axtarışı;
5. İnformativ: məlumatların strukturlaşdırılması, əsas məsələnin vurğulanması, məlumatların qəbulu və ötürülməsi, müxtəlif formalarda təqdimat, davamlı saxlama və axtarış;
6. Layihənin həyata keçirilməsində və ya tədqiqatlarda öy-

rənilməsinin müvəffəqiyyətinin qiymətləndirilməsi: şagirdin bir layihə və ya tədqiqatdakı müvəffəqiyyətini qiymətləndirərkən onun üçün ən əhəmiyyətli qiymətləndirmənin müstəqil fəaliyyətinin ictimaiyyət tərəfindən tanınması olduğunu başa düşmək lazımdır.

Tarixin interaktiv təlimində aşağıdakıları qiymətləndirmək mümkündür:

- layihə üzərində işin müxtəlif mərhələlərini yerinə yetirməsində müstəqillik dərəcəsi;
- qrup işinə cəlb olunma dərəcəsi və verilmiş rolun yerinə yetirilməsinin aydınlığı;
- fənn və ümumi məktəb biliklərindən, bacarıq və vərdişlərindən praktik istifadə;
- layihəni başa çatdırmaq üçün istifadə olunan yeni informasiyaların miqdarı;
- istifadə olunan məlumatları başa düşmə dərəcəsi;
- istifadə olunan metodlarda mürəkkəblik səviyyəsi və bilik dərəcəsi;
- problemin həlli yolunun orijinallığı;
- layihə probleminin başa düşülməsi, layihənin və ya tədqiqatın məqsədinin formalaşdırılması;
- təqdimatın təşkili və təqdimetmə səviyyəsi: şifahi ünsiyyət, yazılı hesabat, obyektlərin əyaniliyinin təmin edilməsi;
- refleksiya bacarıqları;
- təqdimat görünürlərinin hazırlanmasında əyanilik obyektlərinin hazırlanmasında yaradıcı yanaşma.

Yuxarıda deyilənləri ümumiləşdirərək deyə bilərik ki, bu gün interaktiv təlim metodlarından istifadə müəllimlərin şagirdlərin idrak fəaliyyətini fəallaşdırmasına və ya yüksəldilməsinə töhfə vermək istəyi ilə bağlıdır.

# XIV. TARİX FƏNNİNİN TƏDRİSİNDƏ İNTERAKTİV TƏLİM METODLARINA YİYƏLƏNMİŞ MÜƏLLİMİNİN KOMPETENSİYALARI

Müasir təhsilin qarşısında duran vəzifələrin mürəkkəbliyi və müxtəlifliyi müəllim hazırlığı problemini tamamilə yeni bir səviyyəyə qaldırır. Son illərdə baş verən dəyişikliklər baş verən hadisələrə münasibətdə dəyişikliklərə səbəb oldu. Fəlsəfi düşüncədə postmodernizm adlanan yeni bir istiqamət meydana gəldi. Əsas ziddiyyət budur ki, müasir uşaqlar postmodern dövrdə dünyaya gəlir. Təbii ki, bunu başa düşürlər və qəbul edirlər, postmodern dövrün düşüncəsi ilə xarakterizə olunurlar. Yaşlı nəsillər üçün xaos və nizamsızlıq kimi görünən müasirlik, onlara müxtəlif imkanlar təqdim edir.

Məşhur Amerikalı psixoloq Malkolm Noulz "Andragika pedaqogikaya qarşı" adlı fundamental tədqiqatında yetkin yaşına çatmış uşaqların təlim nəticələrinə dair tələbləri açıq şəkildə müəyyənləşdirmişdir. Müasir təhsilin əsas vəzifəsi lazımi şəraitdə qazandığı bilikləri tətbiq edə bilən səriştəli insanları yetişdirmək olduğunu və onların əsas kompetensiyalarına davamlı özünütəhsil ilə məşğul olma qabiliyyətini daxil etdiyini qeyd etdi.

Müasir təhsil sistemində müəllimin ayrılmaz keyfiyyəti onun peşəkar kompetensiyası, yəni fəaliyyətinin müəyyən bir sahəsindəki məlumatlılığı və nüfuzu olmalıdır. Pedaqoji və psixoloji tədqiqatlarda pedaqoji peşə kompetensiyası müəllim şəxsiyyətinin formalaşmasını müəyyən edən zəruri bilik, bacarıq və bacarıqlara sahib olması olduğunu göstərirdir.

Təhsilin modernləşdirilməsi konsepsiyası müasir cəmiyyətin inkişafının əsas istiqamətlərini - yeni nəslin müəllim hazırlı-

ğı və yenidən hazırlanmasını, habelə yüksək keyfiyyətlərə malik prinsipial olaraq müasir müəllimlərin formalaşmasını aydın şəkildə müəyyənləşdirdi.

Təhsilin əsas vəzifələrindən biri müəllimlərin peşə səviyyəsini yüksəltmək və müasir həyatın tələblərinə cavab verəcək müəllim heyətinin formalaşdırılmasıdır. Modernləşdirilmiş təhsil sürətlə dəyişən dünyada sosiallaşmış bir insanı yetişdirməyə qadir olan yüksək ixtisaslı, sosial cəhətdən fəal, yaradıcılıqla işləyən və rəqabət qabiliyyətli bir müəllim tələb edir.

Son illərdə Azərbaycanda dövlətin təhsil siyasətini xarakterizə edən ən vacib addımlar atılmışdır. Müasir təhsil standartlarının və tədris planlarının tətbiqi əsasında təhsil fəaliyyətinin təşkilinə yanaşmalar xeyli dəyişmişdir. Sənədlərdə yer alan fikirlər onun məzmunu, texnologiyaları, prinsipləri, strukturları, peşə və ümumi təhsil mexanizmlərində əhəmiyyətli dəyişikliklər edir və eyni zamanda səriştəli mütəxəssislərin hazırlanmasını tələb edir. Təhsil kompetensiyaları Azərbaycan Respublikasının «Təhsil Qanunu»nda, Azərbaycan Respublikası Təhsilinin İnkişafı üzrə Dövlət Strategiyasında və Dövlət Standartları və Proqramlarında (kurikulumda) öz əksini tapmışdır (8, s.8-9).

Müəllimin peşəkarlığı bu gün müasir təhsil keyfiyyətinə çatmağın bir şərti kimi qəbul edilir.

Tarix müəlliminin peşəkar kompetensiyası aşağıdakı komponentlərdən ibarətdir:

- ✓ məzmun (tarix haqqında xüsusi biliklərə sahib olmaq);
- ✓ texnoloji (tarixin müasir tədris metodlarına sahib olmaq);
- ✓ fərdi (müəyyən şəxsiyyət xüsusiyyətlərinə sahib olmaq).

Tarix müəllimlərinin hazırlanmasında və texnoloji kom-

petensiyalın formalaşmasında «Tarixin tədrisi metodikası» kursu xüsusi yer tutur. «Müəllimin peşəkar kompetensiyası» bu gün ali pedaqoji məktəb məzunlarının hazırlıq keyfiyyətinin meyarı kimi xidmət edir.

Bu gün müasir tarix müəlliminin peşə hazırlığı keyfiyyəti əldə etmək üçün tarixin tədrisi metodikası kursunun nəzəri əsasları, müəllimin kompetensiyası ilə bağlı gələcək müəlliminin peşəkarlığının formalaşmasına kömək edən əlavə tədqiqatlara ehtiyac var. Fənn hazırlığının peşə yönümünün gücləndirilməsi əsasında təhsil kompetensiyasının formalaşdırılması vəzifələrinin həyata keçirilməsi, peşə fəaliyyətinin elementləri, peşə testləri, tədris forması və metodlarını tədris prosesinə dəyişdirməklə mümkündür.

Müəllimin peşə standartı, müəllimin pedaqoji fəaliyyətini həyata keçirməsi üçün tələb olunan keyfiyyətlərə xas olan bir çərçivədir.

Peşə standartının quruluşu iki ümumiləşdirilmiş əmək funksiyası ilə müəyyən edilir:

1) müəllimin əsas fəaliyyətlərini - təlim, tərbiyə və inkişafı əhatə edən (təhsil prosesinin təşkili və həyata keçirilməsindəki pedaqoji fəaliyyət);

2) əsas təhsil proqramlarının həyata keçirilməsi üçün pedaqoji fəaliyyətləri nəzərdə tutan əlavə.

E.A.Yamburgun fikrinə görə bir müəllimin peşəkar standartı təhsil strategiyasının həyata keçirilməsi və təhsilin keyfiyyətinin yüksəldilməsi üçün bir vasitədir. Bundan əlavə, standart bir müəllimin vərdişlərinin ən obyektiv ölçüsüdür, təhsil müəssisələri üçün müəllim seçmə vasitəsidir.

Ə.Paşaev və F.Rüstəmov hesab edirlər ki, müəllim təşkilati, öyrədici, perseptiv (şagirdlərin daxili keyfiyyətlərini hiss etmə

qabiliyyəti), kommunikativ, suuestiv (şagirdlərə emosional təsir göstərmək qabiliyyəti), tədqiqat və elmi-idrak bacarıqlarına sahib olmalıdır (35, s.175).

Yaxşı müəllim olmaq nə deməkdir? Bu məsələ tez-tez gündəmə gətirilir və bu konsepsiyanın tərifinin tələbləri dəyişirdi. Bu meyarlar bəzən şagirdlər, tələbələr və hətta müəllimlərlə birlikdə müəyyənləşdirilirdi. Tələbə və şagirdlərdən "Müəllimim", "Ən yaxşı müəllim", "Mən necə müəllim olacağam" və s. mövzularda inşa yazmaq təklif olunudu. Əgər əvvəllər şagirdlər müəllimin ümumi məlumatlı olmasını, mövzunu bilməsini dəyərləndirirdilərsə və siyasi yetkinliyi dəyərlədirirdilərsə, bu gün müəllimdə güclü iradə, nüfuz, mövzu bilikləri, incə, gözəl görünüş, şagirdlərini başa düşmə, məntiqli və ifadəli danışma bacarığı və s. keyfiyyətlər vacib sayılır.

XXI əsrin təhsili yeni, müasir görkəm alır və onun iştirakçıları - müəllimlər və şagirdlər dəyişir. Müasir uşaqlar zamanla ayaqlaşırlar: asanlıqla cib telefonlarına, internetə, müxtəlif kompüter proqramlarına, elektron kitablara və s.yiyələnirlər

Müasir tarix müəlliminin vacib xüsusiyyətləri - daim özünü inkişaf etdirmə, özünütəhsil, erudisiya, özünütənqid, fədakarlıq və yeni texnologiyaların mənimsənilməsidir. Müasir müəllim zamanla ayaqlaşmağı bacarmalıdır. Müəllim yalnız öz mövzusunu yaxşı bilən və daim özünütərbiyə ilə məşğul olan bir insan deyil, həm də psixoloji və pedaqoji kompetensiyalara sahib olan, onun köməyi ilə qarşılaşdığı yeni problemləri həll edən bir mütəxəssisdir.

M.İlyasov gələcək müəllimlərin yetişməsində təhsil kompetensiyarın vacibliyini qeyd edir. O kompetent müəllimin təməli bakalavr təhsili zamanı qoyulduğunu vurğulayır. Şagird seçdiyi peşəni sevirsə, bu onu ən bacarıqlı müəllim olmağa və öz sahəsinin ən yaxşısı olmağa sövq edəcəkdir (24, s.35-37).

Təhsilin modernləşməsinin hazırkı mərhələsində cəmiyyətin yeni, müasir tələblərə cavab verən müəllimlərə ehtiyacı var. Azərbaycan təhsilində ilk dəfə olaraq müəllimin peşə standartının konsepsiyası və məzmunu hazırlanır. Peşəkar standartların ortaya çıxması bir yenilik deyil, bu bir dünya təcrübəsidir.

Müəllimin peşə səviyyəsinin yüksəldilməsinin əsas istiqamətləri aşağıdakılardan ibarətdir:

1. özünütəhsil (metodiki ədəbiyyatın müstəqil öyrənilməsi; yaradıcı qruplarda, pedaqoji birliklərdə işləmək və s.);

2. kurs işində (yeni pedaqoji texnologiyalara, metod və üsullara, yenilikçi fəaliyyətlərə yiyələnmək);

3. təcrübənin ümumiləşdirilməsində və yayılmasında (müsabiqələr/layihələr (əyani, distant), pedaqoji yarışlarda, ustad dərslərində və s.).

Müəllimin təkmilləşdirilməsində xüsusi yeri mentorluq, yəni təcrübəsiz müəllimə metodik yardımın təşkili tutulur. Gələcək müəllim hər hansı praktik pedaqoji təcrübəsi olmayan, lakin müəyyən bilik sahəsi üzrə mütəxəssisdir.

Hər şeyin sürətlə dəyişdiyi açıq dünyada müəllimin şagirdlərə daim göstərməli olduğu əsas peşəkar keyfiyyət öyrənmə qabiliyyətidir. Dəyişiklərə hazır olmaq, qərar qəbuletmə qabiliyyəti və müstəqillik - fəaliyyətin bütün bu xüsusiyyətləri müəllimə aiddir. Müəllimin işi xırda tənzimləmədən, ümumi nəzarətdən uzaq olmalıdır.

Müasir cəmiyyət öyrənənlər qarşısında yeni tələblər qoyur. "Bilikli məzun" cəmiyyətin ehtiyaclarını ödəməyi bacarmır. Bu gün tələb olunan dəyər «bacarıqlı, yaradıcı məzun» üçün verilir. Bu problemi həll etmək üçün gələcək müəllim öz sahəsinin mütəxəssisi olmalıdır. Lakin tarix müəllimlərinin peşəkarlıq səviyyəsi müasir tələblərə cavab vermirsə, demək olar ki, cəmiyyətin və dövlətin eh-

tiyaclarına cavab verən yüksək təhsil nəticəsinə ümid etmək olmaz.

Şagirdlər üçün kompetensiyalar - onun gələcəyinin bir mənzərəsidir, mənimsəmə üçün bir rəhbərdir. Ancaq təhsil dövründə gələcək tarix müəllimləri sinifdə «yetkin» kompetensiyaların tərkib hissələrini formalaşdırmağı öyrənməli və onları yalnız gələcəyə hazırlamaq üçün deyil, həm də onlara indiki vaxtda yaşamaq yaşamağı öyrətməlidir, müəllim şagirdlərə bu kompetensiyalara təhsil baxımından yiyələnməyi öyrətməlidir. Təhsil kompetensiyaları yalnız akademik fənlərin əhatə dairəsinə daxil olan fəaliyyətlərə aiddir. Bu cür kompetensiyaların ümumi təhsilin subyekt-fəaliyyət komponentini göstərir və məqsədlərə çatmağı təmin etməlidir. Təhsil kompetensiyaları tələbənin fəaliyyətini gələcəkdə tam həyatı üçün modelləşdirir. Məsələn, bir vətəndaş yetkin yaşa çatsa da, hələ də hər hansı bir kompetensiyanı həyata keçirməmiş ola bilər, amma bu o demək deyil ki, tələbələrdə onu formalaşmasına ehtiyac yoxdur. Bu elə təhsil kompetensiyasıdır.

Başqa bir missal gətirək, məktəbdə şagird vətəndaş kompetensiyasına yiyələnə bilər, lakin məktəbdən ayrıldıqdan sonra onun komponentlərindən istifadə edir. Bu kompetensiyanı o təhsil müddətində mənimsədiyi üçün burada bu təhsil kompetensiyası kimi çıxış edir.

XXI əsrin əvvəllərindən bəri təhsilin struktur dəyişiklikləri getdikcə aydın şəkildə şagirdlərin müstəqilliyinə, yaradıcı təşəbbüskarlığına və gələcək mütəxəssislərin rəqabət qabiliyyətinə istiqamətlənən yeni istiqamət, hədəflər, məzmun müəyyən edir. Bu baxımdan təhsildə kompetensiyaya əsaslanan yanaşma getdikcə aktuallaşır, əsas insan kompetensiyalarının formalaşdırılması təhsildə və onun perspektivlinin istiqaməti kimi çıxış edir.

Əsas kompetensiya məsələsi bu gün dünyada geniş müza-

kirə mövzusudur. Bu problem təhsilimizin modernləşdirilməsi ilə əlaqədar olaraq ölkəmizdə xüsusilə aktualdır.

İlk dəfə 70-ci illərdə kompetensiyaya əsaslanan təhsil (competence based education - CBE) 1965-ci ildə N.Xomski (ABŞ, Massaçusets Universiteti) tərəfindən təklif edilən ümumi kontekstdə dil nəzəriyyəsi ilə əlaqəli «səriştəlilik» anlayışı formalaşdırılmışdır. Latın dilindən tərcümədə «kompetensiya» insanın yaxşı bildiyi, müəyyən bilik və təcrübəyə malik olduğu bir sıra məsələlər deməkdir.

Ayrı-ayrı müəllimlər və psixoloqlar tərəfindən təsnifatların yaradılmasına cəhd edilmişdir. Bütün təriflər üçün ümumi olaraq insanın müxtəlif vəzifələrin öhdəsindən gələ bilmə qabiliyyəti olaraq başa düşülməsidir.

Pedaqoji elmlər doktoru Herman Selevkonun fikrincə, kompetensiya subyektin hədəfi müəyyənləşdirmək və əldə etmək üçün daxili və xarici resursları səmərəli təşkil etmək istəyidir. Daxili resurslar - bilik, bacarıq, vərdiş, fəaliyyət üsulları, psixoloji xüsusiyyətlər, dəyərlər və s. kimi başa düşülür.

«Kompetensiya» konsepsiyasının tərkib elementləri aşağıdakılardır:

– bilik - işi yerinə yetirmək üçün lazım olan həqiqətlər, faktlardır, bunlar bir insanın çalışdığı intellektual konteksti təmsil edir;

– bacarıqlar - avtomatizmə çatdırılmış müəyyən bir tapşırığı yerinə yetirmə üsullarına və metodlarına yiyələnmə bacarıqlarıdır;

– qabiliyyət - konkret tapşırığı yerinə yetirmək üçün fitri qabiliyyətdir;

– səy - əqli və fiziki resursların müəyyən bir istiqamətdə şüurlu tətbiqi mənasını verən iş etikasının əsas hissəsidir.

Avropa Şurası "gənc avropalıların mənimsəməsi lazım olan" 5 əsas kompetensiyanı müəyyən etmişdir (57, s. 6-7):

1. siyasi və sosial kompetensiya - qrupun qərar qəbuletməsində iştirak etmək, məsuliyyət daşımaq, münaqişələri həll etmək, demokratik təsisatların qorunması və təkmilləşdirilməsində iştirak etmək bacarığı;

2. çoxmədəniyyətli cəmiyyətdəki həyatla əlaqəli kompetensiya və ya mədəniyyətlərarası kompetensiyalar - tolerantlıq, başqalarına hörmət, insanlar arasındakı fərqləri qəbul etmək, multikulturalizm;

3. iş və ictimai həyat üçün xüsusilə vacib olan kommunikativ kompetensiyalar;

4. cəmiyyətin informasiyalaşmasının artması ilə əlaqəli kompetensiyalar - informasiya texnologiyalarına sahib olmaq, anlamaq və tətbiq etmək;

5. həm şəxsi peşə, həm də ictimai həyat kontekstində ömür boyu öyrənmənin əsası olaraq davamlı təhsil qabiliyyəti.

Qərb yanaşması ilə bərabər əsas kompetensiyaların müxtəlif rus təsnifatları mövcuddur.

V.V.Kraevski və A.V.Xutorskoy «Rusiyada Ümumi Təhsilin Dövlət Standartının Federal Komponenti»nin (2002) hazırlanması üzrə Müvəqqəti Tədqiqat Qrupunun tərkibində təmsil olunaraq standartların metafənn layihəsinin metodoloji əsasları formalaşdırdılar. Kompetensiya, alimlərin fikrincə, şagirdin müəyyən bir sahədəki məhsuldar fəaliyyəti üçün zəruri olan təhsil hazırlığı üçün sosial tələbdir (xarici normadır). Kompetenlik - şagirdin müvafiq kompetensiyaya sahib olmasıdır (şagirdin daxili keyfiyyəti).

İşəgötürən tərəfindən sifariş edilən kompetensiya Qərb (Avropa) anlayışından fərqli olaraq, təhsil üçün qarşılıqlı qaydaları xarakterizə edən «təhsil kompetensiyası» ifadəsini təklif etdilər.

Təhsil kompetensiyası, şagirdin müəyyən bir sahədəki fəaliyyəti üçün zəruri olan fəaliyyətlərin bir-biri ilə əlaqəli semantik istiqamətləri, bilikləri, bacarıqları, vərdişləri və təcrübəsi ilə ifadə olunan təhsil təlimi üçün tələbdir.

Kompetensiyaların Avropa tipologiyasından bu fərq əsas kompetensiyaları iki qrupunda ifadə edildi: dəyər-semantik və fərdi inkişaf. Bu kompetensiyalar qrupları, yalnız cəmiyyətin qaydasını deyil, insana bənzər bir təbiəti təcəssüm etdirir. Nəticədə, bu tipologiya yeddi əsas təhsil kompetensiya qrupunu özündə birləşdirdi:

1. Dəyər-semantik kompetensiyalar;
2. Ümumi mədəni kompetensiyalar;
3. Təhsil və idrak kompetensiyaları;
4. İnformasiya kompetensiyaları;
5. Ünsiyyət kompetensiyaları;
6. Sosial və əmək kompetensiyalar;
7. Şəxsi özünü inkişaf etdirmə kompetensiyaları (91, s. 58-64).

Bu təsnifat, Avropa Şurası (1996) tərəfindən müəyyənləşdirilmiş beş əsas kompetensiya təsnifatında, ilk növbədə, şəxsiyətin təhsili üçün sifarişini əks etdirən birinci və yeddinci qrupların mövcudluğu ilə fərqlənir. Sonradan bu yanaşma onlar tərəfindən hazırlanmış insan təhsili doktrinasında açıqlandı (70, s. 25-31).

Gələcək tarixçi-müəllimlərin kompetensiyaya əsaslanan tədrisi təcrübəsi göstərir ki, müasir tədris metodlarının köməyi ilə ənənəvi tədrisdə əldə edilməsi çətin olan bir sıra problemləri effektiv həll etmək mümkündür:

– tarix müəlliminin peşəkar keyfiyyətlərini tərbiyə etdirmək;
– idrak və peşə motivlərini və maraqlarını formalaşdırmaq;

– müəllimin sistemli düşüncəsini, o cümlədən tək Azərbaycan tarixinin deyil, həm də bəşəriyyətin və cəmiyyətin, özünün, dünyadakı yerinin hərtərəfli başa düşülməsi daxil olmaqla tərbiyələndirmək;

– professional peşə fəaliyyətinin və onun vacib fraqmentlərinin tam mənzərəsini vermək;

– tarixin tədrisi metodikasının əsas müddəaları haqqında tələbələrin təsəvvürlərini formalaşdırmaq;

– tələbələrin tədris materialının təqdimetmə metodlarını və təlim sessiyalarının təşkili formalarını müstəqil şəkildə müəyyənləşdirmək və təhlil etmək bacarığını formalaşdırmaq;

– müxtəlif müasir təlim metodları çərçivəsində tələbələrin material təqdim etmə qabiliyyətini inkişaf etdirmək;

– təhsil prosesində fəal iştirak etməklə gələcək müəllimin tədqiqat qabiliyyətlərini inkişaf etdirmək;

– tarix müəllimlərinin təlimin bütün mərhələlərində tələbələrin gələcək peşə fəaliyyətinin xüsusiyyətlərini və peşə baxımından vacib keyfiyyətlərin mahiyyətini anlamalarına imkan verən refleksiyadan istifadə etmək.

Qeyd etmək lazımdır ki, peşəkar pedaqoji kompetensiyaların inkişafı yalnız müəyyən bir müəllimin fərdi inkişafının prioritet vəzifəsi deyil, həm də təhsil prosesinin formalaşması üçün ən vacib şərtdir. Peşəkar kompetensiyanın formalaşması davamlı təkmilləşmə, getdikcə daha çox bilik və bacarıq əldə etmə, fəaliyyətin zənginləşdirilməsi, peşəkar inkişafa can atmağı tələb edən bir prosesdir. Müəllimin peşəkar kompetensiyası əsasən təlimdən və əldə edilmiş təcrübədən asılıdır. Adolf Disterqin sözlərilə desək, yalnız özünü daim inkişaf etdirən adam öyrətmək hüququna malik olduğunu deyə bilərik. Müasir informasiya əsrində müəllimin rolu, gənc nəsil üçün bir nümunə göstərməkdir (71, s. 184-190).

# XV. AZƏRBAYCAN TARİXİ VƏ ÜMUMİ TARİX FƏNLƏRİNDƏN AÇIQ DƏRS NÜMUNƏLƏRİ

Aşağıda Bakı şəhəri Nizami rayonu 201 №li tam orta məktəbin tarix müəlliməsi Qabaqcıl Təhsil İşçısı, tarix üzrə fəlsəfə doktoru Amənə Kərbəlayeva və Qaradağ rayonunun 303 №li məktəbin qabaqcıl tarix müəllimƏsi, müxtəlif fəxri fərmanlarla təltif olunmuş novator-müəllimə Reyhan Qədirovanın siniflərində keçirilən "Azərbaycan tarixi" və "Ümumi tarix" fənlərindən açıq dərs nümunələrini təqdim edirik.

## V SİNİF AZƏRBAYCAN TARİXİ

***Mövzu: "Bir kərə yüksələn bayraq bir daha enməz"***

***Standart:***

3.1.1. Azərbaycan dövlətləri haqqında sadə biliklər nümayiş etdirir;

3.1.2. Xalqın mənafeyinin qorunmasında dövlətin rolu dəyərləndirir;

4.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri müəyyən edir.

***Təlim məqsədi:***

AXC-nın fəaliyyəti haqqında sadə bilikləri nümayiş etdirir;

Xalqın mənafeyinin qorunmasında AXC-nın rolunu dəyərləndirir;

AXC-nın fəaliyyətində rol oynamış şəxsiyyətləri müəyyən edir.

***İnteqrasiya:*** Ədəbiyyat;

***Texnikalar:*** Əqli hücum, BİBÖ, Venn diaqramı;
***İş forması:*** Qruplarla iş;
***Resurslar:*** Xəritə, dərslik, iş vərəqi, yapışqanlı lent, marker.

**DƏRSİN GEDİŞİ**

***Motivasiya:*** Bu şəkilləri birləşdirən nədir?





***Tədqiqat sualı:*** Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycanın dövlətçilik tarixində rolu və yeri nədən ibarətdir?

***Tədqiqatın aparılması*** (10 dəq.)**:** Şagirdlər dörd qrupa bölünür. Hər qrupa ayrılıqda iş təqdim olunur.

*I qrup:* Verilmiş Venn diaqramı üzərində işləyir (Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan Respublikası).

*II qrup:* Verilmiş sözlərə aid müəyyən məlumat hazırlayır (Bayraq, himn, XI qızıl ordu, bolşevik).

*III qrup:* Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına aid iş vərəqində verilmiş suallara cavab verir.

*IV qrup:* Azərbaycan Xalq Cumhuriyyətinin süqutuna dair iş vərəqində verilmiş suallara cavab verir.

***Məlumat mübadiləsi*** (15 dəq.)**:** tədqiqat işindən sonra hər qrup öz işini təqdim edir.

***Məlumatın müzakirəsi və təşkili*** (6 dəq.)**:** Qrupların təqdimatından sonra muzakirəsi başlayir

***Nəticə*** ( 3 dəq.)**:** BİBÖ. Yekun olaraq bele nəticətəyə gəlindi ki, Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdə xüsusi

çəkisi var və Azərbaycan Respublikası onun bugünkü varisidir.

***Yaradıcı tətbiq etmə*** ( 3dəq.)**:** Əhməd Cavadın "Bir kərə yüksələn bayraq bir daha enməz" şerini tarixi baxımdan təhlil etmək.

***İstifadə olunacaq vəsait:*** Ə.Cavadın eyni adli kitabı. İnternet: Ə.Cavad- Vikipediya.

***Qiymətləndirmə*** ( 3 dəq.)**:**

| Qruplar | Əməkdaşlıq | Fəallıq | Tədqiqat | Təqdimat | Sual cavab |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

***Qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| Şəxsiyyətləri müəyyən etməkdə çətinlik çəkir | Şəxsiyyətləri müəyyən edərkən səhflərə yol verir. | Müəllimin köməyi ilə Şəxsiyyətləri müəyyən edir | Asanlıqla Şəxsiyyətləri müəyyən edir. |
| Sadə bilikləri nümayiş edərkən çətinlik çəkir | AXC-nın fəaliyyəti haqqında sadə bilikləri nümayiş edərkən səhflərə yol verir | Müəllimin köməyi ilə nümayiş edir | AXC-nın fəaliyyəti haqqında sadə bilikləri nümayiş etdirir |
| Izah etmədə çətinlik çəkir | Izah etdikdə dərsin müəyyən hissəsini anlada bilmir | Müəllimin köməyi ilə dövlətin rolunu dəyərləndirir | Fikrini tam izah edir və dəyərləndirir |

## VI SİNIF AZƏRBAYCAN TARİXİ

***Mövzu: Atropatena dövləti***

***Standart:***

2.1.2. Xəritələrdə Azərbaycan ərazisində ilk insan məskənlərini, dövlət qurumları və qədim dövlətlərin yerini müəyyənləşdirir.

4.1.1. Dövlətlərin yaranmasında, inkişafında tarixi şəxsiyyətlərin (İranzu, Tomiris, Atropat, Oroys və b.) rolunu dəyərləndirir.

***Məqsəd:***

1. Xəritələrdə Atropatena dövlətinin yerini müəyyənləşdirir;
2. Atropatena yaranmasında və inkişafında Atropatın rolunu dəyərləndirir.

***İnteqrasiya:*** Coğrafiya;

***İş forması:*** qruplarla iş;

***Üsullar:*** Beyin həmləsi, müzakirə, Venn diaqramı;

***Resurslar:*** dərslik, flipçart, vərəqlər, rəngli markerlər, kompüter, proektor, Atropatena dövlətinin tematik xəritəsi.

***Motivasiya:***

1. Sizcə bu şəkil kimə aiddir?
2. Şəkildəki şəxs hansı dövlətin hökmdarı idi?



***Tədqiqatın aparılması:***

Dərsin adı müəyyənləşdirildikdən sonra sinfə aşağıdakı tədqiqat sualı ilə müraciət edilir:

***Tədqiqat sualı:***

Atropatena dövlətinin Azərbaycan tarixində yeri və rolu nədən ibarətdir?

Əvvəlcə, sinif 3 qrupa bölünür, mövzuya dair material şagirdlər tərəfindən oxunulur, sonra hər qrupa iş vərəqi verilir.

*Tapşırıq - 1*: Kontur xəritədə Atropatena dövlətini müəyyən edərək, sərhədlərini qeyd edin.



*Tapşırıq – 2: Atropatın tarixi şəxsiyyət kimi fəaliyyətini necə qiymətləndirirsiniz?*




*Tapşırıq 3* - Manna dövləti və Atropatena dövləti arasında oxşar və fərqli xüsusiyyətləri qeyd edin.



***Məlumatın müzakirəsi:***

Təqdimatlardan alınan cavablara əsasən şagirdlərə suallarla müraciət edərək, onları öz mülahizələrini əsaslandırmağa sövq edilir.

***Nəticələrin çıxarılması:***

Müzakirələrdən sonra şagirdlər xəritədə Atropatena dövlətinin yerini müəyyənləşdirir. Həmçinin Atropatın bu dövlətin yaranmasında və inkişındakı rolunu dəyərləndirir.

***Yaradıcı tətbiqetmə:***

İranzu və Atropat arasında oxşar və fərqli xüsusiyyətləri qeyd olunur.

Sonda 3 dəqiqə müddətində aşağıdakı meyarlara əsasən qruplara özünüqiymətləndirmə şkalaları paylanılır. Qruplar öz fəaliyyətlərini 5 ballıq şkalada qiymətləndirirlər.

***Formativ qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| Xəritədə Atropatena dövlətinin yerini müəyyən edə bilmir | Xəritədə Atropatena dövlətinin yerini çətinliklə müayyən edir | Xəritədə Atropatena dövlətinin yerini asanlıqla müəyyən edir | Xəritədə Atropatena dövlətinin yerini yüksək səviyyədə müəyyən edir |
| Atropatenanın yaranmasında, inkişafında, Atropatın rolunu dəyərləndirə bilmir | Atropatenanın yaranmasında, inkişafında Atropatın rolunu çətinliklə dəyərləndirir | Atropatenanın yaranmasında, inkişafında Atropatın rolunu dəyərləndirir | Atropatenanın yaranmasında, inkişafında, Atropatın rolunu asanlıqla dəyərləndirir |

*Qrupların qiymətləndirmə meyarları:*

| № | Meyar<br>Qruplar | I QRUP | II QRUP | III QRUP |
|---|---|---|---|---|
| 1. | Əməkdaşlıq | | | |
| 2. | İşbölgüsü | | | |
| 3. | Təsviretmə | | | |
| 4. | İzahetmə | | | |
| 5. | Təqdimat | | | |

## VII SİNİF AZƏRBAYCAN TARİXİ

*Mövzu: Xürrəmilər hərəkatı. Babək*

| | |
|---|---|
| Alt Standartlar | **3.1.2.Azərbaycanda dövlətçilik ənənələrinin inkişafı xüsusiyyətlərini dəyərləndirir.**<br>**3.1.1. Azərbaycan feodal dövlətlərinin inkişafı, müstəqilliyini itirməsi və siyasi müstəqilliyinin bərpası səbəblərini şərh edir.** |
| Məqsəd | **1.Azərbaycaın dövlətçilik ənənələrinin inkişafında Xürrəmilər hərəkatının rolunu dəyərləndirir.**<br>**2.Xilafətin müstəqqiliyinin itirməsinə təkan verən Xürrəmilər hərakatını şərh edir.** |
| Təlim forması | **Kollektiv, kiçik qruplarla, fərdi iş.** |
| Təlim üsulu | **Beyin həmləsi, Müzakirə** |
| Resurslar | **Marker, xəritə, dərslik və s.** |
| İnteqrasiya | **Ü-t. 4.1.1.; Az-d. 1.2.2.** |

| *Dərsin mərhələləri* | *Dərsin gedişatı* |
|---|---|
| Motivasiya | Şagirdlərin aşağı siniflərdən mövzu ilə tanış olduğunu nəzərə alaraq Babəkin sözləri xatırladılır.”100 il” və bir necə sual ünvanlanır.<br>1.Bu sözlər kimə məxsusdur?<br>2.Babək haqqında nələri xatırlayırsız? |
| Tətqiqatın aparılması | Şagirdlərə tətqiqat sualı ilə müraciət olunur: Xürrəmilər hərəkatı hansı səblərdən baş verdi, necə genişləndi və nəticəsi nə oldu?<br>Hər bir qrupa ayrılıqda tapşırıq verilir.<br><br>Babəklər qrupu<br>Xürrəmilər hərakatı hansı səbəblərdən və nə vaxt başladı?<br><br>Xürrəmilər qrupu<br>Xürrəmilərin hansı döyüşlərdə və necə mübarizə aparırdılar?<br><br>Türklər qrupu<br>Xürrəmilər niyə məğlub oldular və hərakatın nəticəsi nə oldu? |
| **Məlumatın mübadiləsi və müzakirəsi** | Qruplar iş vərəqlərini lövhədən asır və təqdimatlarını həyata keçirirlər. Şagirdlər təqdimatlar əsasında müxtəlif məlumatlarla tanış olurlar. Suallar verilir. Fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir |
| **Nəticə və ümumiləşdirmə** | Müzakirə başa çatdıqdan sonra qrup işlərinin nəticələri ümumiləşdirilir.<br>Müəllim öz yekun sözü ilə şagirdləri son nəticələrə yönəldir. Tətqiqat sualına cavab tapılır |
| ***Yaradıcı tətbiqetmə*** | Hər uşaq fərdi şəkildə “Azərbaycaın dövlətçilik ənənələrinin inkişafında Xürrəmilər hərəkatının rolu” haqqında mətin yazır |

<table>
<tr><td>Ev tapşırığı</td><td>Əgər Babəkin yerində olsaydım Ərəblərə qarşı hansı addımlar atardım?</td></tr>
<tr><td>Qiymətləndirmə</td><td>
<table>
<tr><th>I</th><th>II</th><th>III</th><th>IV</th></tr>
<tr><td>Xürrəmilər hərəkatının rolunu dəyərləndirməkdə çətinlik çəkir</td><td>Xürrəmilər hərəkatının rolunu dəyərləndirərkən köməkdən istdadə edir</td><td>Xürrəmilər hərəkatının rolunu sistemli dəyərləndirmir</td><td>Xürrəmilər hərəkatının rolunu sistemli dəyərləndirir</td></tr>
<tr><td>Xürrəmilər hərakatını şərh edərkən çətinlik çəkir</td><td>Xürrəmilər hərakatını müəllimin köməyi ilə şərh edir</td><td>Xürrəmilər hərakatını şərh edir, lakin fikirlərini ifadə etməkdə çətinlik çəkir</td><td>Xürrəmilər hərakatını şərh edir</td></tr>
</table>
</td></tr>
</table>

## VIII SİNİF AZƏRBAYCAN TARİXİ

***Mövzu: Azərbaycan torpaqlarinin iki imperiya tərəfindən bölüşdürülməsi***

***Alt standartlar:***

1.2.1. Dövrə aid hadisə, proses və təzahürləri verilmiş yazılı mənbələrlə əlaqələndirir;

1.2.2. Öyrəndiyi dövrə aid yazılı mənbələri təhlil edir, nəticələrini təqdim edir;

3.1.2. Dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyi-

ni dəyərləndirir.

***Təlimin məqsədi:***

1. XVIII əsrin birinci yarısında Azərbaycanda baş vermiş hadisə və proseslərin zamana görə əlaqələndirilməsinə dair yazılı mənbələrlə əlaqələndirir;

2. XVIII əsrin birinci yarısında dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini dəyərləndirir;

3. XVIII əsrin birinci yarısına aid yazılı mənbələri təhlil edir, nəticələrini təqdim edir.

***Təlim forması:*** qruplarla iş, kollektiv iş.

***Təlim üsulu:*** Beyin həmləsi, müzakirə.

***İnteqrasiya:*** Coğrafiya, musiqi.

***Resurslar:*** Xəritə, kompüter, proyektor, dərslik, lövhə, web 2.0 aləti.

***Motivasiya:***

Bu mərhələdə şagirdlərə XVIII əsrin 20-ci illərinə aid xəritə göstərilir. Şagirdlər əvvəlki dərsdə əldə etdikləri biliklərə əsaslanıb sullarla müraciət edirik:

1. XVIII əsrin 20-ci illərində hansı dövlətlər Azərbaycan ərazilərinə yürüşlər etmişdir;

2. xəritədə Rusiya tərəfindən tutulan əraziləri göstərin;

3. xəritədə Osmanlı ordusunun tutduğu əraziləri göstərin.

***Tədqiqat sualı:***

Rusiya və Osmanlı imperiyasının Azərbaycan əyalətlərində apardığı siyasət bir-birindən nə ilə fərqlənirdi?




***Tədqiqatın aparılması:***

Tədqiqatın aparılması mərhələsində sinifdəki şagirdləri 4 qrupa bölüb mövzu ilə bağlı tədqiqat aparmaq üçün iş vərəqləri paylayıb məlumatlar təqdim edilir:

1. Səfəvi qrupu;
2. Osmanlı qrupu;
3. Rusiya qrupu;
4. Azərbaycan qrupu.


Tədqiqatın aparılması üçün şagirdlərə mövzu ilə bağlı məlumatları özündə əks etdirən sxemlər təqdim olunur
Rusiyanın iqtisadi siyasəti
Rusiya sənayesinin xammala olan tələbatını ödəmək
Azərbaycanın zəngin olan təbii sərvətlərini talayıb aparmaq


Neft
Rus komandanlığın-da neft quyuları barədə xüsusi sənəd – REYESTR adlanırdı
Rusların əsas diqqət yetirdiyi sahələr
Balıqçılıq
İpəkçilik




I Pyotrun 1724-cü il noyabrın 14-də general-mayor Kropotova verdiyi xüsusi əmrdə qeyd olunurdu: «Erməni xalqı bizdən xahiş etmişdir ki, biz onları öz himayəmizə qəbul edib torpaqlar ayıraq, ona görə də sizə tapşırıram ki, əgər erməni xalqı bəyəndiyi yerdə yaşamaq istəsə, ona kömək edib ləyaqətlə qoruyun, elə rəftar edin ki, onlardan heç bir şikayət eşidilməsin, çünki biz burada erməni xalqını imperatorluq qayğısı ilə əhatə edib, öz himayəmizə götürmüşük.



*Nəticə və ümumiləşdirmə:*




Məlumat mübadiləsi və müzakirəsi başa çatdıqdan sonra qruplar onlara verilən tədqiqat sullarına cavab verirlər. Daha sonra nəticələr ümumiləşdirilir.

Nəticədə şagirdlər müəyyən edir ki, Rusiyanın Azərbaycanın işğal etdiyi əyalətlərində yürütdüyü siyasətin Osmanlıların yürütdüyü siyasətdən başlıca fərqi onların müstəmləkəçilik siyasəti yürütməsi idi.

Bu siyasətin əsas əlaməti kimi ermənilərin Azərbaycan torpaqlarında məskunlaşmasının əsasının qoyulması oldu. Bunun isə nəticələri Azərbaycan xaqı üçün sonradan çox ağır faciələrlə nəticələndi.

*Ev tapşırığı:*

Ev tapşırığı zamanı şagirdlərə Azərbaycanda apraılan siyasətə dair cədvəli dəftərə çəkib doldurmaq tapşırılır.

| **Dövlətlər** | **İşğal edilmiş ərazilər** | **Keçirilən tədbirlər** | **Nəticə** |
|---|---|---|---|
| Osmanlı İmperiyası | | | |
| Rusiya İmperiyası | | | |

## *Qiymətləndirmə:*

| **Qruplar** / **Meyarlar** | **I** | **II** | **III** | **IV** |
|---|---|---|---|---|
| Hadisə və proseslərin zamana görə əlaqələndirir, tematik sinxron cədvəllər hazırlayır | | | | |
| Azərbaycanın mövqeyini dəyərləndirir | | | | |
| Öyrəndiyi dövrə aid yazılı mənbələri təhlil edir | | | | |

| **I** | **II** | **III** | **IV** |
|---|---|---|---|
| Yazılı mənbələrlə əlaqələndirə bilmir | Yazılı mənbələrlə edərkən səhflərə yol verir | Müəllimin köməyi ilə tərtib edir | Asanlıqla yazılı mənbələrlə əlaqələndirir |
| İzah etmədə çətinlik çəkir | İzah etdikdə dərsin müəyyən hissəsini anlada bilmir | Müəllimin köməyi ilə tərtib edir | Fikrini tam izah edir |
| Azərbaycanın mövqeyini dəyərləndirə bilmir | Azərbaycanın mövqeyini dəyərləndirərkən səhflərə yol verir | Müəllimin köməyi ilə Azərbaycanın mövqeyini dəyərləndirir | Dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini dəyərləndirir |

## IX SİNİF AZƏRBAYCAN TARİXİ

***Mövzu: Bakının dünyanın neft mərkəzinə çevrilməsi***

***Alt standartlar:***

1.2.2. Müxtəlif mənbələr əsasında təqdimatlar hazırlayır;

2.1.1. Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında əlaqələri dəyərləndirir;

4.1.2. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinə dair materiallar toplayır, təqdim edir.

***Təlimin məqsədləri:***

1. Şimali Azərbaycanın XIX əsrin sonuna neft sənayesində baş vermiş ilklərlə bağlı təqdimat hazırlayır;
2. Şimali Azərbaycanın neft sənayesi və digər istehsal sahələrinin inkişafı əsasında əlaqələri dəyərləndirir;
3. XIX əsrin sonunda Şimali Azərbaycanda neft sənayesində mühüm rol oynamış şəxsiyyətlər haqqında məlumat toplayıb təqdim edir.

***İş forması:*** qrup və kollektivlə iş.

***Təlim üsulu:*** Beyin həmləsi, müzakirə, Venn diaqramı.

***Resurslar:*** Dərslik, iş vərəqləri, internet resursu.

***Dərsin mərhələləri:***

***Motivasiya:***













Bildiyimiz kimi, neft Vətənimizin strateji sərvətidir. Neft sənayesinin tarixi qədim olsa da, onun sürətli inkişafı XIX əsrin ikinci yarısından başladı.

1. Bu şəkillər sizə nə nəyi ifadə edir?
2. XIX əsrin ikinci yarısında neft sənayesi necə inkişaf etdi?
3. Vətənimiz hansı sahədə dünyada ilklərə imza atdı?
4. Neft sənayesində xarici kapitalı rolu var idimi?

***Tədqiqat sualı:***

XIX əsrin sonunda neft sahəsində baş verən dəyişikliklər Şimali Azərbaycanın həyatında hansı rolu oynadı?

*I qrup:* XIX əsrin sonlarında neft sənayesində baş vermiş "ilklər" haqqında təqdimat hazırlayın;

*II qrup:* XIX əsrin sonunda neft sənayesinin inkişafında xarici kapitalın rolu mövzusunda təqdimat hazırlayın;

*III qrup:* Neft sənayesinin inkişafında rol oynamış Azərbaycanın milyonçuları haqqında təqdimat hazırlayın;

*IV qrup:* Hacı Zeynalabdin Tağıyevin Şimali Azərbaycanın sənayesindəki rolu haqqında təqdimat hazırlayın;

*V qrup:* Neft sənayesində baş vermiş inhisarlaşma haqqında təqdimat hazırlayın.

***Məlumatın mübadiləsi və müzakirəsi:*** Şagirdlər bu mərhələdə "Bakının dünyanın neft mərkəzinə çevrilməsi" mövzusunda əldə etdikləri yeni biliklərin təqdimatına başlayırlar. Daha sonra müzakirə edərək yeni bilikləri sistemləşdirirlər.

***Ümumiləşdirmə və nəticələrin çıxarılması mərhələsi:***

Şagirdlər XIX əsrin sonlarında neft sənayesində baş vermiş dəyişiklikləri analiz edir, dəyərləndirir və ümumi nəticəyə gəlirlər.

***Yaradıcı tətbiqetmə:***

XIX əsr Bakısı ilə XXI əsrin Bakısını Venn diaqramında müqayisə edin.

1.



2.





***Ev tapşırığı:*** " Azərbaycanın xeyriyyəçiləri" adlı fotokollaj hazırlayın.

***Qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| Şimali Azərbaycanın XIX əsrin sonu tarixi üçün neft sənayesində baş vermiş ilklərlə bağlı təqdimat hazırlamaqda çətinlik çəkir | Şimali Azərbaycanın XIX əsrin sonu tarixi üçün neft sənayesində baş vermiş ilklərlə bağlı təqdimat hazırlayarkən müəllimdən kömək alır | Şimali Azərbaycanın XIX əsrin sonu tarixi üçün neft sənayesində baş vermiş ilklərlə bağlı təqdimat hazırlayarkən səhvlərə yol verir | Şimali Azərbaycanın XIX əsrin sonu tarixi üçün neft sənayesində baş vermiş ilklərlə bağlı təqdimatı sistemli şəkildə hazırlayır |

| | | | |
|---|---|---|---|
| Şimali Azərbaycanın neft sənayesi və digər istehsal sahələrinin inkişafı əsasında əlaqələri dəyərləndirməkdə çətinlik çəkir | Şimali Azərbaycanın neft sənayesi və digər istehsal sahələrinin inkişafı əsasında əlaqələri dəyərləndirərkən sinif yoldaşlarından kömək alır | Şimali Azərbaycanın neft sənayesi və digər istehsal sahələrinin inkişafı əsasında əlaqələri dəyərləndirərkən yanlışlıq edir | Şimali Azərbaycanın neft sənayesi və digər istehsal sahələrinin inkişafı əsasında əlaqələri sistemli şəkildə dəyərləndirir |
| XIX əsrin sonunda Şimali Azərbaycanda neft sənayesində mühüm rol oynamış şəxsiyyətlər haqqında məlumat toplayıb təqdim etməkdə çətinlik çəkir | XIX əsrin sonunda Şimali Azərbaycanda neft sənayesində mühüm rol oynamış şəxsiyyətlər haqqında məlumat toplayıb təqdim edərkən sinif yoldaşlarının köməyindən istifadə edir | XIX əsrin sonunda Şimali Azərbaycanda neft sənayesində mühüm rol oynamış şəxsiyyətlər haqqında məlumat toplayıb təqdim edərkən səhvlərə yol verir | XIX əsrin sonunda Şimali Azərbaycanda neft sənayesində mühüm rol oynamış şəxsiyyətlər haqqında məlumat toplayıb təqdim edir |

## X SİNİF AZƏRBAYCAN TARİXİ

### *Mövzu: Azərbaycan Atabəyləri (Eldənizlər) dövləti*

***Alt standartlar:***

2.1.2. Müxtəlif tarixi dövlərdə Azərbaycanın geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edir;

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir;

4.1.1. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərini (I Axsitan, Qara Yusif, Uzun Həsən, Şah I İsmayıl, Şah I Abbas, Nadir şah, Cavad xan, Ağa Məhəmməd şah Qacar) dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.

***Təlimin məqsədi:***

1. Eldənizlər dövründə Azərbaycanın geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edir;
2. Eldənizlər dövlətinin yaranması və inkişafında dövrün xüsusiyyətlərini dəyərləndirir;
3. Eldəniz və Cahan Pəhləvanı dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.

***İnteqrasiya:*** Coğrafiya 3.2.4., Ümumi tarix 2.1.2.

***Təlim forması:*** kollektiv və qrupla iş.

***Təlim üsulu:*** Beyin həmləsi, müzakirə, BİBÖ.

***Resurslar:*** Dərslik, xəritə, şəkil, iş vərəqləri, Z.Bünyadovun "Atabəylər dövləti" kitabı.

***Dərsin mərhələləri:***

***Motivasiya:***

İnsan öz ağlı və zəkası ilə nələr əldə edə bilər?

Sizcə bir qulun dövlət başçısı vəzifəsinə kimi yüksəlməsinə səbəb nə oldu?

Azərbaycanda belə hansı hökmdarları tanıyırsız?

***Tədqiqatın aparılması:***

Atabəylər dövlətinin Azərbaycan tarixində yeri və rolu nədən ibarətdir?

*I qrup* – Şəmsəddin Eldənizin hakimiyyət dövrünü təsvir edib qiymətləndirin;

*II qrup* – Məhəmməd Cahan Pəhləvanın hakimiyyət illərini təhlil edin və uğurlu siyasətini qiymətləndirin;

*III qrup* – Atabəylər dövlətinin qonşuluq münasibətlərini dövr baxımından dəyərləndirin;

*IV qrup* – Atabəylər dövlətinin tənəzzülü və süqutu dövrünü təhlil edin.

***Məlumatın mübadiləsi və müzakirəsi***:

Şagirdlər tədqiqat zamanı əldə etdikləri informasiyanın təqdimatını edir və qazandıqları yeni məlumatları sistemlədirmək üçün müzakirə edirlər.

***Nəticə və ümumiləşdirmə:***

Atabəylər dövlətinin Azərbaycan tarixində yeri və rolu nədən ibarətdir? Tədqiqat sualı ilə fərziyyələr tutuşdurulur və konkret nəticəyə gələrək, ümumiləşdirilir.

***Kollektiv iş:*** Sultan I Toğrulla Şəmsəddin Eldənizin fəaliyyətini Venn diaqramında müqayisə edin.

***Yaradıcı tətbiqetmə:*** Eldənizlər dövləti haqqında material toplayın və təqdimat hazırlayın.

***Qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| Eldənizlər dövlətinin yaranması və inkişafı dövrünü səciyyələndirməkdə çətinlik çəkir | Eldənizlər dövlətinin yaranması və inkişafı dövrünü təsvir edir | Eldənizlər dövlətinin yaranması və inkişafı dövrünü yaxşı xarakterizə edir | Eldənizlər dövlətinin yaranması və inkişafı dövrünü dəqiq səciyyələndirir |
| Eldənizlər dövlətinin qonşuluq münasibətini dövr baxımından dəyərləndirməkdə çətinlik çəkir | Eldənizlər dövlətinin qonşuluq münasibətini dövr baxımından dəyərləndirdikdə səhvlər edir | Eldənizlər dövlətinin qonşuluq münasibətlərini dövr baxımından məntiqlə dəyərləndirir və bu bir hissəni təşkil edir | Eldənizlər dövlətinin qonşuluq münasibətini dövr baxımından məntiqlə dəyərləndirir və bütün nəsnələri əhatə edir |
| Eldənizlər dövlətinin tənəzzülü və süqutu dövrünün təhlilində nəticələr əldə edə bilmir | Eldənizlər dövlətinin tənəzzülü və süqutu dövrünün təhlilində yarımçıq nəticələr əldə edir | Eldənizlər dövlətinin tənəzzülü və süqutu dövrünün təhlil edir lakin şərhində qüsurlara yol verir | Eldənizlər dövlətinin tənəzzülü və süqutu dövrünü mükəmməl təhlil edir |

## XI SİNİF AZƏRBAYCAN TARİXİ

***Mövzu: Azərbaycan mədəniyyəti XIX əsr – XX əsrin əvvəllərində***

***Alt standartlar:***

5.1.1. Dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirir;

5.1.2. Azərbaycanın milli-mənəvi dəyərlərini Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi dəyərləndirir;

5.1.3. Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparır, nəticələri təqdim edir.

***Təlim məqsədləri:***

1. XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinin inkişafındakı rolunu dəyərləndirir;

2. XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan milli-mənəvi dəyərlərini Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi dəyərləndirir.

***İnteqrasiya:*** Ümumi tarix – 5.1.3., Ədəbiyyat – 3.1.2.

***Təlim forması:*** kiçik qrupla və fərdi iş.

***Təlim üsulu:*** fasiləli oxu, təqdimat.

***Resurslar:*** dərslik, dövrün memarlıq abidələrinin şəkilləri, dövrün şəxsiyyətlərinin portreti, mövzuya aid slaydlar, flipçart, marker və s.

***Dərsin gedişi***

***Motivasiya:***




Klaster üsulundan istifadə edərək şagirdlərlə dərsin adını müəyyənləşdirdikdən sonra mövzu ilə bağlı şagirdlərin fərziyyələrini alırıq. Fasiləli oxu üsulundan istifadə edərək şagirdləri yeni mövzu ilə tanış edirik. Mövzu ilə bağlı sual və tapşırıqlara nəzər yetirərək onlarda bir növ motivasiya formalaşdıraraq, tədqiqatın sualını aşağıdakı kimi təqdim edirik.

***Tədqiqat sualı:***

*XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan mədəniyyəti hansı inkişaf yolunu keçdi?*

Mövzunun tədrisi zamanı təqdimat üsulundan istifadə edərək şagirdləri yaradıcılığa və tədqiqata cəlb edirik.

Şagirdləri qruplara bölərək, aşağıdakı tapşırıqları təqdim edirik:

*I qrup.* XIX əsr – XX əsrin əvvəlində Azərbaycan elmindəki dəyişiklikləri dəyərləndirib təqdimat hazırlayın;

*II qrup.* XIX əsr – XX əsrin əvvəlində Azərbaycanda təhsil sahəsində görülmüş tədbirləri və aparılmış islahatların milli-mənəvi dəyərlərimizə təsirini təhlil edib təqdimat hazırlayın;

*III qrup.* XIX əsr – XX əsrin əvvəllərində Azərbaycanda incəsənətin inkişafının dünya mədəniyyətinə təsirini dəyərləndirib təqdim edin;

*IV qrup.* XIX əsr – XX əsrin əvvəllərində Azərbaycanda mətbuat və ədəbiyyatın inkişaf xüsusiyyətlərini dünya mədəniyyəti ilə əlaqədə dəyərləndirib təqdim edin;

*V qrup.* Azərbaycan mədəniyyəti XIX əsr – XX əsrin əvvəllərində dünya mədəniyyətinə hansı töhfələrini verə bildi?

***Məlumatın mübadiləsi və müzakirəsi:*** Bu mərhələdə şagirdlər *"Azərbaycan mədəniyyəti XIX əsr – XX əsrin əvvəllərində"* mövzusunda əldə etdiyi yeni informasiyanın təqdimatına başlayır, əldə etdiyi yeni bilikləri digər iştirakçılarla bölüşürlər.

***Nəticələrin çıxarılması:*** Müzakirələrdən sonra şagirdlər XIX əsr – XX əsrin əvvəllərində Azərbaycanın mədəniyyətində baş vermiş dəyişiklikləri, milli-mənəvi dəyərləri müzakirə edərək dəyərləndirirlər.

***Yaradıcı tətbiqetmə:*** Bu mərhələdə şagirdlər Azərbaycanın XIX əsr - XXəsrin əvvəllərində baş vermiş dəyişiklikləri sxem şəklində tərtib edirlər.

***Ev tapşırığı:*** Hənifə xanım Məlikova haqqında məlumat toplayın.

***Qiymətləndirmə meyarları:***

Şagirdlərə özünüqiymətləndirmə vərəqləri təqdim edərək qiymətləndirmə prosesini aparırıq.

Əvvəlcədən müəyyən olunmuş meyarlara müvafiq səviy-

yələr üzrə müəyyənləşdirilmiş formativ qiymətləndirməni təqdim edirik.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinin inkişafındakı rolunu dəyərləndirməkdə çətinlik çəkir | XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinin inkişafındakı rolunu suallar vasitəsilə dəyərləndirir | XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinin inkişafındakı rolunu cüzi səhvlərlə dəyərləndirir | XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinin inkişafındakı rolunu dəyərləndirir |
| XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan milli-mənəvi dəyərlərini dünya mədəniyyətinə töhfə kimi dəyərləndirməkdə çətinlik çəkir | XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan milli-mənəvi dəyərlərini dünya mədəniyyətinə töhfə kimi suallar vasitəsilə dəyərləndirir | XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan milli-mənəvi dəyərlərini dünya mədəniyyətinə töhfə kimi cüzi səhvlərlə dəyərləndirir | XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan milli-mənəvi dəyərlərini dünya mədəniyyətinə töhfə kimi dəyərləndirir |

***Qrupların qiymətləndirmə meyarları:***

| **Qruplar** | **Mənbələrdən düzgün istifadə** | **Tapşırığın düzgün hazırlanması** | **Təqdimetmə** | **Əməkdaşlıq** | **Ümumi nəticə** |
|---|---|---|---|---|---|
| **I** | | | | | |
| **II** | | | | | |
| **III** | | | | | |
| **IV** | | | | | |

# VI SİNİF ÜMUMİ TARİX FƏNNİ

## *Mövzu: Qədim Misirdə Mədəniyyət*

| | |
|---|---|
| **Alt Standartlar** | 4.1.1 Tarixi şəxsiyyətləri (Tutanhamonu, I Tutmos, III Tutmos, II Ramzes, Hammurapi, Aşşurbanipal, II Sarqon, II Kir, I Dara, Mete Xaqan, İsgəndər, Aşoka, Solon, Mitridat, Perikl, Yuli Sezar, Konstantin) müəyyənləşdirir.<br>5.1.1 Mədəniyyətin ayrı-ayrı sahələrinin insanların həyat tərzi ilə əlaqələrini izah edir |
| **Məqsəd** | 1. Misirin tarixi şəxsiyyətlerini müəyyənləşdirir.<br>2.Misir mədəniyyətinin ayrı-ayrı sahələrinin insanların həyat tərzi ilə əlaqələrini izah edir |
| **Təlim forması** | Kollektiv və kiçik qruplarla iş |
| **Təlim üsulu** | Beyin həmləsi, Müzakirə. |
| **Resursları** | Marker, xəritə, dərslik, iş vərəqləri, əlavə resurslar və s. |
| **İnteqrasiya** | 5.1.2 Aərbaycan tarixi 6 –ci sinif, 1.1.1 6-cı sinif Coğrafiya |

| **Dərsin mərhələləri** | **Dərsin gedişatı** |
|---|---|
| **Motivasiya** | 1. Vaxtı müəyyənləşdirmək üçün nədən istifadə edilir?<br>2. Aranızda "Mumiya" filmini izləyən varmı?<br>3. Mumiyalaşdırma dedikdə nə başa düşürsünüz?<br>4. Kim dünayanın 7 möcüzəsini sadalaya bilər? |
| **Tədqiqat sualı** | Şagirdlərə tətqiqat sualı ilə müraciət olunur: Misir mədəniyyətinin dünya mədəniyyətində rolu nədən ibarətdir? |
| **Tədqiqatın aparılması** | Müəllim tərəfindən verilmiş əlavə resurslar və dərsliyə əsasən qrup işlərinin yerinə yetirilməsi<br>***Amon Qrupu***<br>*Misirdə hansı Allahlara sitayiş edildiyini iş vərəqində qeyd edin.*<br>***Sfinks Qrupu***<br>*Misirdə hakimiyyətdə olmuş fironlar haqqında. məlumatları qeyd edin.*<br>***Heroqlif Qrupu***<br>Misirlilərin elmi bilikləri haqqinda qisa məlumat verin |

| | | | | |
|---|---|---|---|---|
| **Məlumatın mübadiləsi və müzakirəsi** | Qruplar iş vərəqlərini lövhədən asır və təqdimatlarını həyata keçirirlər. Şagirdlər təqdimatlar əsasında müxtəlif məlumatlarla tanış olurlar. Suallar verilir. Fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir | | | |
| **Nəticə və ümumiləşdirmə** | Müzakirə başa çatdıqdan sonra qrup işlərinin nəticələri ümumiləşdirilir<br>Müəllim öz yekun sözləri ilə şagirdləri son nəticələrə yönəldir. Tətqiqat sualına cavab tapılır | | | |
| **Yaradıcı tət-biqetmə** | Hər uşaq fərdi şəkildə Venn diaqramı vasitəsi ilə Misir Mədəniyyəti ilə Şumer mədəniyyətini müqayisə etsin | | | |
| **Ev tapşırığı** | Misir mədəniyyəti haqqında kiçik esse yazmaq | | | |
| **Qiymətləndirmə** | **I** | **II** | **III** | **IV** |
| | tarixi şəx-siyyətlərini müəyyən-ləşdirməkdə çətinlik çəkir | tarixi şəxsiy-yətlərini müəy-yənləşdirərkən müəllimin kö-məyindən istifadə edir | tarixi şəxsiy-yətlərini müəyyənləş-dirərkən cuzi səhvlərə yol verir | tarixi şəxsiyyət-lərini sərbəst şəkildə müəyyən-ləşdirir |
| | mədəniyyəti-nin ayrı-ayrı sahələrinin insanların həyat tərzi ilə əlaqələrini çətinliklə izah edir | mədəniyyətinin ayrı-ayrı sahələrinin insanların həyat tərzi ilə əlaqələrini verilən suallarla izah edir | mədəniyyəti-nin ayrı-ayrı sahələrinin insanların həyat tərzi ilə əlaqələrini asalıqla izah edir | mədəniyyə-tinin ayrı-ayrı sahələ-rinin insan-ların həyat tərzi ilə əlaqələrini nümunələrlə izah edir |

## VII SİNİF ÜMUMİ TARİX

***Mövzu: Səlcuq imperatorluğu***

***Alt standartlar***

1.1.3. Tarixi faktları xronoloji qaydada sistemləşdirir;

3.1.1. Feodal dövlətlərin yaranması, idarəçilik formaları və sosial-iqtisadi, siyasi münasibətləri şərh edir;

4.1.1. Dövlətlərin və mədəniyyətlərin inkişafında şəxsiyyətlərin rolunu izah edir.

***Təlimin məqsədi***

1. Səlcuq imperiyasında baş verən mühüm tarixi hadisələri xronoloji qaydada sistemləşdirir;
2. Səlcuq imperiyasının yaranması, idarəçilik sistemi və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir;
3. Səlcuq imperiyasının inkişafında mühüm rol oynayan şəxsiyyətlərin fəaliyyətini faktlara əsasən izah edir.

***İnteqrasiya.***

Azərbaycan tarixi - 4.1.1 ; H-b 2.1.1

***Resurslar.***

Dərslik, dünya xəritəsi, tematik xəritə, iş vərəqləri, internet resursları.

***Dərsin mərhələləri***

***Motivasiya***

1. Bu illüstrasiya haqqında nə deyə bilərsiz?
2. Sizcə, şəkillər hansı xalqın həyatını əks etdirir?
3. Səlcuqlar öz dövlətini necə yaratdılar?

Tədqiqat sualı: Səlcuq imperatorluğunun yaranmasının tarixi əhəmiyyəti nədir?

*I qrup:* Dəndənəkan döyüşü və nəticəsi;


BÖYÜK SƏLCUQ İMPERİYASI
Don
Dnepr
Volqa(İdil)
ARAL DƏNİZİ
Sır dərya
Amu dərya
Macarlar
Dunay
Bulqarlar
QARA DƏNİZ
Sinop
Ədirnə
Konstantinopol
Sivas
Trabzon
Ərzincan
Bizans imperiyası
İzmir
Adana
Diyarbəkir
Mosul
Bağdad
Şam
Quds
ARALIQ DƏNİZİ
İsgəndəriyyə
MİSİR
QIRMIZI DƏNİZ
Mədinə
Məkkə
ƏRƏBİSTAN
Bəsrə
İRAN KÖRFƏZİ
Şiraz
Hörmüz
HİND OKEANI
Baki
XƏZƏR DƏNİZİ
XARƏZM
Səmərqənd
Buxara
Mərv
Nisa
Tus
Dəndənəkan
Kabil
Rey
XORASAN
Nişapur
Herat
QƏZNƏVİLƏR
Qəznə
Yəzd
İsfahan
Kirman
PAMİR
HİNDİSTAN
Şərti işarələr
Böyük Səlcuq imperiyası
Bizans imperiyası


QINIQ







*II qrup:* Sultan Toğrul hakimiyyəti dövründə baş verən hadisəələri şərh edin;

*III qrup:* "İslamın nuru" ifadəsinin mahiyyətini faktlara əsaslanaraq izah edin;

*IV qrup:* Böyük imperiyanın süqutunu labüd edən səbəbləri faktlara əsasən izah edin;

*V qrup:* Səlcuq imperiyasının yaranması və inkişafında baş verən mühüm tarixi hadisələri xronoloji qaydada sistemləşdirin.

***Məlumatın mübadiləsi və müzakirəsi:***

Şagirdlər bu mərhələdə tədqiq etdikləri tapşırıqları təqdim edirlər daha sonra müzakirə edərək biliklərini möhkəmləndirirlər.

***Ümumiləşdirmə və nəticə:***

Müəllimin istiqaməti ilə şagirdlər əvvəlki mərhələdə qeyd olunan bütün fikirləri ümumi ideya ətrafında ümumiləşdirir və nəticəyə gəlirlər.

***Yaradıcı tətbiqetmə:***

Səlcuq imperatorları haqqında təqdimat hazırlayın.

***Qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| 1.Səlcuq imperiyasında baş verən mühüm tarixi hadisələri xronoloji qaydada sistemləşdirməkdə çətinlik çəkir | 1.Səlcuq imperiyasında baş verən mühüm tarixi hadisələri xronoloji qaydada sistemləşdirərkən sinif yoldaşlarından kömək alır | 1.Səlcuq imperiyasında baş verən mühüm tarixi hadisələri xronoloji qaydada sistemləşdirərkən yanlışlıqlar edir | 1.Səlcuq imperiyasında baş verən mühüm tarixi hadisələri xronoloji qaydada sistemləşdirir |

| | | | |
|---|---|---|---|
| 2.Səlcuq imperiyasının yaranması, idarəçilik sistemi və sosial-iqtisadi, siyasi münasibətlərini şərh etməkdə çətinlik çəkir | 2.Müəllimin köməkliyi ilə Səlcuq imperiyasının yaranması, idarəçilik sistemi və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir | 2.Səlcuq imperiyasının yaranması, idarəçilik sistemi və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edərkən qüsurlara yol verir | 2.Səlcuq imperiyasının yaranması, idarəçilik sistemi və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir |
| 3.Səlcuq imperiyasının inkişafında mühüm rol oynayan şəxsiyyətlərin fəaliyyətini faktlara əsasən izah etməkdə çətinlik çəkir | 3.Səlcuq imperiyasının inkişafında mühüm rol oynayan şəxsiyyətlərin fəaliyyətini faktlara əsasən izah etməkdə sinif yoldaşlarından kömək alır | 3.Səlcuq imperiyasının inkişafında mühüm rol oynayan şəxsiyyətlərin fəaliyyətini faktlara əsasən izah edərkən yanlışlıqlar edir | 3.Səlcuq imperiyasının inkişafında mühüm rol oynayan şəxsiyyətlərin fəaliyyətini faktlara əsasən izah edir |

## VIII SİNİF ÜMUMİ TARİX FƏNNİ

***Mövzu: Böyük Britaniya necə yarandı?***

2.1.1. Feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, dünyada baş vermiş iqtisadi, sosial dəyişiklikləri məkanla əlaqədə izah edir;

2.1.2. Dövlətlərin və xalqların həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür;

4.1.1. Tarixi şəxsiyyətləri (Oliver Kromvel, Maksimilian Robespyer, I Pyotr, II Yekaterina, Corc Vaşinqton, Benjamin Franklin, Köprülü Mehmet paşa, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar) müqayisə edir.

***Məqsəd:***

1. İngiltərədə baş vermiş iqtisadi, sosial dəyişiklikləri məkanla əlaqədə izah edir;
2. İngiltərədə baş vermiş ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür;
3. İngiltərənin siyasi həyatlnda rol oynamış şəxsiyyyətləri müqayisə edir.

***İş forması:*** kollektiv və qruplarla iş;

***Təlim üsulu:*** beyin həmləsi, müzakirə, esse;

***İnteqrasiya:*** 8-ci sinif Coğrafiya;

***Resurslar:*** dərslik, xəritə, marker, iş vərəqləri, paylayıcı materillar və s.

***Dərsin mərhələləri:*** Motivasiya




Bu açar  sözlər  haqqında nə deyə bilərsiniz

1) İngiltərədə vətəndaş müharibəsi  nə vaxt  olmuşdu?
2) Neyizbi yaxinlığındakı döyüşün əhəmiyyəti nə oldu?
3) Vətəndaş müharibəsində niyə parlament tərəfdarları qələbə çaldı?

*Şagirdlər öz fərziyəlrin irəli sürür.*

*Tədqiqat sualı:* İngiltərənin siyasi həyatlnda rol oynamış Oliver Kromvelin rolu nədən ibarət olmuşdur?

Bu suala cavab axtarmaq üçün qruplarla iş aparılır. Onlara tapşırıqlar verilir.

*I qrup* - İnqilab illərində hansı feodal qaydaları ləğv edildi? Fikrinizi izah edin və İri mülkədarların kral hakimiyyətini ləğv etmək istəməməsi səbəbini izah edin

*II qrup* - İngiltərənin işğalları və onun nəticələri haqqında fikirlərinizi cədvəldə qeyd edin. Kontur xəritənin köməyindən istifadə edin

| İrlandiya | Şotlandiya |
|---|---|
| | |

*III qrup* - Cədvəldə Levelelər və diggelərin fəaliyyətini səciyələndiərək  fərqli və  ümumi cəhədlərini qeyd edin

| **Levvellelər** | | **Diggerlər** | |
|---|---|---|---|
| **Ümumi** | **Fərqli** | **Ümumi** | **Fərqli** |
| | | | |

*IV qrup* - Kovvelin inqilabda oynadığı rolu səciyələndirib  II Yakovla müqayisə edib tədqiqat hazırlayın

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmış zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər.

***Məlumatin müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir,müzakirə olunur və əlavələr edilir. Meyar əsasında qruplar qiymətləndirilir.

| **Qruplar** | **Mübadilədən düzgün istifadə** | **Təqdim etmə** | **Tapşırıq vaxtında yerinə yetirilib** | **Əməkdaşlıq** | **Ümumi nəticə** |
|---|---|---|---|---|---|
| **I** | | | | | |
| **II** | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **III** | | | | | |
| **IV** | | | | | |

***Nəticə və ümumiləşdirmə:*** Nəticədə şagirdlər dünyada ilk dəfə İngiltərədə parlamentli monarxiya hakimiyyəti formasınının müəyyən edilməsini bildi, İngiltərənin işğalları zamanı qonşu dövlətlərin siyasi vəziyyətini və idarə forması ilə tanış oldu, Parlamentin qəbul etdiyi qanunların hamı üçün məcburi olmağını anladılar, Oliver Kromvellə II Yakovun İngiltərə tarixində oynadığı rolu aydınlaşdırlar

***Yaradıcı tətbiqetmə*:** Venn diaqramında 1660-cı il dövlət çevrilişi ilə 1688-ci il dövlət çevrilişini müqayisə edib oxşar və fərqli cəhətləri qeyd edin.



***Ev tapşırığı*:** Müasir İngiltərə haqqında layihə hazırlayın.

***Refleksiya və qiymətləndirmə*:**

Refleksiya: Şagirdlər fərdi şəkildə qiymətləndirilir. Təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə sual verməklə- məsələn, biz nəticəyə necə gəlib çıxdıq? Nece nail olduq? Qrupun liderlərinə belə sualla müacirət edirəm siz Oliver Kromvelin hərəkətinə necə qiymət verirsiz? Xəritədə müasir İngiltərənin ərazilərini müqayisə edin.





*Qiymətləndirmə meyyarları:*

1. izah etmə.
2. xəritələrə köçürmə
3. müqayisə etmə

| I | II | III | IV |
|---|---|---|---|
| xəritələrin vastəsi ilə çətinliklə təhlil edir | xəritələrin vastəsi ilə təhlil edərkən səhvlər edir | xəritələrin vastəsi ilə təhlil edərkən bəzi səhvlər edir | xəritələrin vastəsi ilə asanlıqla təhlil edir, xəritələrə köçürür |
| Müqayisə etməkdə çətinlik çəkir | Müqayisə edərkən müəllimin köməyindən istifadə edir | Müqayisə edir, lakin fkrini çatdırarkən səhvlər edir | İngiltərə dövlətinin siyasi həyatlnda rol oynamış şəxsiyyyətləri müqayisə edir |
| İngiltərədə baş vermiş dəyişiklikləri izah etməkdə çətinlik çəkir | İngiltərədə baş vermiş iqtisadi,sosial dəyişiklikləri müəllimin köməyindən istifadə etməklə edir | Ingiltərə baş vermiş sosiala dəyişiklərin izahında müəyyən səhflərlə edir | İngiltərədə baş vermiş iqtisadi, sosial dəyişiklikləri məkanla əlaqədə izah edir |

# IX SİNİF ÜMUMİ TARİX FƏNNİ

***Mövzu: Böyük Britaniya, Fransa və ABŞ***

***Alt standartlar:***

1.1.3. Mühüm tarixi faktların zaman əlaqəsini göstərən sinxron cədvəllər hazırlayır

2.1.1. Kapitalist münasibətlərinin inkişaf prosesində və müasir dünyada ölkələrin və xalqların sosial, siyasi, iqtisadi və mədəni həyatında baş verən dəyişiklikləri məkan baxımdan qiymətləndirir.

***Məqsəd***:

I dünya müharibəsindən sonra Böyük Britaniya, Fransa və ABŞ-ın siyasi vəziyyətini göstərən sinxron cədvəllər hazırlayır;

20 –ci əsrin 30- cü illərində dünyada, xalqların sosial, siyasi, iqtisadi və mədəni həyatında baş verən Böyük böhranı məkan baxımdan qiymətləndirir.

***İş forması:*** kollektiv və qruplarla iş;

***Təlim üsulu:*** beyin həmləsi, müzakirə, esse;

***İnteqrasiya:*** 9-cu sinif Coğrafiya;

***Resurslar:*** dərslik, xəritə, marker, iş vərəqləri, paylayıcı materillar və s.

***Dərsin mərhələləri:*** Motivasiya

1) Antantanın üzvü olan dövlət hansı idi?
2) Antantanın üzvlərindən hansı dövlətlər qalıb gəldi ?

Gəlin cədvəldə fikirlərimiz faklara əsaslanaraq qeyd edək

| Antanta ittifaqı | Üçlər ittıfaqı | ABŞ-ın “Antanta” tərəfində müharibəyə qoşulması və mövqeyi |
|---|---|---|
| | | |

*Şagirdlər öz fərziyəlrin irəli sürür.*

*Böyük Britaniya, Fransa və ABŞ Birinci Dünya müharibəsindən qalib çıxmış ölkələr idilər. Müharibənin onların xeyrinə həll olması bu dövlətlərin maraqlarına uyğun sülh şərtlərinin bağlanması ilə nəticələndi. Buna baxmayaraq, bəzi məsələlərdə bu dövlətlərin maraqları da yarımçıq qaldı*

*Tədqiqat aparmaq üçün qruplara sual və tapşırıqlar verirəm*

*Tədqiqat sualı:* Müharibədən qalib çıxmaq bu ölkələrə nə verdi?

Bu suala cavab axtarmaq üçün qruplarla iş aparılır. Onlara tapşırıqlar verilir.

*I qrup* - Böyük böhran" haqqında məlumat toplayaraq səbəbini araşdırın

*Iiqrup* - Böyük Britaniya və Fransanın partiyaların siyasətlərini araşdırıb cədvəldə qeyd edin

| **Böyük Britaniya** | **Fransa** |
|---|---|
| | |

*III qrup* - Franklin Ruzvelt ölkəni böhrandan çıxartmaq üçün "Yeni xətt" siyasətinin mahiyyətini izah edin:

*IVqrup* - Vaqner qanunu ilə "Yeni xətt Siyasətini müqayissə edib cədvəldə qeyd edin:

| **Vaqner qanunu** | **Yeni xətt" siyasəti** |
|---|---|
| | |

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər.

